**RUHULLA ZAHİDOV**

# ARAMIZDA BİR İGİD VARDI

**Gəncə - 2023**

**Redaktor:** **İnqilab Şirinli, Teleaparıcı, AJB-nin və Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü.**

**Korrektor:** **Nərmin Zahid**

**Dizayn:** **Elnarə Məmmədova**

**"Aramızda bir igid vardı". Gəncə, 2023, 140 səh.**

***Şücaət - igidlik, rəşadət, cəsarət, cəngavərlik, qoçaqlıq, bahadırlıq, mərdlik deməkdir. Şücaət göstərmək - hünər göstərmək, igidlik etməkdir.***
***Bu kitab 1992-ci ildə erməni faşistləri ilə döyüşdə xüsusi igidlik və qəhrəmanlıq göstərmiş igid döyüşçü Natiq Qasımovun əziz xatirəsinə ithaf olunur. Kitabda qəhərman və qəhrəmanlıq mövzusunda qələmə alınan publisistik yazılar yer almışdır.***
***Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**"EKAdizayn" Gəncə 2023**

# Müəllifdən

Şücaət - igidlik, rəşadət, cəsarət, cəngavərlik, qoçaqlıq, bahadırlıq, mərdlik deməkdir. Şücaət göstərmək - hünər göstərmək, igidlik etməkdir.

Qəhrəmanlar necə yetişir?!. Onları qəhrəmanlıq, igidlik və əsgəri rəşadət göstərməyə həvəsləndirən hansı amillər və hisslərdir? Ümumiyyətlə insan anadan qəhrəmanmı doğulur? Suallar çoxdur. Hər sualın öz cavabı, hər qəhrəmanın da öz yetişmə mühiti, öz tarixçəsi, bu qəhrəmanlığı etməyə isə müxtəlif amil və səbəblər olur. Fikrimizcə, bütün bunları birləşdirən yeganə səbəb vardır. O, insanı bu nəcib, alicənab hərəkətə təhrik edən daxili səsdir. İnsana, əsl insana lazım olan yüksək iradə, qətiyyət, istəkdir. Qəhrəman hansı mühitdə yetişirsə, yetişsin, onu bu işə səsləyən daxili səs, mənəvi tələbat və istəkdir. Əks təqdirdə, torpaqlarımız uğrunda ölüm-dirim savaşına qalxmış bu igid oğullarımızın göstərdiyi əsgəri rəşadətin, qətiyyət və əzmin, qəhrəmanlığın mahiyyətini necə başa düşmək olardı?

Azərbaycanın müxtəlif millətlərinin erməni qaniçənlərinə olan nifrəti bu qəhrəmanları bir cəbhədə birləşdirmişdi. Artıq yeni nəsil adlandırılan bu gənclərdə vətənə, dövlətinə olan məhəbbbət güclü idi. Bu gənclər o dövrdə də ümumi düşmən olan erməni faşizminə nifrət ruhunda ümumi mübarizəyə qalxdılar. Bu, yaşadığı torpağa və vətənə, yeni təşəkkül tapan dövlətinə olan sonsuz məhəbbət ilə vətəninə xidmət etmək həvəsi idi. Onların çoxu heç yüksək hərbi hazırlığa malik belə deyildi. Amma, əlində silah öz vətəni uğrunda mübarizəyə qalxdılar və düşmənə can dağı göstərdilər. Onlar öz vətənini qorumaq, ona xidmət etmək həvəsi ilə yaşayırdılar və göstərdikləri igidlik və qəhrəmanlıq ilə öz adlarını tariximizin

səhifəsinə qızıl hərflərlə yazdırdılar. Müharibənin od-alovundan, həyatın bütün sınaqlarından üzü ağ çıxdılar və əsgəri borclarını sədaqətlə yerinə yetirdilər. Ağır müharibə illərində, müharibədən sonrakı bu illərdə də onların bu qədər sevgi, hörmət və məhəbbətlə anılmasının sirri də bundadır.

Azərbaycan Ordusunun hələ tam təkmilləşmədiyi bir zamanda daxili səsinə qulaq asıb, könüllü olaraq yerli özünümüdafiə batalyonlarına yazılan, heç əsgəri paltarı belə olmayan bu igidlər düşmənə qarşı qanlı mübarizəyə qalxdılar. Səbəb - artıq bütün Qarabağı öz ağuşuna alan, demək olar ki, hər bir qapını döyən, hər bir ailənin göz yaşına səbəb olmuş erməni faşizmi idi. Azərbaycanlıları öz ata-baba torpaqlarından qovmaq, onları uşaqlı-böyüklü olaraq hamısını qırmaq istəyi ilə vəhşiliklər, qətliamlar törədən erməniləri damarlarındakı qana kimi özünə tabe edən erməni məsləki -faşizm!

Belə bir zamanda Azərbaycanın qeyrətli oğul və qızları düşmənlə ölüm-dirim savaşına qalxdılar. Bu, onların öz seçimi idi. Onlar ölümü göz önünə alıb bu mübarizəyə qalxmışdılar. Nə qədər taleyi yarımçıq kəsilmiş, öz qanı ilə tarix yazan, Qarabağ uğrunda gedən döyüşlərdə şəhid qanı ilə torpağı sulayan adlı, adsız igidlər oldu bu illərdə. Onların çoxunun heç adı belə məlum deyil. Amma, hamımızın qəlbində yer, iz salan bir adları var - Qəhrəmanlar!

Bu gün Qarabağda şəhidlik zirvəsinə ucalmış yüzlərlə gənc əsgərin ailəsində hələ də indi artıq əmi, dayı, ata, baba adı ilə gözlər yoldadır. Hər bir ana oğlunun “sağdır” deyə xəbərini bu gün də gözləməkdədir. Onların çoxu bu gün həyatda yoxdur. “Oğul, oğul” deyə ah-nalə çəkən bu analar gözlərini qapıya zilləyərək bu dünyadan köçdülər. Onların qarşısında baş əyirik! Onları da qəlbimizdə öz anamızı sevdiyimiz kimi sevirik!

Bu gün həmin dövrün qəhrəmanları haqqında dərsliklərdə az da olsa məlumat vardır. Onlar göstərdikləri qəhrəmanlıqlar ilə yaddaşlarda qala biliblər. Bununla belə adları yaddaşlardan silinmək qorxusu ilə rastlaşan onlarla igid döyüşçülər də vardır. Tariximizin bütün səhifələri müxtəlif şərait və məkanda baş vermiş qəhrəmanlıqlarla doludur. Bu, ibrət götürmək üçün şanlı səhifələrdir. İndiki nəsil onları tanımalı və onlardan ibrət götürməlidir. Əgər onlar bu müharibədən bəhs edən tərbiyəvi xarakterli, qəhrəmanlıq və rəşadət dolu əsərləri oxusalar və filmlərə baxsalar, bu onların vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsində böyük rol oynayardı.

I Qarabağ savaşının qəhrəmanlarından biri olan Natiq Qasımov haqqında sosial şəbəkələrdə tüz-tez yazılara rast gəlirik. Onun haqqında milli və dünya mətbuatı səhifələrində onlarla yazılar dərc olunub, artıq çoxlu sayda filmlər işıq üzü görüb. Biz də onun əziz ruhuna hörmət əlaməti olaraq kitab hazırlamaq qərarına gəldik. Bu kitab ürəyi vətənlə bir döyünən bir qəhrəman haqqındadır. Fikirlərimizi kağıza köçürməklə vətəni uğrunda şirin canından keçmiş igid azərbaycanlının ruhu qarşısında mənəvi borcumuzu vermək qərarına gəldik. İnanırıq ki, əməyimiz insanlar tərəfindən rəğbətlə qarşılanacaq, bu kitab oxucuların rəğbətini qazanacaqdır.

Kitabı gənc oxuculara ünvanlayaraq, onları məhz bu qəhrəmanlara oxşamağa çağırırıq!

Artıq Qarabağda savaş bitmişdir. Xalqımız 30 ildən çox sürən bu qanlı-qadalı mübarizədən qalib çıxmışdır. Lakin, həyatımızdan, yaddaş və düşüncəmizdən silinməyən bir çox şeylər vardır. Bu, müharibəyəolan nifrətdir. Erməni faşizminin bizə gətirdiyi faciələr, üstündən 100 illər keçsə belə, lənətlənəcəkdir.

# Yenilməz qələbə əzmi və tarixi qələbə



1990-cı illərdən başlayaraq Ermənistanın Azərbaycana olan ərazi iddiaları keçmiş Sovetlər birliyinin tərkibində olan iki respublikanın - Ermənistan və Azərbaycanın arasında 30 ildən çox bir məsafədə davam edən qanlı müharibəyə səbəb oldu. Bu illər ərzində xalqımız minlərlə oğul və qızını şəhid verdi. Torpaqlarımızın 20 faizi işğal olundu. Şəhər və kəndlərimiz viran qoyularaq, yer üzündən silindi. Lakin bu illər ərzində xalqımızın qələbəyə olan inamı bir an olsa belə sarsılmadı, addım-addım, qarış-qarış torpaqlarımız iş ğaldan azad edildi. Ermənistanın 2020-ci il sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına və şücaətlə döyüşərək, Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirib, illər

ərzində Ermənistanın işğalı altında olan torpaqlarımızda qurduğu mürəkkəb konstruksiyalı mühəndis-istehkam sistemlərini darmadağın edib, bir neçə eşelondan ibarət və sıx şəkildə minalanmış müdafiə xətlərini yararaq, torpaqlarımızı işğaldan azad etdi. Rəşadətli və qorxmaz əsgər və zabitlərimiz əksər strateji yüksəkliklərin, əlverişli döyüş mövqelərinin Ermənistan silahlı qüvvələrinin əlində olmasına baxmayaraq, düşmənin çoxsaylı artilleriya, yaylım atəşli reaktiv sistemləri və minaatan qurğularından ibarət sıx atəş zərbələri altında və çətin coğrafi relyef və iqlim şəraitində döyüş apararaq, Ermənistanı məğlub etməyə müvəffəq oldu. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi isə dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biri olmaqla, tariximizə qızıl hərflərlə yazıldı. Bununla da otuz ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad edildi. Döyüş əməliyyatı planlarının yüksək peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti, digər taktiki və strateji üstünlükləri Vətən müharibəsində qələbəmizi təmin edən amillərdən oldu. Amma heç bir müharibə itkisiz ötüşmür. Bu mübarizədə qəhrəman ordumuzun itkiləri də az olmadı. Allah bütün şəhidlərimizə rəhmət eləsin!Şəhidlərimizin ruhu qarşısında baş əyirik!..

Ordu ilə birlik nümayiş etdirən Azərbaycan xalqı da bu qələbənin qazanılmasında əsas pay sahibidir. Məhz xalq-dövlət-ordu birliyi bu qələbənin qazanılmasında əsas rol oynamışdır. Xalqımız Vətən müharibəsi dövründə bir yumruq halında birləşdi. Rəşadətli Azərbaycan Ordusu Ali Baş

Komandan İlham Əliyevin uğurlu siyasəti və qətiyyəti, həmçinin, xalqımızın dəstəyi nəticəsində tarixi zəfərə imza atdı. Həm hərbi qulluqçularımız, həm də könüllü döyüşlərə yollanan igid oğullarımız böyük qəhrəmanlıq nümayiş etdirərək, düşmən üzərində tarixi qələbə qazandı. Müharibənin getdiyi 44 gün ərzində xalq cənab prezidentin ətrafında dəmir yumruq halında birləşib, dövlətə və orduya sədaqət, güclü birlik və həmrəylik nümayiş etdirdi. Birliyimiz Milli Ordumuzu daha da gücləndirdi. Xalqımızın vətənpərvərlik hissi, yenilməz döyüş ruhu rəşadətli ordumuza qısa bir müddət ərzində düşmən üzərində qələbəni təmin etdi. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Bu müharibə Azərbaycan xalqının, onun liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbr göstərən xalqımız nəhayət qələbəyə çatdı. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan, Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bununla da regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Bu müjdə Azərbaycan xalqı tərəfindən böyük coşqu ilə qarşılandı. Bu qələbəmizi son illər ərzində ölkəmizdə aparılan inkişaf siyasəti, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi,siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz, ordu quruculuğu təbii ki, şərtləndirmişdir. Prezident-xalq-ordu birliyi nəticəsində döyüş meydanında olduğu kimi, arxa cəbhədə də qəhrəmanlıq dolu tariximiz yazıldı. Bu, Azərbaycan tarixinin daha bir şanlı səhifəsidir.

Ordumuzun işğalçı erməni ordusuna qarşı apardığı bu 44 günlük müharibə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi. O günlərdə hər kəs Vətən fədaisi oldu.Vətənimizin hər bir bölgəsində xalqımıza məxsus olan milli qürur, əyilməzlik kimi keyfiyyətlər özünü ən yüksək səviyyədə biruzə verdi. Xalqımızın minlərlə igid oğlu döyüşən orduya könüllü olaraq yazıldı, onların çoxu əzəli torpaqlarımız uğrunda gedən döyüşlərdə mətinlik, cəsarət və əsgəri rəşadət göstərərək, adını tarixə yazdı. Xalqımız öz cəsarəti və igidliyi ilə Vətən torpağını azad edən bu oğulların fəaliyyətini yüksək qiymətləndirir.

Həmin günlərdə xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşərək, uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımızın ucaldılmasında, mənfur düşmən ilə aparılan müharibənin Azərbaycan Ordusunun, Xalqımızın zəfəri ilə başa çatmasında özünəməxsus rol oynadı.

**Tariximizə qızıl hərflərlə yazılan qələbə**

1994-cü ildən aparılan sülh danışıqları nəticə verməmişdi, 1994–2020-ci illərdə ara-sıra Dağlıq Qarabağ təmas xəttində və Azərbaycan-Ermənistan sərhəddində silahlı toqquşmalar baş verirdi.2020-ci ilin sentyabr -noyabr aylarında Azərbaycan Silahlı Qüvvələrinin başladığı hərbi əməliyyatlar nəticəsində 26 ildən çox dondurulmuş olan münaqişə yenidən alovlandı. 44 gün ərzində Azərbaycan Ordusu torpqlarımızı işğaldan azad elədi. Hərbi əməliyyatlar 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan bəyanatla başa çatdı.

Bununla belə müharibədən sonra Azərbaycan-Ermənistan sərhəddində böhran başladı. 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradıldı.

Danışıqlar böhran və bölgədə ara-sıra baş verən silahlı toqquşmalarla müşahidə olundu. 2021-ci ilin noyabrında sərhəddə birinci silahlı toqquşmalar baş verdi. Müharibədən sonra əl qanlı toqquşma 2022-ci ilin sentyabrında sərhəddə baş vermişdir və bu toqquşma ümumi olaraq həm Azərbaycan, həm də Ermənistan tərəfdən 300-dən çox insanın ölümünə səbəb oldu. 2023-cü ildə isə tərəflər əvvəlcə martda Şuşa istiqamətində, sonra isə apreldə və mayda sərhəd istiqamətində toqquşdu.

2023-cü il aprelin 23-də Azərbaycanın Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən 22 aprel tarixində birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına cavab olaraq aprelin 23-ü saat 12:00-da Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" Nəzarət-Buraxılış Məntəqəsinin qurulduğunu bildirdi.

19 sentyabr 2023-cü ildə, səhər saatlarında Qarabağda Azərbaycan silahlı qüvvələri və erməni silahlı birləşmələri arasında silahlı toqquşma başladı. Münaqişə Azərbaycan silahlı qüvvələrinin Rusiya Sülhməramlı Kontingentinin 10 noyabr 2020-ci il tarixli bəyanatına əsasən yerləşdirildiyi ərazilərdə aparılırdı. Azərbaycanın Müdafiə Nazirliyinin Anti-terror əməliyyatı adı verdiyi silahlı toqquşmadan bir neçə saat əvvəl Xocavənd rayonu ərazisində mina partlayışları oldu və

nəticədəDaxili İşlər Nazirliyinin polisləri də daxil olmaqla 9 nəfər həyatını itirdi. Ermənistan rəsmiləri bunu Azərbaycanın ermənilərə qarşı təcavüzü adlandırdı.

24 saat davam edən hərbi əməliyyatlar sentyabrın 20-də, saat 13:00-da əldə olunan razılığa əsasən dayandırıldı. Razılığa əsasən Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərindən çıxmalı, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmalı, paralel formada bütün silah-sursat təhvil verilməli və bütün bu proseslər Rusiya Sülhməramlı Kontingenti iləəlaqələndirilmiş formada aparılması təmin edilməli idi. Həmçinin sentyabrın 21-də Qarabağın erməni əhalisinin nümayəndələri ilə Yevlaxda görüşün baş tutacağı da qeyd edildi.

Hərbi əməliyyatlar zamanı regionda 400-dən çox şəxs həyatını itirdi. Rəsmi olaraq Azərbaycan Silahlı Qüvvələrinin 202 hərbi qulluqçusu həyatını itirdi, 511 hərbi qulluqçusu isə yaralandı. Erməni silahlı dəstələrinin ölüləri barədə dəqiq say açıqlanmasada, erməni tərəfi sonradan 200-dən çox hərbçisinin öldüyünü bildirdi. Hərbi əməliyyatlar zamanı həm Azərbaycan, həm də Ermənistan tərəfdən dinc insanlarda həyatını itirdi.

Artıq tarixi qələbə qazanılıb. Həmin çətin, eyni zamanda şərəfli tariximizin davamı olan o qanlı - qadalı günlər arxada qalmışdır. Bu qələbə nəinki ölkəmizin beynəlxalq nüfuzunu daha da yüksəltdi, həmçinin, bu günki və gələcək nəsillərin qürur mənbəyinə çevrildi.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən

başlıca səbəbidir. Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərərək, yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək, Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixində əbədi qalacaqdır.

Sentyabrın 27-dən başlayaraq Laçın dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan ərazisinə qeyri-qanuni gələn qondarma separatçıların həbsinə başnanıldı. Həbs edilənlər sırasında qondarma “Dağlıq Qarabağın Dövlət naziri" vəzifəsində çalışmış 1968-ci il təvəllüdlü Ruben Karloviç Vardanyan, qondarma “Dağlıq Qarabağın Müdafiə Ordusu Komandanının birinci müavini”, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu, general-mayor ali hərbi rütbəsində xidmət edən 1971-ci il təvəllüdlü Davit Manukyan və qondarma “Dağlıq Qarabağın müdafiə naziri" vəzifəsində çalışmış 1965-ci il təvəllüdlü Lyova Henrix Mnatsakyan idilər. Onlar barəsində Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq İdarəsi tərəfindən Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə, əsasən 214-1, 214.2.1, 214.2.2, 214.2.3, 228.3, 279.3 və 318.1-ci maddələrlə cinayət işi açılmış və barələrində həbs tədbirləri seçilmişdir.

Bu gün dəAzərbaycanın Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı başlanmış cinayət işləri üzrə Azərbaycan Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirilir.

Erməni qatillərinin başçılarının Azərbaycanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən tutularaq, Bakıya

gətirilməsi bütün Azərbaycan xalqı tərəfindən alqışlarla qarşılandı. Onlar Bakıda müttəhimlər kürsüsünə əyləşəcək hərbi canilərin siyahısında yer alan Xocalı qatilləridir.Azərbaycan xalqı tarixi günlərini yaşayır. Hazırda üçrəngli bayrağımız Qarabağın hər bucağında dalğalanır. Qondarma "dqr"in keçmiş separatçı rəhbərləri isə Bakıda dindirilir. Bunun ardı gələcək. Hələlik səkkiz separatçı-terrorçu Dövlət Təhlükəsizlik Xidməti tərəfindən saxlanılıb.Bunlar Qarabağdakı separatçıların keçmiş "prezident"ləri Arkadi Qukasyan (1997-2007), Bako Saakyan (2007-2020), Araik Arutyunyan (2020-2023), "Daşnakasutyun"partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan, habelə kifayət qədər cinayət törətmiş Ruben Vardanyan, Davit Babayan, Lyova Mnatsakanyan və Vaqif Xaçaturyandır. Onlar törətdikləri cinayət əməllərinə görə barələrində aparılan cinayət işləri üzrə Azərbaycan Respublikası DTX tərəfindən saxlanılaraq Bakıya gətirilib. Qeyd edək ki, onların Azərbaycan ərazisində təcavüzkar müharibənin aparılmasında iştirak etməsi, muzdluların yığılması, onlara təlim keçirilməsi və maliyyələşdirilməsi, həmçinin onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə edilməsinin təşkil olunması, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması, silahlı münaqişə dövründə cinayətkar əmrlər verməsi  xalqımızın hədsiz nifrətinə səbəb olmuşdu.

Onu da qeyd etmək yerinə düşərdi ki, Arayik Arutyunyanın Azərbaycan qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılmasında, bu

fəaliyyətinin təşkilinə, cinayətkar birlik halında həmin birləşmələrin silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizində, bunlardan istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsində, eləcə də qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilməsində və terrorçuluğun maliyyələşdirilməsində böyük rolu olmuşdur.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin, Arayik Arutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycanın Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmiş və o 2020-ci il oktyabrın 28-də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qəti imkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmişdi.

Bu gün onlar öz layiqli cəzalarına çatacaqlar.

# Erməni faşizmi və onun mahiyyəti



Erməni faşizmi alman faşizminin daha qəddar anti-bəşəri formasıdır. O, hər cür rəzaləti, hiyləgərliyi, yalanı, xəyanəti saxtakarlığı özünə rəva bilir. Onlar üçün heç bir müqəddəs anlayış yoxdur. Erməni faşizminin islahı kifayət qədər çətin və ağır bir prosesdir. Erməni faşizmi nəinki regionda, həta dünyada qəddarlığın, bəşəri qanunlara, insaniyyətə düşmənçiliyin ən ifrat və ən iyrənc forması olaraq qalmaqdadır.Azərbaycan xalqı 30 ildən artıq bir müddətdə bunu əyani şəkildə görmüş, onlar xalqımızın başına olmazın faciələrin, bəlaların baisi olmuşlar.

Gənc nəsil erməni xislətini özündə daşıyan, yalnız xəyanət, qeyri - insani hərəkətlər, vəhşilik ilə yadda qalan erməniliyin əsl mahiyyətini dərindən anlamalıdır. Bu həm də erməni faşizmi adlanır. Lakin onların çoxu kökləri dərinə gedib çıxan bu faşizmin mahiyyəti haqqında elə də dərin bilgilərə sahib deyillər.

Bəs faşizm nədir? Erməni faşizmi əslində nədən qaynaqlanır və özünü necə biruzə verib?

Azərbaycanlı qəhrəman oğulların Birinci və İkinci Qarabağ müharibələrində göstərdiyi şücaətlərin, qaniçən düşmənlə apardıqları mübarizənin əsl səbəblərini bilmək və bu mücadilənin mahiyyətini başa düşmək üçün ilk növbədə onların düşmənlə apardıqları ölüm-dirim savaşına verdikləri önəmi dərindən anlamaq lazımdır. Onlar haqq savaşına qalxmışdılar, xalqımızın başına gətirilən bu müsibətlərə dözmədilər və düşmənlə qanlı savaşa girdilər.

Biz bu qəhrəmanları hörmət və məhəbbətlə anırıq. Onlar qəlbimizdə həmişə yaşayacaqdır!

Azərbaycan erməni faşizmini artıq məğlub edib, amma o, tamamilə məhv edilməyib.Çünki erməni faşizmi dünya ermənilərinin təşkilatlanması prosesinin ana xəttini təşkil edir.

Faşizmin ən qəddar elementlərini özündə daşıyan erməni millətçiliyi XX əsrin birinci yarısında Almaniyada baş qaldıran faşizmdən daha dəhşətli, daha qorxuncdur. Biz bunu yerlə yeksan edilən kənd, qəsəbə və şəhərlərimizin görüntülərindən, vəhşicəsinə qətlə yetirilən uşaq və qocalarımızın ölümünü əks etdirən fotoşəkillərdən və filmlərdən, bu hadisələrin şahidləri olan insanların ifadələrindən çox yaxşı bilirik. Və... erməni faşizminə nifrət edirik!

Faşizm Birinci Dünya müharibəsindən sonra meydana gəlmiş siyasi cərəyandır. Faşizm İtaliyada yaranmışdır. 1922-ci ildə burada Benita Mussolininin rəhbərliyi altında faşist partiyası hakimiyyətə gələ bilmiş, sonralar bu hərəkat dünyanın bir sıra ölkələrində yayılmışdır.

Bütünlükdə faşizmin inkişafı dalğavari şəkildə genişlənmişdir. Onun inkişaf dalğasının ən yüksək dövrü 1933-cü ildə onun Almaniyada hakimiyyət başına gəlməsindən sonra başlanmışdır. Faşizm və ya nasional - sosializm

Avropada bir hərəkat kimi qalib gəlir. Avropa ölkələrinin yarıdan çoxuna yayılır, hakim siyasi qüvvəyə çevrilir. 1933-cü ilin oktyabrında artıq faşizm bir hərəkat kimi 23 ölkədə fəaliyyət göstərirdi. 1936-cı ildə 20 Avropa ölkəsində 49 faşist təşkilatı mövcud idi.

İtaliyada Mussolininin və Almaniyada Hitlerin başçılığı ilə faşist diktaturalarının yaradılması faşist hərəkatında yeni rejimin yaranması demək idi. Faşist rejimi II Dünya müharibəsindən sonra da mövcud idi. 1974-cü ildə Portuqaliyada Salazar rejiminin, bir il sonra isə İspaniyada Franko rejiminin devrilməsi ilə Avropada faşizm dövrü başa çatdı.

Bütün milli xüsusiyyətləri ilə yanaşı faşizmin mahiyyəti hər yerdə eyni olaraq qalmışdır: o, kapitalizm cəmiyyətinin ən irticaçı dairələrinin mənafeyini əks etdirmişdir. Onlar faşizmə maliyyə və siyasi yardım göstərərək hərəkatdan kütlələrin etiraz çıxışlarının qarşısını almaq, mövcud rejimi saxlamaq və beynəlxalq arenada qəsbkarlıq niyyətlərini həyata keçirmək üçün istifadə etmişlər.

Faşizmin və ya milli - sosializm ideyasının əsasını ifrat antidemokratizm, rasizm, şovinizm təşkil edir. O, həm fiziki, həm də mənəvi mənada bütün fərdlərin taleyini həll etmək məsuliyyətini öz üzərinə götürən və “milli birliyə” hər hansı müdaxiləni qəti şəkildə aradan qaldıran totalitar dövlət quruluşunu ilahiləşdirir. Faşizm güclü, hətta qəddar, amansız hakimiyyəti təbliğ edir.

Faşizm ideologiyasında millətin qan ümumiliyinə əsaslanan ən ali və əbədi varlıq olmasından ibarət konsepsiya xüsusi yer tutur. Buradan da qanın və irqin təmizliyinin qorunub saxlanılması vəzifəsi fetişləşdirilir. Millətlər aşağı və ali

kateqoriyalara bölünür. Faşist cəmiyyətində ali millətlərin digərləri üzərində ağalıq etməsi nəzərdə tutulur. Bu müddəalar faşizmin təcavüzkar xarici siyasətinə, başqa ölkələrin, xalqların əsarət altına alınması praktikasına bəraət qazandırmaq məqsədi güdürdü. Faşist ideoloqları öz qarşılarına böyük vəzifələr (Mussolininin Aralıq dənizi imperiyası, Hitlerin minillik "böyük reyx"i) qoymuşdular. Onların yerinə yetirilməsi üçün isə nəhəng, hər cəhətdən təmin olunmuş orduların yaradılması nəzərdə tutulurdu.

Faşizm sinifləri və sinfi mübarizəni qəti şəkildə rədd edir, onların irqi və yaxud korporativ birliklərdə inteqrasiya edilməsi uğrunda mübarizə aparır. O, tətil, mitinq və digər etiraz formalarını yolverilməz hesab edir. Əlbəttə bu, onun hakimiyyətə gələndən sonrakı dövrü üçün nəzərdə tutulur. Hakimiyyətə gələnə qədər bu vasitələrdən yetərincə istifadə edir, yeri gəldikcə isə hətta təhriketmə hallarından da imtina etmir.

Faşizmin tarixi təcrübəsi göstərir ki, o, yalnız bütün demokratik azadlıqları və institutları ləğv edərək totalitar terrorist rejim yaratmağa qadirdir. İctimai həyatın bütün sahələri hərbiləşdirilir, onun bütün istiqamətləri dövlət tərəfindən ən ciddi nəzarətə götürülür. Həm də bu nəzarət təkcə dövlət strukturları tərəfindən deyil, həmçinin hərbi təşkilatlar, hərbiləşdirilmiş partiya dəstələri (İtaliyada " skuadre" dəstələri, Almaniyada SS və digər hissələr) vasitəsi ilə həyata keçirilir. Faşizm cəmiyyətinə xas olan xüsusiyyətlərdən biri ümumi zorakılıq praktikası və zorakılıq kultunun yaradılmsından ibarətdir.Bu hal cəmiyyətin gündəlik həyatına elə hopdurulur,elə təşviq edilir ki, müəyyən dövrdə qeyri-ixtiyari

olaraq adi vətəndaşların yaşayış normasina, həyat tərzinə çevrilir.

Faşizm cəmiyyətində "ümummilli mənafe" deyilən mücərrədləşdirilmiş ideya hər şeyi özünə tabe edir, bütün başqa hissləri əvəz edir. Fərdi fikir, şəxsi mənafe, etik və mənəvi baxışlar arxa plana keçir. Fərdlərin bir-biri, həmçinin cəmiyyət qarşısında məsuliyyət hissi, ailə, uşaq və valideynlərə qarşı borc hissi öldürülür. İnsanlar ümumi ideyaların tələblərini yetirməli olan icraçılara, "vint"ciklərə çevrilirlər.

Faşizm II Dünya müharibəsi illərində özünü açıb göstərmişdir. Ölüm düşərgələri, soyqırımlar,krematoriyalar, bəşəriyyətə qarşı kütləvi cinayət aksiyaları... Faşizm II Dünya müharibəsinin başlanmasında həlledici rol oynadı, sonra isə misilsiz hərbi və mənəvi-siyasi məğlubiyyətə düçar oldu. Onun cinayətləri Nyünberq məhkəməsi ilə ittiham və məhkum edildi. Lakin bu qələbə faşizmin ideya-siyasi cərəyan kimi tam sıradan çıxarılmasını təmin edə bilmədi.

Müharibədən sonra tezliklə o, neofaşizm şəklində yenidən dirçəlməyə başladı. O, faşizmlə genetik əlaqələrinisaxlayır. Belə ki, neofaşizm də uyğun ideoloji və siyasi baxışları rəhbər tutur, zorakılıq və və dağıdıcılığı təbliğ edir. Onun arxalana biləcəyi sosial baza da mövcuddur. Elmi-texniki tərəqqi ilə bağlı bəzi ölkələrdə baş verən sosial dəyişikliklər həyatın dibinə atılmış xüsusi təbəqəni - marginalların yaranmasına gətirib çıxarır. Bu təbəqənin nümayəndələri neofaşistlərin ekstremist çağırışlarını asanlıqla qəbul edir və onların təşkilatlarına daxil olurlar. İndi neofaşistlərin təşkilatlarında ikinci və hətta üçüncü nəsil "rəhbər"lər fəaliyyət göstərirlər. Bu gün dirçəlməkdə olan neofaşizm kifayət qədər təhlükəlidir. O, bir sıra ölkələrdə ciddi siyasi qüvvəyə çevrilməkdədir.

Bunu biz düşmən ölkəyə çevrilmiş, ölkəmizin ərazi bütövlüyünə qəsb etmiş Ermənistanın timsalında görə bildik. Dünya faşizm əleyhinə olduğu halda, Ermənistan rəhbərliyi Yerevanda daşnak ordusunun keçmiş generalı, agentura işi çərçivəsində almanların yanında Qaragin Njde ləqəbi ilə xidmət etmiş satqın Ter-Aratyunyana heykəl qoyub onun xatirəsini əbədiləşdirməklə, dövlət siyasətlərinin faşizm ideologiyasına söykəndiyini birmənalı şəkildə ortaya qoymuşdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında həmişə faşizmin qəbuledilməz olduğunu hesab etmişdir.Prezident bunu MBD Dövlət Başçıları Şurasının iclasında da bildirib:-“Biz MDB rəhbərləri faşistlərin tərənnümünə qarşı çıxırıq” - deyə Prezident bildirib.

Xocalıda o qanlı faciəni, soyqırımını törədənlər faşistlərdir. Bunun başqa adı yoxdur və ola da bilməz. Bundan guya narahat olduqlarını iddia edən və hay-küy salmağa çalışan erməni deputatları isə anlamalıdırlar ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qanlı olaylar məhz faşizm üsullarına uyğundur. Özü də bunun belə olduğunu təkcə biz demirik. Ermənilərin faşist, erməni faşizminin isə bəşəriyyət üçün ən böyük təhlükə olduğunu həm əcnəbilərin fikirləri, həm də ermənilərin “başının tacı” sayılan, erməni “ziyalısı” Zori Balayanın Xocalıda ermənilərin törətdikləri vəhşiliklərə dair etirafları da təsdiqləyir.

Məlumat üçün deyək ki, əslində, insanlığa qarşı ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımını törətməklə ermənilər əsl kimliklərini ortaya qoydular. Ümumiyyətlə, bütün tarixi dönəmlərdə ermənilər türklərə və azərbaycanlılara qarşı həmişə son dərəcə amansız, qəddar olublar. Yəni, onların əməlləri türk

toplumuna qarşı yönəlmiş bir faşizmdir! Xocalıda isə bu qəddarlıq özünü bir daha göstərdi.

## Əbədiyyətə gedən yol



1980-ci illərin sonlarında başlamış Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi 1990-cı illərin əvvəllərindən 1994-cü ilin mayına qədər Birinci Qarabağ müharibəsinə səbəb olmuşdur.

Müharibə zamanı Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafında olan yeddi rayon Ermənistan silahlı qüvvələri və erməni hərbi dəstələri tərəfindən işğal edilmiş, işğal nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın düşmüş, münaribə zamanı həm Azərbaycan, həm də Ermənistan tərəfində ümumi olaraq on minlərlə insan öldürülmüş, minlərlə insan itkin düşmüşdü.

Həmin dövrdə Azərbaycanın minlərlə igid oğlu vətənin müdafiəsinə qalxaraq, özünümüdafiə batalyonlarına yazılır, könüllü olaraq cəbhəyə yollanırdılar. Cənnət Qarabağın hər güşəsi ölüm-dirim mübarizəsinə qalxmış azərbaycanlı igidlər üçün bir səngər idi. Belə bir vəziyyətdə 1991-ci ilin

oktyabrında könüllü olaraq döyüşlərə qatılan gənc əsgərlərdən biri də Mingəçevirli Natiq Qasımov idi.

Vuruşduğu neçə aylar ərzində özünü igid döyüşçü kimi tanıdan gənc Natiq müvəqqəti olaraq evlərinə, bir neçə günlük məzuniyyətə gəlmişdi. Həmin günlər qanlı-qadalı günlər idi. Vətən torpaqları uğrunda qanlı döyüşlər gedirdi. Evdə olduğu bir neçə gün ərzində çoxlu sayda acı xəbərlər gəlmişdi. Cəbhədə vəziyyət kritik hal almışdı. Hər gün evlərə şəhidlər gətirilirdi. Xocalı faciəsi də məhz həmin günlərdə baş verdi. Bu xəbər gənc əsgəri dözülməz bir yara kimi ağrıtdı. Bir gün yuxudan ayılan valideynlər Natiqi evdə tapmadılar. Kiçik bir kağızda yenidən cəbhəyə yollandığını bildirir, ondan nigaran olmamağı xahiş edirdi. Bu, Natiqin öz ailə üzvlərini gördüyü sonuncu  və vida görüşü oldu.

İllər idi ki, ailəsi, onun yaxınları və dostları Natiqin sonrakı taleyi barədə  heç bir məlumata malik deyildilər. İllər keçdi, tale onun və 6 döyüş yoldaşının göstərdiyi misilsiz şücaət və qəhrəmanlığından xəbər tutdu.

...1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etmişdilər.

Hücumdan əvvəl, fevralın 25-i axşam çağından şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlamışdı. Nəticədə şəhərdə yanğınlar baş vermiş və fevralın 26-ı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdü. Belə bir vəziyyətdə, erməni əhatəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali yaxınlıqdakı azərbaycanlılar məskunlaşmış Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur oldular.

Ancaq bu niyyət baş tutmadı. Şəhəri yerlə yeksan etmiş erməni silahlı dəstələri və motoatıcı alayın hərbiçiləri dinc əhaliyə divan tutdular.

Bu qırğının nəticəsində 613 nəfər həlak olmuşdur. Onlardan63nəfəruşaq, 106 nəfər qadın, 70 nəfərqoca idi.8 ailə tamamilə məhv edilmişdi.25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir**.**487 nəfər yaralanmışdı, onlardan 76 nəfəri uşaqlar idi. 1275 nəfər əsir götürülmüşdü.150 nəfər itkin düşmüşdür.Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdu.

Bu rəqəmlər Ermənistan SSR-in dəstəyi və SSRİ rəhbərliyinin səhlənkarlığı ilə 1988-ci ildə başlamış və Azərbaycan SSR-in tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi iddiasının gerçəkləşdirilməsi əsasında yaranmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli, qanlı faciəsindən xəbər verir.

Xocalı əsas hədəf idi.Erməni silahlı dəstələrinin Xocalıya hücümunu şəhərin coğrafi mövqeyi şərtləndirirdi. 7000 əhalisi olan Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əskəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da Xocalıda idi.

Xocalı əhalinin tarixən məskunlaşdığı yerdir və qədim tarixi adibələr indiyə qədər qalmaqdadır. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekropollar tapılmışdır. Həmçinin burada

memarlıq abidələri - dairəvi qəbir (1356-1357-ci illər) və mavzoley (XIV əsr) vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları və s. tapılmışdır. Tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdır.

Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olmuşdur. Şəhərdə toxuculuq fabriki, 2 orta məktəb və 2 natamam orta məktəb var idi.

Son illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndindən qovulmuş azərbaycanlıların bəziləri şəhərdə məskunlaşmışdılar.

Sonralar erməni tərəfi etiraf etmişdir ki, erməni silahlı dəstələrinin ilk əsas vəzifəsi Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əskəran-Xankəndi yolunun boşaldılması, azərbaycanlıların nəzarətində olan hava limanının ələ keçirilməsi idi.

"Xocalı platsdarmının məhv edilməsi" sözlərinə diqqət yetirin. İndi söylənilən bu ifadə ermənilər tərəfindən törədilmiş qanlı qırğının, kütləvi surətdə uşaqların, qadınların, qocaların məhv edilməsinin səbəbini aydın göstərir.

Xocalı 1991-cı ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi olan vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə

olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.

Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əskəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdu ki, bu, məkrli hiylə imiş. Naxçevanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əskəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdi.

Bu hadisələr regiona İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin vasitəçilik missiyası ilə səfəri günlərinə təsadüf etmişdir. O, fevralın 25-də Azərbaycanın hakimiyyət rəhbərləri ilə görüşmüş və fevralın 27-də Qarabağa, sonra isə Ermənistana səfər planlaşdırırdı. Bununla əlaqədar olaraq tərəflərin razılığı ilə fevralın 27-dən martın 1-dək üçgünlük atəşkəs elan edilmişdi. Ermənilər ona məhəl qoymadılar və vədlərinə xilaf çıxdılar.

Oxşar vəziyyət fevralın 12-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Şurasının missiyasının vəziyyətlə tanışlıq və münaqişənin tənzimlənməsi məsələlərinin təhlili məqsədilə

Qarabağa gəldiyi zaman da baş vermişdi. Missiya sonra Yerevana və Bakıya səfər etməli idi. Məhz fevralın 12-də erməni silahlı dəstələri tərəfindən Şuşanın Malıbəyli və Quşçular kəndləri qarət edilmiş və yandırılmışdır, təkcə Malıbəylidə 50 nəfər öldürülmüş, yaralanmış və əsir götürülmüşdü.

Həmin günlərdə Azərbaycan qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilmədi, hətta meyitlərin götürülməsi belə mümkün olmadı. Bu zaman ermənilər vertolyotlarla, ağ geyimli xüsusi qruplarla meşələrdə gizlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular.

Fevralın 28-də tərkibində yerli jurnalistlər də olan qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyiti götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyitlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərinin çıxardılması, ətrafların kəsilməsi, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Bu vəhşiliklər haqqında dünyanın aparıcı xarici mətbuatı geniş ifşaedici yazılar ilə çıxış etmiş, erməni vəhşiliyini olduğu kimi dünya ictimaiyyətinə çatdıra bilmişdir.

Şəhərdən qaçan Xocalı sakinləri hətta zəruri əşyaları belə götürə bilməmişdilər. Erməni silahlı qüvvələrinin Xocalıdan çıxardıqları sakinlər də əmlaklarından heç nə götürməmişdilər.

Hadisənin müşahidəçiləri şəhərdə azğın, heç nə ilə qarşısı alınmayan soyğunçuluğun şahidi olmuşdular. Şəhərdə qalan əmlak Xankəndi və yaxınlıqdakı yaşayış məntəqələrinin əhalisi tərəfindən daşınırdı. Çox evlərin darvazalarında onların yeni sahiblərinin adları yazılmışdı.
Xocalının zəbt olunması üzrə həyata keçirilmiş hərbi əməliyyat zamanı şəhərin dinc əhalisinə qarçı kütləvi zorakılıq törədilmişdir.Azad dəhliz barədə məlumat Xocalının əhalisinin çoxuna çatdırılmamışdı. Azad dəhliz və onun yaxınlığındakı ərazidə dinc əhalinin kütləvi qırğınına heç bir cəhdlə haqq qazandırmaq olmaz.
Xocalıya hücumda Müstəqil Dövlətlər Birliyinin ordusuna məxsus olan 366-cı motoatıcı alayın hərbiçiləri iştirak etmişdir.
Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı hərəkətləri Cenevrə konvensiyasına, həmçinin Ümumdünya İnsan Haqları Bəyannaməsinin (BMT-nin Baş Assambleyası 10.12.1948-ci ildə qəbul etmişdir) maddələrinə kobud qaydada zidd idi.
Xocalı soyqırımında 366-cı alayın rolunu xüsusi qeyd etmək lazımdır.Bu alay Şuşa və Xocalının, Azərbaycanın kəndlərinin atəşə tutulmasında dəfələrlə iştirak etmişdir. Alaydan qaçmış hərbiçilərin ifadələri bu faktları sübut edir və hərbi hissənin şəxsi heyətinin mənəvi durumu haqqında təsəvvür yaradır. 366-cı alayın təcili surətdə Xankəndidən çıxarılması da bu alayın Xocalı hadisələrində iştirakını sübut edir.
Hərbi hissənin komanda heyətinin mənəviyyatsızlığı o həddə çatmışdı ki, guya əhalinin müqaviməti ilə rastlaşdıqlarına görə alayın sərbəst çıxarılmasını təmin edə bilməyiblər. Bu məqsədlə Gəncədə yerləşən desant diviziyasının qüvvələri cəlb edilməli olub. Ancaq bu qüvvələr gələnədək alayın 103 nəfəri,

əsasən ermənilərdən ibarət olan və qırğında iştirak etmiş hərbiçı əmrə tabe olmaqdan boyun qaçıraraq, Qarabağda qaldılar. Alayın komandanlığının cinayət sövdələşməsi və alayın çıxarılmasına məsul olan digər şəxslərin məsuliyyətsizliyi nəticəsində hərbi texnikanın bir hissəsi, o cümlədən zirehli texnika ermənilərə təhvil verildi. Beləliklə də gələcəkdə Azərbaycana qarşı cinayətlərin törədilməsi, separatçılıq hərəkətlərinin davam etdirilməsinə rəvac verildi. Bunun özü də Xocalı soyqırımında birbaşa iştirakın sübutudur!
Erməni silahlı dəstələri və 366-cı motoatıcı alayın şəxsi heyətinin Azərbaycanın yaşayış məntəqələrinin atəşə tutulmasında iştirak etmiş üzvləri Xocalı şəhərində törədilmiş vandalizmin əsas cinayətkarlarıdır.
Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktlara-Cenevrə konvensiyası, Ümumdünya İnsan Haqları Bəyannaməsi, Vətəndaş və siyasi hüquqlar barədə Beynəlxaq Saziş, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə həyasızcasına məhəl qoyulmamasıdır.
Bu faciədə həmçinin, Azərbaycanın o vaxtkı siyasi və hərbi rəhbərliyi də günahkardır. Ayaz Mütəllibov Azərbaycanın Prezidenti və Ali Baş Komandanı olaraq ölkənin ərazi bütövlüyünün, təhlükəsizliyininn və onun vətəndaşlarının mühafizəsinin təminatçısı kimi Qarabağda,o cümlədən Xocalıda baş verən hadisələrin qarşısının alınması üçün zəruri olan tədbirləri görməmişdi. Ölkənin ali vəzifəli şəxsi kimi Konstitusiya qaydasının, ərazi bütövlüyünün, insanların hüquq və azadlıqlarının müdafiəsini təmin edə bilmədi. Onlar hətta qırğın baş verəndən sonra, xalqın qəzəbindən qorxaraq acı

həqiqəti deməkdən çəkindilər və erməni silahlı cinayətkarlarının törətdikləri azğınlıqların həqiqi miqyası barədə məlumatlar gizlədildi.
Tarix heç nəyi unutmur. Azərbaycan Milli Məclisi hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir.
Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər.
Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Təəssüf ki, XX əsrdə soyqırım və etnik təmizləmə hadisələri baş vermiş tarixi hadisələr çox olmuşdur. Xocalı faciəsi onların sırasında ən dəhşətlilərinə aiddir. Hal-hazırda bu hadisələrdə hər hansı şəkildə iştirakı olmuş şəxslər hələlik öz vicdanları qarşısında cavabdehdirlər, ancaq vaxt gələcək və onlar tarixin məhkəməsi qarşısında cavab verməli olacaqlar.

# Şəkillərin dili olsa idi, nələr deyərdi?!.



Birinci Qarabağ müharibəsində şücaət göstərmiş Natiq Qasımovun adı və şəkilləri son günlər sosial şəbəkələrin trendinə çevrilib.

"Qarabağ şahinləri" taborunun əsgəri olaraq Vətənin müdafiəsində iştirak etmiş Natiq Qasımovun qəhrəmanlığı artıq dillər əzbəridir, indi kiçikdən böyüyə hamı onu tanıyır, qürur duyur.

İctimaiyyət nümayəndələri və rəsmilər Natiqə Azərbaycanın Milli Qəhrəmanı fəxri adının verilməsi təkliflərini səsləndirir.

Natiq Qasımov Xocalı rayonu, Pirlər kəndi yaxınlığındakı yüksəklikdə yerləşən Alban kilsəsi uğrunda döyüş zamanı 6 hərbçi yoldaşı həlak olduqdan sonra 5 gün ac-susuz orada qalaraq təkbaşına savaşı davam etdirmişdi. Gülləsi qurtardığından 6-cı gün, 12 mart 1992-ci ildə rusiyalı və italiyalı jurnalistlər - Konstantin Smirnov vəEnriko

Sarzininşahidliyi ilə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdü.

Onun əsir götürlməsi faktı Rusiyada nəşr edilən "Oqonyok" jurnalının 1992-ci il tarixli 14 və 15-ci nömrələrində "Strax" adlı məqalədə təsvir edilmişdi.

Natiq Qasımovun qəhrəmanlığı və şücaəti düşmən hərbçiləri arasında necə vahimə və psixoloji gərginlik yaratmışdısa, erməni səhra komandiri Vitali Balasanyan ona şəxsən müharibə qanunlarına zidd olaraq dəfələrlə ağır işgəncələr vermiş və qətlə yetirmişdir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Natiq Qasımovun meyitinin Xocalı rayonu (keçmiş Əsgəran) ərazisində dəfn olunduğunu ehtimal edir.

Natiq Qasımovun çoxsaylı düşmən əhatəsindəki məğrur duruşunu, əsir götürülərkən üçrəngli Azərbaycan bayrağını ləyaqətlə daşımasını lentə almış italyan fotoqraf Enriko Sarziniyə minnətdar olmalıyıq ki, bənzəri olmayan belə bir cəsur döyüşçünün simasına işıq salıb.

Məhz Enriko Sarzininin sayəsində Natiqin şəkilləri bu gün sosial şəbəkələrdə, media səhifələrində tirajlanır.

İtaliya mətbuatındakı məqalələrin birində Enriko Sarzini son 60 ildə tarixin ən mühüm hadisələrini yaşamış və lentə almış böyük fotojurnalist adlandırılıb.

Sarzininin çəkdiyi şəkillər dərin hekayələr danışa bilən və duyğular oyatmağı bacaran əsərlərdir. Natiq Qasımov isə bunun bir nümunəsidir. Bəs Natiq Qasımovun şəkillərini çəkən Enriko Sarzini kimdir? Biz internet resurslarında italiyalı fotoqrafla bağlı məlumatları araşdırmağa çalışdıq.

Enriko Sarzini haqqında danışan bir italiyalı mədəniyyət işçisi deyib ki, o fotoqraf kimi anı tez qavramaq, hekayəni kadrda tutmaq bacarığına malik böyük istedad sahibi olub.
Enriko Sarzini 1938-ci ilin aprelində Romada anadan olub. İlk dəfə kameranı əlinə alanda 20 yaşı olub və İtaliyanın Latsio şəhərində həvəskar fotoqraf kimi fəaliyyət göstərib. Daha sonra onda fotoqraflığa həvəs güclənib. 1954-1966-cı illərdə özünə müəllim saydığı Di Paolodan dərs alıb, onun sayəsində fotoqrafiya dünyasında işləyə bilmək üçün lazımi biliklərə yiyələnib.

Ardınca paparassilik edib, lakin bir müddət sonra başa düşüb ki, bu iş onun üçün deyil.

1962-ci ildənəhəng istedadının qiymətləndirildiyi Amerikaya köçüb və orada 1972-ci ilə qədər nüfuzlu “Life” jurnalında işləyib. Amerikada Enriko Sarzini gələcək həyat yoldaşı Nadine Liberlə tanış olub və evlənib.

Enriko Sarzini sonralar hərbi fotojurnalist kimi Vyetnam, Hindistan, Çin, Rusiya, Kuba, Fələstin, İran, keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində odlu-alovlu yollardan keçməli olub.
Onun münaqişə bölgələrindən çəkdiyi şəkillər müharibə aparan rejimlər tərəfindən yaxşı qarşılanmayıb.Çünki müharibə aparan tərəflər reallıqların xarici dünyaya çatdırılmasında qətiyyən maraqlı deyildilər.

O, təqaüdə çıxana qədər ən məşhur nəşrlər və jurnallar iləəməkdaşlıq edib.

Sarzinin fotoşəkilləri ABŞ-ın müxtəlif muzeylərində və dünyanın bir çox mədəniyyət ocaqlarında - Kaliforniyadakı Onlayn Kitabxanada, Florensiyadakı Milli Mərkəzi Kitabxanada qorunur.

# Aramızda Natiq Qasımov adlı bir igid vardı!



Qasımov Natiq 1971-ci il yanvarın 2-də Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. 1975-ci ildən ailəlikcə Mingəçevirə köçüblər. 4 saylı orta məktəbdə təhsil alıb.Natiq burada səkkizillik məktəbi bitirdikdən sonra 39 saylı texniki-peşə məktəbində qaynaqçı ixtisası üzrə təhsil almışdır. Məktəbi bitirdikdən sonra Azərbaycan DRES-də çilingər, «Kosmos» kinoteatrında kinomexanik işləyir.

RusiyanınKrasnoyarsk vilayətində Daxili Qoşun hissələrində xidmətini başa vurduqdan sonra 1991-ci ildə vətənə qayıtmışdır, elə həmin ildə könüllü olaraq cəbhəyə getmişdir. 1991-ci ildə ordudan tərxis olunduqdan sonra 20 gün ata-anasının yanında qalan Natiq könüllü olaraq Vətənin müdafiəsinə yollanır. “Qarabağ şahinləri”batalyonunun tərkibində Ağdam-Xankəndi

istiqamətində bir neçə döyüşdə iştirak edir. Yurdsevərliyi və mehribanlığı ilə cəbhə yoldaşlarının hörmət və rəğbətini qazanır.

1992-ci ildə Xocalının Pirlər kəndindəki alban kilsəsində müdafiə xətti quraraq 5 gün ərzində erməni faşistləri ilə döyüş aparmış, çoxlu sayda erməni döyüşçüsünü məhv etmişdir. Bu döyüşdə böyük itkilər verən ermənilər kilsəni azərbaycanlı döyüşçülərdən ala bilməyəcəyini başa düşərək, hiyləyə əl atmışlar. Əsir götürdükləri Xocalı sakinlərindən birini onun yanına göndərmiş, təslim olmayacağı təqdirdə əsirləri güllələyəcəkləri ilə hədələmişlər. Azərbaycanlı girovların məhv edilməsinə dözə bilməyən azərbaycanlı bahadır yalnız bundan sonra təslim olmağa məcbur olmuşdur.

Tarixdən alman faşistlərinin təslim olmaq istəməyən sovet əsgərlərini yerli əhalini qırmaq qorxusu ilə təslim olmağa məcbur etdiyinioxumuş və filmlərdən izləmişik. Əslində erməni faşizmi öz mahiyyəti ilə ənənəvi faşizmdən heç nə ilə fərqlənmir. Onların əməlləri mahiyyətcə alman faşizminin törətdiyi əməllərdən heç nə ilə fərqlənmir.

Özlərini guya ki, “Ari irq”in nümayəndələri sayan bu vəhşilərin əməllərinin oxşarlığı insanı dəhşətə gətirir. Hər iki millətçiliyin bəşəriyyətə gətirdiyi fəlakətlər eynilik təşkil edir. - Soyqırım, yerlə yeksan edilmiş, dağıdılmış şəhər və kəndlər, vəhşicəsinə qətlə yetirilmiş günahsız insanlar, dil ilə təsvir edilməsinə belə çətinlik çəkdiyimiz vəhşiliklər...

Natiq Qasımov və onun kimi igid azərbaycanlı gənclərin qəhrəmanlığının mahiyyəti isə vətənpərvərliyin ən yüksək formada təzahürü, bu yolda düşünmədən həyatını qurbanverməkdir. Onlar öz ölümü ilə də düşmənə qələbə çalan, onları yenən igidlərimizdir!

# Qəhrəmanın axtarışı



Son 30 il ərzində Azərbaycan mətbuatında, eləcə də xarici mediada Natiq Qasımov haqqında onlarla yazılar dərc olunub, çoxlu sayda video materiallar hazırlanıb.

Natiq Qas;movun uzaq 1992-ci ildə əsir götürülməsi tarixçəsi bəlli olsa da, onun sonrakı taleyi məlum deyil. Həmin gün qəhrəman Natiq Rusiya nəşrlərindən birinə materiallar hazırlayan jurnalist Enriko Sarzinin iştirakı ilə erməni əsgərləri tərəfindən dindirilib. Bu dindirilmədən sonra Natiq Qasımovun taleyi ilə bağlı bu günədək heç nə məlum deyil. Bizə yalnız həmin hadisənin şəkilləri qalmışdır.

Əlində müqəddəs Azərbaycan bayrağı müdafiə olunduğu kilsədən çıxan arıqlamış, yorğun, əldən düşmüş, lakin məğrur və qalib qəhrəman Natiq Qasımov! Sonrakı şəkildə qəhrəmanlığı və şücaəti ilə erməniləri belə heyrətləndirmiş qəhrəman məğrur baxışları ilə oturub bu vəhşilərin suallarını cavablandırır!Hadisədən 30 il sonra belə onun şücaəti insanları

valeh edir. Bu illər ərzində onu tanıyanları yalnız bir sual düşündürür-Natiq Qasımovun sonrakı taleyi necə oldu?
Həmin hadisələr"Oğul" sənədli filmində dəöz əksini tapmışdır. Filmdə Natiq Qasımovun qəhrəmanlıq hekayəsindən bəhs edilir, onun sonrakı taleyi haqda məlumatların alınmasına can atılır. Hadisə şahidi Enriko Sensi Natiqin dindirilməsini xatırlayır. Filmin müəllifləri itkin düşən Natiq Qasımovun qohumları və dostları ilə də söhbət ediblər.
Filmin rejissoru Karan Sinq itkin düşən qəhrəmanın izinə düşmək üçün Azərbaycan, İtaliya, Rusiya və Ermənistana səfərlər edib. O, erməni separatçılarının nəzarətində olan, o vaxtlar işğal olunmuş Dağlıq Qarabağ torpaqlarına da gedib. Natiq Qasımovun anası rejissorla söhbətində itkin düşməsindən 30 il keçməsinə baxmayaraq hələ də onu gözlədiyini və sağ olduğuna inandığını bildirib.
2019-cu ildə, Türkiyədə azərbaycanlılar tərəfindən erməni lobbisinə qarşı informasiya mübarizəsi aparmaq məqsədilə yaradılan "ASASmedya", Natiq Qasımovun sağ olması və Ermənistandakı kimya zavodların birində işlədilməsi barədə məlumat yayıb. Bununla yanaşı, Natiq Qasımov barədə məlumat verən şəxsə 1000 dollar, onu Rusiya, İran, Gürcüstan və Türkiyədən təhvil verəcək şəxsə isə 10.000 dollar pul mükafatı təqdim ediləcəyi barədə vəd verib.
Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, ermənilər tərəfindən əsir və girov götürülmə faktı danılan şəxslərin siyahısında Natiq Qasımovun da adı vardır. Dövlət Komissiyasının dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, erməni tərəfi indiyədək Natiqin sonrakı taleyini Azərbaycandan və beynəlxalq təşkilatlardan gizlətməkdədir.

Bu qorxmaz azərbaycanlının qəhrəmanlığı və şücaəti düşmən əsgərləri arasında vahimə və psixoloji gərginlik yaratdığı üçün səhra komandiri Vitali Balasanyan erməni əsgərlərinin qarşısında müharibə qanunlarına zidd olaraq dəfələrlə ağır və dəhşətli işgəncələr verərək, onu qətlə yetirib.
Ermənistan tərəfi beynəlxalq hüquq və normalara zidd olaraq, I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, o cümlədən Natiq Qasımovun dəfn yeri barədə məlumatları gizlədir. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, həmçinin Natiq Qasımovun axtarışlarını davam etdirir.

Bəşəriyyətdə baş verən bütün müharibələr kimi I Qarabağ müharibəsi də özündə çox sirləri gizlədir. Hər bir müharibənin öz itkiləri, qəhrəmanları və insanlıq tarixinə yaxşı və pis əməlləri ilə düşmüş insanları vardır. Amma milyonların qəlbinə yol tapmış, ürəklərdə, qəlblərdə iz salmış insanlar yalnız və yalnız insanlıq və insaniyyət naminə mübarizə aparan və bu yolda həyatını qurban verən qəhrəmanlardır.

Xalqımızın Natiq Qasımov kimi taleyi naməlum qalmış yüzlərlə igid oğlu vardır. Hələki onların hamısının adlarını öyrənmək mümkün deyildir. Vaxt gələcək, bu qəhrəmanların adları insanlara bəlli olacaq, onların əbədi yuxuya daldığı müqəddəs məzarları aşkar ediləcəkdir.

## O, xocalıları xilas etmək üçün təslim oldu




Sosial şəbəkələrdə Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən əsir götürülən azərbaycanlı döyüşçü Natiq Qasımovla bağlı yeni məlumatlar paylaşılırdı. Diqqətimizi çəkən məqamlar igid həmyerlimizin göstərdiyi şücaət və onun dünya mətbuatında öz əksini tapması idi.Yerli jurnalistlərin hazırladığı yazıları diqqətlə izlədikcə bu qəhrəman azərbaycanlının həyatı və döyüş yoluna olan marağımız daha da artdı. Azərbaycanlı qəhrəmanlar haqqında çox illik araşdırmalarımız müxtəlif kitablarda öz əksini tapdığından həmkarlarımız və ya sadəcə insanlar tərəfindən edilən çoxsaylı telefon zənglərində Natiq Qasımov haqqında məlumatların toplanılması və yazılarımda öz əksini tapması da israrla qeyd olunurdu. - Bu qəhrəman haqqında kitabın yazılmasının vaxtı yetişmişdir. - deyə insanlar fikirlərini bildirirdilər. Beləcə,bizə Natiq Qasımovun igidliyini təsvir edən yazıların linkləri göndərilməyə başladı. Bu yazılara əlavə olunmuş videolar da mənimlə paylaşıldı.

Yazılarda İtaliyalı hərbi fotoqraf Enriko Sarzininin lentə aldığı fotolarda azərbaycanlı döyüşçünün erməni quldurları

tərəfindən dindirilməsi prosesiəks olunmuşdu.Dindirilmədə azərbaycanlılara qarşı müharibə cinayətləri törətmiş Vitali Balasanyanın iştirak etdiyi görünürdü.

Bu yazılardan Böyük Britaniyanın “Broken Pot Media” şirkətinin Natiq Qasımova həsr etdiyi “Oğul” sənədli filminin çəkildiyini öyrəndik.Əvəzsiz kadrlardır. Hətta digər xalqların nümayəndələri belə azərbaycanlı qəhrəmanın göstərdiyi şücaət və igidliyin qarşısında həqiqəti deməyə məhkumdur. Bu, türk qəhrəmanıdır. Bu qəhrəmanlığı yalnız türk əsgəri göstərə bilər!

“Oğul” sənədli filmində 1992-ci ildə Qarabağ müharibəsi zamanı itkin düşən hərbi əsir Natiq Qasımovun axtarışından bəhs edilir.

Filmin rejissoru və ssenari müəllifi Karan Sinq üç il ərzində Ermənistan, Azərbaycan, İtaliya, Böyük Britaniya və Rusiyada şahidlərlə söhbət edib.

Natiq Qasımov erməni zabitlər tərəfindən dindirilən zaman Enriko Sarzini də orada olub. Filmdə fotoqrafın müsahibəsi də yer alır. Qırx altı dəqiqəlik filmin görüntü rejissoru Simon Stanforddur.Filmi aktyor Azər Aydəmir səsləndirib.

Qeyd edək ki, Natiq Qasımovun işgəncələrlə öldürüldüyü bildirilir. Ancaq onun ölümü rəsmi olaraq təsdiqini tapmayıb.

Onu da bildirək ki, təqdim edilən bu şəkil əsl döyüşün lentə alındığı anlardan biridir. Şəkildən göründüyü kimi Natiq Qasımovu kilsədən çıxartmağa çalışan erməni döyüşçüləri bir tərəfdən kilsəyə tüstü “şaşka”sı atır, digər tərəfdən isə ona pəncərədən qumbara tullamağa çalışırlar.

## Taleyinə yazılmış son döyüş



Natiq QasımovAğdamda Yaqub Rzayevin başçılığı altında "Qarabağ şahinləri" dəstəsində ermənilərə qarşı döyüşmüş, 1992-ci ilin əvvəllərində evlərinə qayıtmışdı.

Xocalı faciəsindən sonra Natiq bir daha cəbhə bölgəsinə qayıdır. O, döyüş bölgəsindən yenicə qayıtmışdı. Xocalı soyqırımından sonra özünə yer tapa bilmirdi. Qəhrəman, vətənpərvər ürəyi onu döyüş meydanına, qisas meydanına səsləyirdi. Ermənilərin xalqımızın başına gətirdikləri bu vəhşiliklər onun qəhrəman ürəyini ağrıdırdı. Belə vaxtda o evdə otura bilməzdi, düşünürdü ki, onun yeri cəbhədə, döyüş meydanındadır.

Atası Səlim kişinin dediklərindən: -“Xocalı faciəsindən bir neçə gün sonra evdə tapdığımız məktubdan məlum oldu ki, Natiq Yaqub Rzayevin “Qarabağ şahinləri” dəstəsində vuruşmağa gedib. Yazırdı ki, Qarabağda xalqımızın qırıldığı, ana-bacılarımızın namusunun tapdandığı bir vaxtda mən evdə rahat otura bilmərəm”.

Natiq bu dövrlərdə bir çox döyüşlərin iştirakçısı olur. Həmişə cəsarəti, qorxmazlığı ilə seçilir. Müharibənin dəhşətləri, çətinlikləri qarşısında baş əyməyən bu igidlər doğma torpaqlarımızın hər qarışı uğrundatəpədən dırnağadək silahlanmış erməni qəsbkarları ilə ölüm-dirim mübarizəsinə qalxır. Həmin vaxtlar Milli Ordumuz təzəcə təşəkkül tapırdı. Çətinliklər çox idi, lakin silah-sursat ilə bağlı bu çətinliklər düşməndən qisas almaq üçün qanlı döyüşlərə atılan qəhrəman əsgərlərimiz üçün maneə deyildi. Bunu bizə o dövlərdə çəkilmiş kinoxronikalardan da aydın şəkildə bilirik. Könüllülərdən ibarət təşkil olunmuş batalyonlar ermənilərlə savaşda daha böyük inad və qəhrəmanlıq nümayiş etdirirdilər. Onların hamısı həqiqi hərbi xidmətdən qayıtmış, əsgəri xidmətin bütün ağırlığını çiyinlərində hiss etmiş keçmiş əsgərlər idi. Natiq Qasımov da onlardan biri idi.

1992-ci ilin mart ayının əvvəllərindəNatiqin əsgəri olduğu batalyon qızğın döyüşlərə qatılmışdı. “Qarabağ şahinləri” batalyonundan 31 nəfərlik bir dəstə Xocalının Pirlər kəndi yaxınlığındakı bir yüksəkliyi ələ keçirmək əmrini alır. Tapşırıq yerinə yetirilir, yüksəklik ələ keçirilir. Döyüşçülərin bir qismi qədim alban kilsəsində müdafiə mövqeyi tuturlar. Ermənilər əldən verilmiş mövqeyi geri qaytarmaq üçün dəfələrlə bu kilsəyə hücum etməyə məcbur olurlar. Beləcə 5 gündən artıq davam edən qızğın döyüşlər başlanır. Azərbaycanlı döyüşçülər də bu döyüşdə itkilər versə də, geri çəkilməməyi qərara alırlar. Qeyri-bərabər döyüşdə həlak olacaqlarını bilsələr də, nəyin bahasına olursa, olsun hərbi nöqteyi-nəzərdən böyük əhəmiyyətə malik olan bu yüksəkliyin ermənilərə verilməsinə razı ola bilmirlər.

Kilsədə Natiq və onunla bərabər 6 nəfər də döyüşü davam etdirirlər. Kömək gələcəyinə böyük ümid bəsləyən igidlər ağır döyüşlərdə bir-bir həlak olur. Aramsız hücumlar isə davam edirdi, müdafiəçilərin sırası günlər keçdikcə seyrəlməyə başlayır. Kilsədə sonuncu sağ qalan müdafiəçi Natiq idi. Tək qalsa da, ermənilərin yüksəkliyi almaq üçün atdıqları bütün addımlar uğursuzluqla nəticələnir. Natiq onların bütün hücumlarını təkbaşına dəf edir.

İtaliyalı jurnalistin çəkdiyi sənədli filmdə həmin döyüşlərdə iştirak etmiş erməni döyüşçüləri ilə söhbətlər yer almışdır. Onlarla söhbətdə həmin qəhrəman azərbaycanlı döyüşçü haqqında fikirlər də söylənilir.

-Yadımdadır ki... Həmin döyüşün canlı şahidi olmuşerməni döyüşçüsü Natiq Qasımovun igid bir qəhrəman olduğunu etiraf edir. Hətta düşmənləri belə onun əsl qəhrəman, cəsur döyüşçü olduğunu etiraf etməli olurlar. Çoxlu sayda quldur, qaniçən yoldaşları həlak olan buerməni saqqallıları kilsədə müdafiə olunanların böyük bir dəstədən ibarət olduğunu düşünürmüşlər...

Bir döyüşçünün deyil, bütöv bir dəstənin kilsəni müdafiə etdiyini düşünən ermənilər yenə də öz məkrlərini işə salmağı düşündülər. Yalan və qorxaqlıq - ermənilərə tarixən xas olan bu cəhətlər dar günlərində həmişə onların karına gəlib. Onlar əsir və girov götürdükləri Xocalı sakinlərindən yararlanmaq qərarına gəlirlər. Əsir düşmüş xocalılardan birini çağırıb ona kilsədəkilər təslim olmasalar, bütün əsirləri güllələyəcəklərini bildirirlər. Bu xəbərdarlığı kilsədəkilərə çatdırmaq Xocalıda məktəb direktoru işləmiş Cəfər Cəfərova həvalə olunur.

Döyüşdə altı yoldaşı həlak olan Natiq isə alban kilsəsində mübarizəni davam etdirirdi. Təkbaşına 5 gün gecə-gündüz vuruşaraq düşmənləri bu posta yaxın buraxmırdı.
Xocalı köçkünü, dil-ədəbiyyat müəllimi Cəfər Cəfərov mətbuat nümayəndələri üçün verdiyi müsahibədə həmin günü belə xatırlayır:
-"Bizi, yəni 22 nəfər Xocalı sakinini tutub Əsgərana gətirdilər. Bir neçə gün orada qaldıqdan sonra, bir səhər bizi cərgəyə düzdülər. Erməni zabiti mənə yaxınlaşıb dedi ki, səni Qriqoryan kilsəsinə aparıram, kilsənin içərisində döyüşçülər var. Onlar bizə müqavimət göstərirlər. Sən kilsənin içərisinə daxil ol və onlara təslim olmalarını de. Əgər onlar təslim olmasalar, sizi və 22 nəfər Xocalı sakinini güllələyəcəyik. Təslim olsalar, sizi azad edəcəyik.
Məni Qriqoryan kilsəsinə apardılar. Maşını kilsədən bir az aralı saxlayıb məni düşürdülər və kilsəyə girməyimi əmr etdilər. Kilsəyə daxil olanda oradan səs gəldi. Mən tez azərbaycanlı olduğumu bildirdim və dedim ki, əgər o təslim olmasa,ermənilər 22 nəfər Xocalı sakinini öldürəcəklər. O, bir nəfər olduğunu və beş gündür ki, ac-susuz tək döyüşdüyünü bildirdi. Onun rəngi hissdən qapqara olmuşdu. Mən ermənilərin fikrini ona bildirdim. O, bir an fikrə getdi.
-Axı imkanın var idi, nə üçün geri çəkilmədin? - deyə ondan soruşdum.-Komandirim mənə mövqeyi tərk etməməyi tapşırıb. Bir də ki, yuxarıda dalğalanan Azərbaycan bayrağını burda qoyub necə gedə bilərdim? - cavabını verdi, sonra binanın üzərindəki Azərbaycan bayrağını kilsənin üstündən çıxardı.

Natiq Qasımov bir canı üçün Xocalı sakinlərinin qətlinə yol verməyəcəyini bildirdi. İki gülləsi qalmışdı, onu da havaya atdı və kilsədən çıxdı. O, razı olmadı ki, Xocalıları güllələsinlər.

Azərbaycan bayrağını sinəsinə sıxıb ermənilərin üzərinə getdi. Bu arada qeyd edək ki, 26 fevral 1992-ci il tarixdə Xocalı soyqırımı zamanı əsir düşmüş Cəfər müəllim Natiqi ən son görənlərdən biridir.

-Mənə dedilər ki, sizin türklər bizim kilsəni tutublar, çoxlu sayda adamlarımızı qırıblar. İstəmirik ki, itki verək. Sonra ermənilər məni özləri ilə bir meşəyə gətirdilər. Sağ tərəfdə uçuq bir xarabalıq görünürdü, üzərində də üçrəngli bayraq dalğalanırdı. Mənədedilər, get, sizinkilərə de ki, mühasirədədirlər, heç yana çıxa bilməzlər. Onları dilə tutub razı sala bilsən, həm səni, həm də qalan 20 əsiri buraxacağıq. Əgər türklər təslim olmasalar, kilsəni partladacağıq, əsirləri isə güllələyəcəyik.

Ermənilər təxminən 100 metr aralıdakı kolların, qayaların arasında gizlənib məni sürünə-sürünə irəli getməyə məcbur etdilər. Xarabalığa çatıb başımı qaldırıb baxanda gözümə 3-4 meyit dəydi. Bildim ki, bizimkilərdir. Kilsədən tüstü çıxırdı. Nəfəsimi dərib soyuq divara söykəndim, yuxarı baxdım. Gecədən islanmış üçrəngli bayraq ağır-ağır yellənirdi. Bayrağa baxa - baxa ağladım. Kilsəyə çatıb ana dilində“İçəridə kim var, mən - Xocalıdan əsir düşənlərdənəm, məni sizin yanınıza göndəriblər”,- dedim. Az sonra içəridən öskürək və hənirti səsi gəldi. Diksindim, həm də sevindim ki, burada bizimkilər var. Güclə eşidilən bir səs məni içəri çağırırdı. Əlimi divara sürtə-sürtə səs gələn tərəfə getdim. Bacadan düşən işığın altında bir avtomat, bir əl pulemyotu, çoxlu patron gördüm. O, üzü üstə yıxılmışdı. Yaxınlaşıb yaralı olub-olmadığını soruşdum. Güclə cavab verdi ki, yaralı deyil. Su istədi. Su olmadığından ona bir neçə parça quru çörək verdim. Könülsüz də olsa, çörəyi yedi. Yoldaşlarını soruşdum. Dedi ki, komandirim məni 6

nəfərləbura göndərib.Yoldaşlarımdan üçünü ermənilər öldürdü, üçündən isə xəbərim yoxdu. Beş gündür ki, tək qalmışam.
Niyə qaçmadığını soruşdum. Dedi ki, komandirə söz vermişəm, bayrağı və postu qoyub gedə bilmərəm. Kömək gözlədim, lakin gəlmədilər.
Natiqə ermənilərin tələbini çatdırdım. Eşitdiklərinin ürəyincə olmadığını hiss etdim. Dedi ki, iki gülləsi qalıb, axıradək vuruşacaq. Xahiş etdim ki, məni vur, qoy, heç olmasa özümüzünkülərin gülləsindən ölüm. Bir anlığa xəyala daldı.- Tutaq ki, sizi vurdum, bəs mənə görə 20 nəfər girovun güllələnməsinə necə razı olum? - dedi.
Bunu deyib havaya güllə atdı, ermənilərə tərəf bağırıb, onları yanına çağırdı. Ermənilər əvvəlcə gəlməyə tərəddüd etsələr də, məni görüb tökülüşdülər. Natiqin üst-başını axtardılar. Onun bir neçə gün burada təkbaşına vuruşmasına heç cür inana bilmirdilər. Kilsəni aramsız avtomat atəşinə tutdular. Heç kimin olmadığını görəndə pərtlikdən dahada qəzəbləndilər. Natiq əlində üçrəngli bayrağımız erməni yaraqlılarının arasında irəliləyərkən orada olan xarici jurnalistlər sözügedən məşhur fotonu çəkdilər. Sonralar bildim ki, həmin şəkil “Oqonyok” jurnalında dərc edilib. Ermənilər hər ikimizi “BTR”-ə qoyub Əsgəran qalasına gətirdilər. Milis şöbəsinin təcridxanasında məni kameraya salıb, Natiqi isə hərbi komendant olan mənzilə apardılar. Bundan sonra bir daha Natiqi görə bilmədim. 14 mart 1992-ci ildə 21 nəfər girovu, o cümlədən məni Ağdam yaxınlığındakı qəbirstanlıqda dəyişdilər.
…Tezliklə biz Xankəndindən Əsgərana tərəf yollandıq. Oradan vaxtaşırı atışma səsləri gəlirdi. Lakin Əsgərana gedib çıxmadıq, çünki yolda silahlı saqqallılarla dolu “BTR”-ə rast gəldik. Şübhəsiz, buradakı dəstənin yaraqlıları “iş

dalınca"gedirdilər. Onların aldıqları məlumata görə, bir neçə gün bundan öncəəks tərəf dağlarda bir kəndi tutmuşdu. Ermənilər onları sıxışdırıb çıxartsalar da, köhnə kilsədə Azərbaycan Milli Ordusunun bir qrup əsgəri qalmışdı.




***Şəkildə: Erməni döyüşçüsü 5 günlük döyüşdə əldən düşmüş Natiq Qasımovu əsir götürərkən.***

"BTR"-dəki adamlar ən uca zirvədə yerləşən kilsəni azad etməyə yollanırdılar. Kiçik kilsədə azərbaycanlıların sayı heç kimə məlum deyildi. Lakin onlara hücum edən dəstə artıq iki nəfər itirmişdi. Hücumçular müxtəlif vasitələrə - gözyaşardıcı qazdan qumbaralaradək əl atsalar da, məqsədlərinə nail ola bilmədilər.

Təəssüf ki, hadisə yerinə çata bilmədik. Maşınımız dağın ətəyindəki yolda bataqlığa düşdü və"BTR" gözdən itdi. Buna baxmayaraq, o böyük əks-sədaya səbəb oldu. Belə ki, nə bu gün, nə də ertəsi gün yaraqlılar kilsəni ələ keçirə bilmədilər. Yalnız üçüncü cəhddən sonra onlar kilsənin yeganə sağ qalmış

müdafiəçisini təslim olmağa vadar etmiş və məbədlə qəbirstanlığı geri qaytarmışdılar. Əsir düşmüş cavan oğlan tüstüdən qapqara idi. O, üzərində bayrağımız sancılmış kilsədə beş gün ac-susuz qalmışdı.- O dövrün hadisələrinin şahidlərindən birinin xatirələrində bildirilib.

Qəribədir ki, bu günədək Ermənistan hökuməti tərəfindənNatiqin taleyi barədə beynəlxalq təşkilatlara da heç bir məlumat verilmir. Bundan ötrü böyük səbəblər olmalıdır.

Qəhrəman Natiqin qohumlarının Moskvada“Oqonyok” jurnalında dərc olunan həmin məlum yazının müəllifi ilə görüşündə də bu məsələyə aydınlıq gətirilməsinə də çalışılıb. Jurnalistin sözlərinə görə, o, Qarabağdan çıxanda Natiq sağ imiş. Konstantin Smirnov hətta əvvəlcə yaxınlarına Natiqin axtarışında köməklik göstərəcəyi barədə vəd də verib. Lakin sonradan,naməlum səbəblərə görə o, bundan imtina edib.

Ermənilər tərəfindən əsir və girov götürülmə faktı danılan şəxslərin siyahısında Natiq Qasımovun da adı vardır. Dəfələrlə edilmiş müraciətlərə baxmayaraq, erməni tərəfi bu günədək Natiqin sonrakı taleyini Azərbaycandan və beynəlxalq təşkilatlardan gizlətməkdədir.

Natiq bu gün də unudulmayıb. Mingəçevir şəhərindəki Şəhidlər Xiyabanında itkin düşənlərin rəmzi məzarları sırasında qəhrəman Natiq Qasımovun da adı vardır.

O, xalqımızın qəlbində əbədi yaşayacaq. İnsanlar onun qəhrəmanlığını vəsf etməklə, onun əziz xatirəsinə, göstərdiyi əsgəri rəşadətə olan tükənməz hörmət və məhəbbətini ifadə edirlər. O, artıq öz xalqının qəhrəmanına çevrilmişdir.

Xalq öz qəhrəmanını unutmur!

Heç kim unudulmur, heç nə yaddan çıxmır!

# Müqəddəs Azərbaycan bayrağı

***Müqəddəs Azərbaycan bayrağı! Səni sevən insanlar üçün candan və həyatdan daha şirinsən!***



Bu şəkildəNatiq Qasımov erməni yaraqlılarının əhatəsində olsa da, Azərbaycan bayrağını əlindən buraxmır. Baxışlarında qürur var. Bu baxışlarda olan məna insan ürəyini yandırır.

Şəkil keçmiş SSRİ-nin ən populyar jurnallarından biri olan “Oqonyok”- un 1992-ci il tarixli aprel sayında (№ 14-15) dərc olunmuş Konstantin Smirnovun “Qorxu” sərlövhəli məqaləsinə əlavə olaraq verilmişdi.Yazı italiyalı fotomüxbir Enriko Sarzininin həmin anlarda çəkdiyi bir neçə şəkillə də müşayiət olunur. Şəkildə Natiqin beş günlük ağır döyüşlərdən sonra əlində üçrəngli milli bayrağımız iki saqqallı erməni arasında məğrurcasına addımladığı əks olunub. Ermənilər 5 gün müddətində kilsədə onlarla cəmi bir nəfərin mübarizə apardığını biləndə çox pərt olmuşdular.




***Şəkildə: Natiq Qasımov dindirilməyə aparılarkən. Qorxmaz qəhrəmanımız əli yalın olsa belə ermənilər onu silahlı konvoy ilə müşahidəedir...***



# Natiq Qasımov barəsində araşdırmalar filmdə



Natiq Qasımovun şücaətini parlaq şəkildə əks etdirilən "Oğul" sənədli filmi Azərbaycan Ordusunun 2023-cü ilin sentyabr ayında apardığı uğurlu antiterror tədbirlərindən sonra yenidən ictimaiyyətin gündəminə gəlib.

Filmdə Natiq Qasımovun erməni əsirliyində dindirilməsi ilə bağlı məqamlar və bu dindirilmələrdə ermənilərin səhra komandiri Vitali Balasanyanın da iştirak etməsinə dair faktlar yer alır. Şahidlərin məlumatına görə, erməni hərbçi Vitali Balasanyan Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyatda olan Natiq Qasımovu əsirlikdə olduğu müddətdə işgəncə ilə qətlə yetirib.

Film riyakar erməni xislətini bir daha aşkara çıxarmış olur. Bununla yanaşı, filmin rejissoru ekran əsərində müharibələrin insanların taleyində oynadığı dəhşətli roldan bəhs edir, ailələrin öz əzizlərinin itkisindən və naməlum taleyindən çəkdikləri iztirabları ön plana gətirir.

Onu da qeyd edək ki, film Azərbaycan və ingilis dillərində hazırlanıb və iki dəfə ABŞ festivallarında nümayiş etdirilib.
Filmi həyacansız izləmək mümkün deyildir. Erməni qəddarlığı, erməni riyakarlığı hər addımda hiss edilməkdədir. Filmi izləyərkən keçirtdiyimiz hissləri söz ilə ifadə etməkdə çətinlik çəkirik.
Filmi izləyərkən qəlbimizdən ağrılı hisslər keçir:-Bax, budur "ermənilik", budur erməni faşizmi! Mahiyyətcə başdan - başa cinayətdir, onların etdikləri.
Filmdəki araşdırmaları, rejissorla qatil Balasanyan və digərləri ilə söhbətləri olduğu kimi təqdim etmək zorundayıq.
"Qarabağda general Vitali Balasanyandan münaqişə dövründə ondan əsirlər ilə necə davranmasını təkidlə xahiş etdik. - rejissor qeyd edir.
-Birincisi kimisə əsir saxlamaq çətindir.-Vitali Balasanyan bildirir.-İkincisi, əsir təhlükə deməkdir. Əsirlikdən qaçmağa çalışan adam ya öldürülə, yada bizimkilər tərəfindən kimisə öldürə bilər. Əgər bir adam əsir kimi qeydiyyatdadırsa, nəyəgörə onun öldürülməsinə görə, yada onun bizim adamlarımızdan birini öldürməsinə görə niyə başımız ağrımalıdı?..
Gördüyünüz kimi əsir istənilən halda təhlükə mənbəyidir. Hətta insan haqları təşkilatları, eləcə də beynəlxalq konvensiyalar amilini nəzərə alsaq da, bu fakt dəyişmir. Biz Sarzininin Natiqin əsir götürülməsi və erməni hərbçiləri tərəfindən dindirilməsi zamanı çəkdiyi şəkilləri generala göstərdik. O, əsirin tanış gəldiyini, lakin Natiq Qasımov adını xatırlamadığını bildirdi.
-Bu ad doğrudan da yadımda deyil, amma bizim əsirimiz kimi qeydiyyata alımnış kiminsə sonradan yoxa çıxması qeyri-

mümkündür. Məndə belə bir məlumat yoxdur. Çünki biz bu cür məsələlərə çox ciddi yanaşırdıq. Əsirlər bizim həbsxanalara düşən kimi Qırmızı Xaç Komitəsi onları qeydiyyata götürürdü. Biz dərhal Qırmızı Xaç Komitəsi ilə əlaqə saxlayırdıq və əsirlər bu təşkilatın nəzarətinə verilirdi.

Bununla belə general Sarzininin çəkdiyi fotoşəkillərdəki erməni əsgərlərinin bir neçəsini tanıdı.

-Bu ikisi mənim əsgərlərimdi. Bu, bir də bu. Amma, bu şəkil yadıma gəlmir. O tərəfdəkilər də mənim əsgərlərimdi. Ancaq, biz Natiqi yəqin ki, təhvil vermişik. Özü də təkcə Natiqi yox, elə hamısını. Mən sonrakı vəziyyətə görə cavabdeh deyiləm. Əgər öldürdüklərimiz olubsa da, onların nəşini təhvil vermişik. Mən "əgər" sözünü vurğulamaq istəyirəm. Çünki biz, öldürməmişik.

Maraqlıdır ki, general sorğu zamanı düz Natiqlə üzbəüz əyləşən və xüsusilə nəzərə çarpan gənc zabiti deyəsən tanımadı.

-O haqda heç bir məlumatım yoxdur.-Balasanyan bir az fikirə gedir.- Heç bir məlumatım...Heç nə deyə bilmərəm.

Sonra biz istefada olan polkovnik-leytenant Romik Mxitaryanla görüşüb söhbətləşmək üçün Ermənistanın paytaxtı Yerevana yollandıq. O da müharibədə iştirak edib və ermənilər tərəfdə döyüşmüş zabit həmkarlarının bir çoxunu tanıyır. Natiqi dindirən gənc zabitin şəkilini ona da göstərmək qərarına gəldik. Ümid edirdik ki, Romik onun kimliyinə işıq salmaqda bizə yardım göstərəcək. Onun dedikləri bizi dəhşətə gətirdi.

-Bu ki, Vitodu, Vitali Balasanyandır.

-Bu, Vitali Balasanyandır?

-Bəli, Vitodu da.

-Deməli yüksək dövlət mükafatları almış general Vitali Balasanyan Natiqin dindirilməsində şəxsən iştirak edibmiş.Bu, dəhşətli görünsə də, mümkün idi. 1992-ci ildə Balasanyan Əsgəranın müdafiəsinə başçılıq edirdi. Həmin vaxt onun cəmi 33 yaşı olsa da, o əsirlərin dəyişdirilməsini təşkil edirdi.Onda bizə müsahibə verərkən dindirilmə səhnəsi ilə bağlı fotoşəkildə özünü tanımaq istəməməsi heç təəccüblü deyil. Bu, Natiqin yoxa çıxmasına görə məsuliyyət daşıyanların tapılması ilə bağlı axtarışlarımızda böyük irəliləyiş sayıla bilər.

Lakin biz Romikin sözlərini təsdiqləyəcək azı daha bir erməni şahidin ifadəsini almalı idik. Odur ki, biz kilsə döyüşündə iştirak etmiş keçmiş erməni əsgəri Aşot Movsesyanın izinə düşdük.

-O azərbaycanlı əsir cəsarətli əsgər idi. Necə deyərlər, çox qoçaqürəkli oğlan idi.Təsəvvür edin ki, ona qumbara atırdılar, o isə qumbaranı götürüb bizə atırdı. Kimyəvi tərkibli qumbara, tüstü “şaşka”sı atırdıq, amma heç nə təsir eləmirdi. Orda təmiz hava aldığı bir yer tapmışdı. Kilsədə özünü qoruyacağı bir səngər, sığınacaq qazmışdı. Beləcə də sağ qalmışdı.

Sonra biz Aşota dindirilmə səhnəsinin fotoşəkilini göstərdik ki, görək o zabiti tanıyacaq, ya yox.

-Bəli,bəli, bu, Vitalidir.- Aşot Movsesyan bildirir.-Tanıyıram, xatırlayıram, çox yaxşı strateqdir. Hərbi strategiyanı çox yaxşı bilirdi Vitali. Azərbaycan dilində də çox təmiz danışırdı. Elə təmiz danışırdı ki, onun erməni olduğundan qətiyyən şübhələnməzsən. Yəni, o dərəcədə təmiz danışırdı.

Hələ bu harasıdı, Aşot bizə daha bir sirri açdı. Sən demə Vitali Balasanyan kilsəyə hücuma şəxsən özü rəhbərlik edirmiş. Vitali Balasanyanın sayəsində Xocalıdan bir müəllim gətirib, kilsəyə saldılar ki, o azərbaycanlı ilə danışıb, onu oradan

çıxmağa razı salsın. Elə də oldu. Balasanyan o vaxt ordaydı. Mən də həmin vaxt ordaydım. 3-cü "Stepanakert bölüyü"nün tərkibində oraya getmişdim.

Biz ondan Natiqin sorğuya çəkilməsində onun iştirak edib-etməməsini və əsirin sonrakı taleyindən bir şey bilib-bilməmədiyini soruşduq.

-Mən söhbət zamanı orda deyildim. Heç bir şey də eşitməmişdim, amma, dostlarımızdan biz gedəndən sonra nə baş verdiyini soruşmuşduq. Eşitdiyimə görə onu doğramışdılar.

-Doğramaq deyəndə nəyi nəzərdə tutursunuz?

-Qısası, onu öldürmüşdülər. Əsir götürüləndən sonra onu öldürmüşdülər. Dəyişdirməmişdilər. Öldürmüşdülər, hə. Bəli, belə eşitmişdim.

Bu, bir müharibə cinayətidi. Məncə, insanların itkin düşməsi ilə ailələrin onların başına nələrin gəldiyini heç vaxt öyrənə bilməməsi bu münaqişənin faciələrindən biridir. Əslində tək bu münaqişənin yox, çoxlarının. Belə düşünürəm ki, çoxlu adsız qəbirlər var. Ümidvaram, onların sirrini bilənlər hələ var və bir gün sülh razılaşması əldə olunsa, həmin adamlar bu adsız qəbirlərin sirrini açacaqlar. Vitali Balasanyanın Natiqin itkin düşməsində əli olmasına şühbələrin artmasını nəzərə alaraq, ondan növbəti dəfə müsahibə almaq istədik. Lakin "general" növbəti müsahibəyə razılıq vermədi. Natiqi dindirən gənc zabitin kimliyi ilə bağlı sualımıza gəlincə, Vitali Balasanyan yenə də cavab verməməyi seçdi. Bu cür münaqişələrdə ən problemli məsələlərdən biri budur ki, müharibədə pis əməllər törətmiş insanlar hələ də orduda qulluq edirlər. Və çox vaxt vəzifədə irəli çəkilir, yüksək rütbələr, mükafatlar alırlar. O vaxt aşağı rütbədə zabit olanlar bu gün generaldırlar. Bu cür münaqişələrdə hamı ədalət tələb edir, amma, gerçəklikdə

mütləq ədalətə nail olmaq çox çətindir. Çox vaxt güzəştə, kompromisə getməli olursan. Kompromis isə bundan ibarət olur ki, hərbi cinayətlərdə əli olmuş ali mənsəbli adamları sülh sazişi imzalamağa razı salırsan. Əvəzində onları mühakimə eləməməyi öhdəliyi götürürsən. Bu faciələrdən, amansızlıqlardan qurtulmağın bir yolu da Cənubi Afrikadakı Həqiqət Komissiyası kimi bir qurumu yaratmaq olardı.

Natiq unudulmuş müharibənin itkilər siyahısında sadəcə bir ad, böyük faciənin növbəti nakam bir qurbanı kimi qala bilərdi. Lakin Sarzininin vacib bir döyüşdə çəkdiyi azərbaycanlı gəncin təslim olması və dindirilməsi zamanı lentə aldığı kadrların sayəsində Natiq o dünyadan bizimlə danışmaq imkanı qazanır və zalım düşmənlərini ifşa edir.

Bu gənc oğlanın əsir alınması bütün müharibənin xülasəsidir. Bu, müharibənin insan simasını göstərir. Ondan kənarlarda hər şey əsgərlərdi.Sadəcə, əsgərlər. Bilmirsən onlar kimdi, nəçidi, tanımırsan. Bu oğlanın isə siması var-O, insandır. Onun adı var.

Mən bundan sonra nə qədər yaşasam da, Natiqin ölümü mənim üçün yalandır. Bu, inanılmazdır, mən bunu təsvir edə bilmirəm.- Natiq Qasımovun qardaşı Nofəl Qasımov deyir.- Hansısa bir qəzetdə yazılıb ki, Natiq öldürülə bilməz, Natiq yandırıla bilməz, Natiq daim sağır, o qəlbimizdə əbədi yaşayacaqdır. Qəzetlərdə yazılan belə məlumatları oxuyandan sonra öz ürəyimdə də, valideynlərimlə də, bacılarımızla olan söhbətlərdə də həmişə düşünmüşəm ki, Natiq nə vaxtsa sağ-salamat qayıdıb gələcəkdir.Hətta üstündən on illərlə vaxt keçməsinə baxmayaraq.

-Yuxularımda görürəm, deyirəm ki, dözə bilmirəm ay allah, ya məni öldür, ya bunu mənə agah elə, ya görsət, ya mənə bir

səbr ver...-Natiqin anası Dursun Qasımova verdiyi müsahibəsində deyir.
Erməni cəlladları ilə təkbaşına vuruşub, Xocalı əsirlərini xilas etmək üçün onlara əsir düşməyə razı olan Natiq Qasımovun anası Dursun Qasımova, igid oğlunu itirmiş, gözü bu 30 ildə oğul deyib yollarda qalan, oğlunun sağ-salamat qayıdacağına hələ də ümidini itirməyən bu ana digər müsahibələrinin birində ürək yanğısı ilə müharibə və oğlunun qətlində əli olan erməni cəlladları haqqında deyir:

-Hamı gedib öz şəhidinin qəbrini ziyarət edir, yoxdu axı ziyarət etməyə bir yer. 30 il keçib. 30 ildir ki, bir dəqiqə olsun belə gecə-gündüz onu yadımdan çıxara bilmirəm.

Gözüm elə televizorda qalıb ki, o Balasanyanı tutsunlar. Mənim bayramım olar, o tutulsa. O, tutulsa yalvararam ki, məni onunla görüşdürsünlər.Deyərəm ki, görsün zülüm çəkmək necə olar.Niyə Natiqin cavan ömrünü çürütdün, onu yaranmağına peşman qoydun? Soruşardım ki, niyə onu belə elədin? Vuruşmuşdu da, əsirlə beləmi davranırlar?  - ana fəryad çəkərək deyir.
30 ildir gözü yollarda qalan ana indi ümidlə yaşayır. İnsanlıq əleyhinə müharibə, terrorçuluq və digər cinayətlərlə bağlı tutulan Araik Arutyunyan, David  Manukyan, Arkadi Qukasyan, Vardanyan kimi, oğlunun izsiz taleyində izi olan Vitali Balasanyanın da tezliklə cinayət  məsuliyyətinə cəlb olunacağı günü gözləyir.

-“Təkcə Natiqin yox, neçə adamın qanını töküb o. Xocalıda əsir tutduqları insanların  nə qədərinin ölümündə onun əli var. Televizorda da danışırlar. Baxırıq. Ağlaşa-ağlaşa danışırlar ki, hələ də hər yerimiz yaradı. Onların dişlərinə kimi diri-diri çəkib çıxardıblar.Elə zülmlər ediblər azərbaycanlılara,

cavanlara, uşaqlara. Uşaqların başına gətirdiyi bu zülmlərə allah dözərmi? Allah cəzasını verər, inşallah.
Allah bir də göstərməsin. İndi də mənim kimi anaların "oğul-oğul" deyə gözləri yollarda qalıb. Xeyir işlərə getmirik, üzümüz gülmür, nə zülmlər çəkirik. 32 il zülm çəkmək nə deməkdi. Yenə aparıb basdıranda təsəlli tapırsan, ölümün üzü soyuqdu. Qəbrini ziyarət edirsən, adam onda heç olmasa təsəlli tapır. Bax, belə zülmlər elədilər bizə".

Dursun xala bildirir ki, Natiq xalqımızın başına gətirilənlərə dözmədi, ailəsindən gizlin, xəbər vermədən könüllü olaraq cəbhəyə yollanıb. Həmin məşhur kilsədə 5 gün aramsız olaraq düşmənlə vuruşub. Yalnız əsir xocalıları ölümdən xilas etmək üçün, həlak olacağını bilsə də, düşmənə təslim olub. Bunun özü böyük əsgəri şücaət, igidlik və mərdlik nümunəsidir.

Oğlu haqqında bir məlumat almaq üçün ana uzun müddət onu tanıyanlardan Natiqi sorur. Onun haqqında heç bir dəqiq məlumat ala bilməyən ailəsi Natiqin əsirliyə düşdüyünü "Oqonyok" jurnalında dərc olunan bir yazını oxuyandan və italiyalı fotoqraf-jurnalist Sarzininin çəkdiyi şəkilləri görəndən sonra öyrənir. Bundan sonra da onun axtarışını uzun müddət davam etdirirlər.

Natiq Qasımovla bağlı rejissoru və ssenari müəllifi Karan Sinq olan tədqiqat filmi də çəkilib. Məhz bu film igid qəhrəman Natiq Qasımovun taleyi barədə bir çox sirlərin açılmasına işıq salır. Bu gün məhz onun araşdırmaları sayəsində biz Natiq Qasımovun qəhrəmanlığı barədə dolğun məlumatlara sahib ola bilirik.




***Şəkildə: Silahsız Natiqi əsir götürən əli silahlı ermənilər.1992-ci il. Qəhrəmanlıq yalnız bizə yaraşır.***

Özlüyündə bu film azərbaycanlı gəncin qəhrəmanlığını və erməni faşizminin mahiyyətini və onun iç üzünü olduğu kimi açıqlayan bir sənət əsəridir.

# Vitali Balasanyan şəkildə özünü niyə danırdı?..




“Təsəvvür edin ki, ovucunuzda kiçik bir orqan, yaxud heyvan var və onu məhv etmək istəyirsiniz. Bu, zaman məsələsidir. Təkcə hərbi əməliyyatlarda iştirak edənlər deyil, həm də “Qarabağ silahlı qüvvələri”nə daxil olan və hansısa tapşırığı yerinə yetirənlər deyil, onların hamısı Azərbaycanda hərbi cinayətkar kimi məhkum ediləcək və onlar hərbi cinayətlərin icraçısı kimi təqdim olunacaqlar”, - deyə Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin keçmiş müavini Tiqran Xaçatryan yerli jurnalistlərə müsahibəsində demişdi.

Əlbəttə ki, o dediyi bu sözlərin mahiyyətinə və mənasına varırdı və həmyerlilərinin Azərbaycan torpaqlarında məhz hansı cinayətlərin törədilməsindən, həmçinin kimlər tərəfindən törədildiyindən xəbərdar idi. Onların hamısının əli günahsız Azərbaycan əhalisinin qanına batmışdı, bu işdə Ermənistan Silahlı Qüvvələri də əsas rollardan birini oynamaqda idi. Bütün

bunlar bəşəri cinayətlər sayılır. Beynəlxalq hüququn bir işə yaramadığı bir dövrdə Azərbaycan türklərinin qanını tökən, onları zorla ata-baba torpaqlarından qovan, qız-gəlinləri güllələboran edən, əsir götürən və min bir işgəncələrə məruz qoyan bu "əsgər"lər sadəcə cinayətkar, qatillər və soyqırımı həyata keçirən hərbi canilər idilər.

Belə hərbi cinayətkarlardan biri də Xocalı qatillərindən olan Vitali Balasanyan idi.

Vitali Balasanyan 1988-ci ildən etibarən Azərbaycan Respublikasının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində separatizmin qızışdırılmasında və terror aktlarının təşkilində, etnik təmizləmənin aparılmasında, Xocalı soyqırımının törədilməsində yaxından iştirak etmiş, çoxsaylı müharibə cinayətləri törətmişdir. Sonradan Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində yaradılmış separatçı rejimin "müdafiə nazirinin müavini" və "təhlükəsizlik şurasının rəhbəri" olub.

Artıq Natiq Qasımovu işgəncələrə məruz qoyub qətlə yetirilməsində onun şəxsən əlinin olduğu heç kimə sirr deyildir. Bunu xarici jurnalistlərə müsahibələrdə həmin hadisələrin canlı şahidi olmuş erməni hərbçilər də təsdiq etmişdir. Amma, verdiyi müsahibələrinin birində o bunu danmış, Natiq Qasımovu tanımadığını bildirmişdi. Düzdür, bunu erməni riyakarlığının ayağına da yazmaq olardı, amma, bunun riyakarlıqdan daha böyük səbəbləri də vardır ki, Vitali Balasanyanın "heyvani instinkti" də adlandırmaq olardl. Bu hiss yalnız heyvanlara, xüsusilə də təhlükəni bütün varlığı ilə hiss edən bütün varlıqlara, heyvan xislətli insanlara da aid etmək olar.

Bəs Balasanyan Natiq Qasımovu tanıdığını niyə inkar edirdi?

Çünki, tökdüyü nahaq qanları, etdiyi cinayətləri gözəl xatırlayırdı. Bilirdi ki, Natiq kimi igidin qanına bais olan bu cinayətkar onu tanıdığını etiraf etdiyi təqdirdəbu başdan beynəlxalq qanunlar qarşısında bu cinayətləri etiraf etmiş olur.

Bəs bu qanunları tənzimləyən beynəlxalq hüquq dedikdə nələr nəzərdə tutulur?

Bu cür cinayətlərin milli və beynəlxalq səviyyədə müxtəlif cəza sistemləri ilə bağlı müxtəlif tərifləri mövcuddur. İkinci Dünya Müharibəsindən sonra bu cinayətlər beynəlxalq müstəvidə Nürnberq və Tokioda müttəfiqlər tərəfindən yaradılmış beynəlxalq hərbi tribunalların Nizamnamələrində, 1949-cu il Cenevrə Konvensiyalarında və 1977-ci həmçinin 1993 və 1994-cü illərdə düzəliş edilmiş Əlavə Protokollarında aydın şəkildə təsvir edilmişdir .

Beynəlxalq məhkəmə orqanı tərəfindən cəzalandırılmalı olan cinayətlərin ən əhatəli siyahısı 1998-ci ildə qəbul edilmiş və 2002-ci il iyulun 1-də qüvvəyə minmiş Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Statutunda öz əksini tapmışdır. O, milli və beynəlxalq səviyyədə cinayətlərin təriflərinin uyğunlaşdırılmasında aparıcı rol oynayır. 2013-cü ilin aprelinə olan məlumata görə, 122 dövlət BCM-nin Roma Statutunu ratifikasiya etmişdir.

Bu cinayətlərə görə cəzasız qalmaq mümkün deyildir. Bunun üçün qanunvericilikdə onlar üçün iddia müddətinin yoxluğunəzərdə tutulmuşdur. Bu o deməkdir ki, onların məhkəmədə mühakimə olunması üçün heç bir müddət yoxdur və cinayət təqibi istənilən vaxt, hətta cinayətlər törədildikdən uzun illər keçdikdən sonra da ola bilər.

İddia müddətinin tətbiq edilməməsi isə cəzasızlıq sayılır.

Əlbəttə ki, Qarabağımızda yerli azərbaycanlıların başına olmazın müsibətlərini gətirən bu iblis nökərləri həmişə cəzasız qalacaqlarını düşünürmüşlər. Amma, beynəlxalq hüquq başqa cür düşünür və bu səbəbdən indi qondarma respublikanın bütün goreşənləri indi Azərbaycan türmələrində öz acı sonluqlarını gözləməkdədirlər.

Sülh əleyhinə cinayətlər, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər müxtəlif ölkələrin cinayət məcəllələrində kifayət qədər müxtəlif adlar altında və müxtəlif məzmunda nəzərdə tutulmuş və müəyyən edilmişdir. BCM-in Roma Nizamnaməsi cinayətlərin milli və beynəlxalq təriflərini uyğunlaşdırmağa imkan verdi. Bu cür cinayətlərin milli mühakimə yolu ilə cəzalandırılması çox vaxt riskli bir cəhd olduğu sübut edilmişdir. Həqiqətən də, bu cinayətlər ən çox münaqişə zamanı, çox vaxt milli orduların və hökumət rəsmilərinin iştirakı ilə törədilir. Ölkənin milli məhkəmə sistemi tez-tez müstəqillik, qərəzsizlik və işi məhkəməyə vermək üçün lazım olan resurslardan məhrumdur. Hər bir ölkənin silahlı qüvvələrinin hərbi nizam-intizam məcəllələri hərbi nizamnamələri pozan davranışların cəzalandırılması mexanizmlərini nəzərdə tutur. Cəza ilə bağlı qərarlar hər bir ölkənin mülki məhkəmələri və ya hərbi tribunalları tərəfindən qəbul edilir ki, bu da orduda nizam-intizamın qorunmasına kömək edir, məsələn, komandanlığın əmrlərini yerinə yetirir. Lakin bu cür mexanizmlər ən yüksək vəzifəli siyasi və hərbi məmurların məsuliyyətə cəlb olunmasına imkan vermir.

1949-cu il Cenevrə Konvensiyaları milli ədliyyə sistemlərinin bu cür cinayətlər üzərində yurisdiksiyasını genişləndirir, hətta başqa ölkədə törədilsə belə, universal yurisdiksiya prinsipini müəyyən edir. Bu prinsipəəsasən,

dövlətin təqsirləndirilən şəxslə, qurbanla və ya törədilmiş əməllərlə heç bir əlaqəsi olmasa belə, bütün dövlətlər ağır cinayətlər, xüsusilə də hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törədənləri təqib etməyi və mühakimə etməyi öhdələrinə götürürlər.

Universal yurisdiksiyada nəticə etibarilə, hərbi cinayətlərin və bəşəriyyətə qarşı cinayətlərin cəzalandırılması praktikada beynəlxalq məhkəmə proseslərinə vəəməkdaşlığa, habelə beynəlxalq cinayət tribunallarının işinəəsaslanır..

Bu səbəbdən tək ermənilərin “Qarabağ klanı” deyil, həmçinin rəsmi İrəvan dünyada hərbi cinayətkar və terrorçu ölkə kimi tanınmalıdır.Baş verən məsələləri aydın dəyərləndirməyi bacaran dövlət başçımız cənab İlham Əliyev Azərbaycan xalqına hər zaman açıq mesaj verir ki, biz necə bir düşmənlə üz-üzə olduğumuzu unutmamalıyıq. Bu baxımdan da hər bir inkişaf ssenarisinə hazır olaraq, "dəmir yumruğumuzu" bərk saxlamalı, lazım olan məqamda düşmənin başına endirməliyik.
Müharibədən çıxmış ölkə olmağımıza baxmayaraq, işğaldan azad olunmuş torpaqlarımızı öz hesabımıza, daxili resurslarımızla dirçəldir, soydaşlarımızı qısa zaman çərçivəsində öz doğma yurd-yuvalarına yerləşdirmək istiqamətindəəməli addımlar atırıq. Düşmən isə mənfur xislətindən əl çəkmir, hətta özünə xeyir və fayda gətirəcək əməkdaşlıq platformalarına maksimum mane olmağa çalışır. Sözsüz ki, Ermənistanın illər ərzində cəzasızlıq sindromundan rəvac alması indi də davam edir. Azərbaycan tərəfi şəhid verir, regional layihələrin icrası gecikir, sülh müqaviləsini isə sabotaj etməklə məşğul olunur.

Qarabağda erməni silahlı qüvvələri 30 ildən çox bir vaxtda Azərbaycanın mülki əhalisinin tələfatına səbəb olduğu üçün rəsmi İrəvan, eyni zamanda, terrorçu ölkə kimi də tanınmalıdır.

Beynəlxalq hüquqda dövlətlər və xalqlara təcavüz və ya onlar əleyhinə müharibəni planlaşdırmaq,hazırlamaq, başlamaq və ya aparmaq bəşəriyyət əleyhinə cinayətlər sırasına aiddir.

İşğal olunmuş ərazinin mülki əhalisini öldürmək, işgəncə vermək və ya əsarət altına almaq və ya başqa məqsədlərlə hərbi əsirləri və ya şəxsləri öldürmək, onlara işgəncə vermək, girovların öldürülməsi, ictimai və ya şəxsi əmlakın qarət edilməsi, şəhərlərin və ya kəndlərin mənasız şəkildə dağıdılması, hərbi zərurətləəsaslandırılmayan dağıntılarmüharibə cinayətləridir .

Bəşəriyyətə qarşı cinayətlər, yəni müharibədən əvvəl və ya müharibə zamanı hər hansı mülki əhaliyə qarşı törədilmiş qətl, məhv, əsarət, sürgün və digər qeyri-insani hərəkətlər, yaxud siyasi, irqi və ya dini zəmində təqib və ya cəzalandırılan hər hansı cinayətləəlaqədar olaraq, hərəkətlərin törədildiyi ölkənin daxili qanunvericiliyinin pozulması olub-olmamasından asılı olmayaraq, hərbi cinayətlər sayılır.

Bütün bunların Vitali Balasanyan başda olmaqla Qarabağı 30 ildən çox bir vaxtda əsarət altında saxlamış bütün işğalçı ermənilərə aidiyyatı vardır. Şəhər və kəndlərimizi yer üzündən silmiş, yüz minlərlə insanı qaçqın salmış, öldürmüş, girov götürərək əzab vermiş bu cinayətkara heç insan deməyə adamın dili gəlmir.

Vitali Balasanyan Natiq Qasımovu tanıdığını boynuna alsaydı, onu necə işgəncələrə məruz qoyduğunu bildirsəyidi, sonluğu necə olardı? Əlbəttə ki, o cinayətkar, həm də qatı cinayətkardır.



***Şəkildə: Qarabağ qatili Araik Arutyunyan, Ruben Vardanyan və digərləri Azərbaycanın Dövlər Təhlükəsizlik Xidmətinin işçiləri tərəfindən həbs edildi. Onları qarşıda ağır cəza gözləyir.***



Beynəlxalq cinayət məcəlləsində qəsdən adam öldürmə, işgəncə və qeyri-insani rəftar, qəsdən ağır iztirab və ya ağır bədən xəsarəti və ya sağlamlığa zərər vurma, hərbi zərurətdən irəli gəlməyən əmlakın qanunsuz və külli miqdarda məhv edilməsi və mənimsənilməsi, hərbi əsir və ya müdafiə olunan digər şəxsi qəsdən ədalətli və normal məhkəmə araşdırması hüququndan məhrum etmə, qanunsuz deportasiya və ya köçürmə və ya qanunsuz həbs, girov götürmək... Balasanyan və onun murdar komandası bu cinayətlərin hansını törətməyib?

1990-cı illərdə hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən mülki əhaliyə və ya ayrı-ayrı mülki şəxslərə qarşı qəsdən hücumlar edən, müdafiə olunmayan şəhərlərə, kəndlərə, yaşayış məntəqələrinə, hərbi hədəf olmayan binalara bütün hərbi vasitələrdən istifadə etməklə hücum edərək dağıdan Vitali Balasanyanlar Azərbaycan xalqına hansı bədbəxtliklər gətirdiklərinin fərqində deyillər. Onlar faşizm ideologiyasının əsarəti altında olan quldur birləşmələrinin başçıları olmuşlar və cəzalarını da mütləq alacaqlar.

Silahı yerə qoyaraq və ya müdafiə vasitələrinə malik olmayan, qeyd-şərtsiz təslim olmuş döyüşçünün öldürülməsi və ya yaralanması hərbi cinayətdir. Yayılmış məlumatlarda Natiq Qasımovun Vitali Balasanyan tərəfindən diri-diri yandırıldığı, erməni döyüşçüsünün Natiq Qasımov haqqında çıkilən filmin rejissoruna dediyi digər məlumatda isə onun “doğrandığı” bildirilir.

Bu gün bütün dünyaya bəllidir ki, erməni vandalları Qarabağda bizim kənd və şəhərlərimizi viran qoymuşlar. Cənab Prezident İlham Əliyevin dediyi kimi, “Buradan sanki barbar tayfaları keçmişdir”. Dünya ictimaiyyəti Ağdam və Fizuli şəhərlərini “İkinci Xirosimo” adlandırırlar.

Erməni silahlı birləşmələri hərbi hədəf olmasa da, din, təhsil, incəsənət, elm və ya xeyriyyə məqsədləri üçün nəzərdə tutulmuş binaları, tarixi abidələri, xəstəxanaları və xəstələrin və yaralıların cəmləşdiyi yerləri qəsdən hədəfə alış, viran qoymuşlar.



***Şəkildə: V.Balasanyanın Natiq Qasımovun dindirilməsində şəxsən iştirak etdiyini təsdiqləyən fotolardan biri.1992-ci il.***

Əsirlərə qarşı amansızlığı ilə seçilən düşmənlər hərbi əsirlərə və yerli əhaliyə qarşı qeyri-insani rəftarı, insan ləyaqətinin ayaq altına atılması, xüsusən təhqir və ləyaqəti alçaldan rəftarı ilə seçildilər. Bütün bunlar dağıdılmış şəhər və kəndlərin acısından daha pis, daha dəhşətlidir. Bu səbəbdən, Vitali Balasanyan çox keçməz ki, qatı cinayətkar kimi məhkəmə qarşısına gətiriləcək və dünyada mövcud olan hərbi qanunlar əsasında ən ağır cəzaya layiq görüləcəkdir.

O gün uzaqda deyil.

Vitali Balasanyan niyə şəkildə özünü danırdı?

Çünki, bu etirafın onu acı sonluğa gətirəcəyini bilirdi. Lakin bu etiraf olmadan belə dünya onu qatı hərbi cani kimi tanıyır.

# Bayraq adam - Qəhrəmanlığın Natiq Qasımov zirvəsi




Natiq Qasımov haqqında telekanallar bir çox verilişlər hazırlayıb, onun həyatı və döyüş yolu barədə axtarışlar aparıblar.Bu verilişlərə adətən qəhrəmanın böyük qardaşı Nofəl Qasımov dəvət edilmiş, ən qiymətli məlumatlar da ondan alınmışdır.Yaddaqalan verilişlərdən biri də “El” televiziyasının hazırladığı müsahibədir.Hörmətli jurnalist İnqilab Şirinlinin Nofəl Qasımovdan aldığı bu müsahibədə bir çox mətləblərə toxunulmuş, əldə edilən məlumatlar televiziyanın tamaşaçıları ilə efirdən bölüşdürülmüşdür. Biz də onu sizinlə bölüşürük.

-Azərbaycan xalqı, türk dünyası tarixən bəşəriyyətə saysız-hesabsız qəhrəmanlar bəxş edibdir. Və biz xüsusən son dövr tariximizə diqqət yetirsək görərik ki, son dövrdə, xüsusilə də müstəqillik qazandığımız dövrdən sonrakı mərhələdə də Azərbaycanın xeyli sayda qəhrəman övladı əsl vətən fədailəri kimi adlarını tarixə yazdırıblar. Onların bir qismi əbədiyyətə qovuşub, amma onlar sözün həqiqi mənasında Azərbaycanın

tarixinin çox önəmli bir şərəf səhifəsində öz adlarını həkk etdiriblər. Eyni zamanda ondan sonrakı nəsillər də məhz həmin qəhrəmanlardan nümunə götürməli və həmin qəhrəmanların həyat yolundan, onların keçdiyi döyüş yolundan bir məktəb, bir örnək kimi yararlanmalıdır.

Hər kəsə bəllidir ki, 1988-ci ildən başlayan Azərbaycana qarşı ərazi iddiaları, separatçı meyllərinin artması radikal erməni birləşmələrinin Qarabağda törətdikləri cinayətlər və bir-birinin ardınca Azərbaycana qarşı həyata keçirilən soyqırım aktları bu tariximizin bir mərhələsini özündə əks etdirir. Təbii ki, Ermənistana dəstək verən bir sıra ölkələr, xüsusən də SSRİ-nin qalığı kimi o zamankı Rusiya Azərbaycan ərazilərinin işğal olunmasında, eyni zamanda bizim işğal edilmiş ərazimizdə xeyli sayda qətliamların, bəşəri cinayətlərin törədilməsində bilavasitə ermənilərə dəstək göstərdilər. Təbii ki, ermənilər Qarabağda apardıqları hərbi əməliyyatlar işğalçılıq siyasəti zamanı təkcə Rusiyadan deyil, həmçinin Livandan,Suriyadan, Fransadan, bir sıra ölkələrdən də dəstək aldılar. Eyni zamanda fars molla rejimi həmin dövrdə ermənilərin dəyirmanına su tökdü. Bu və ya digər formada Azərbaycanın müstəqilliyinə yönəlmiş çox ciddi təxribatçı əməllər törədildi. Sonuncu etibarı ilə 1993-cü ilin sonuna qədər Azərbaycan ərazilərinin 20 faizi erməni hərbi birləşmələri tərəfindən işğal olundu. Bu işğal prosesi zamanı birinci Qarabağ savaşı dönəmində Azərbaycanın 20 mindən artıq qəhrəman övladı şəhidlik zirvəsinə ucaldı. Təbii ki, o dövrün mövcud siyasi şərtlərindən irəli gələrək Azərbaycanda birləşmiş ordunun, vahid komandanlığın olmaması Qarabağda gedən döyüşlərdə bizim bir sıra məğlubiyyətlərimizlə yadda qaldı. Amma bu, müharibənin uduzulması deyildi. Bu, müəyyən mərhələlərdə

döyüşlərdə məğlub olma idi. Amma həmin dövrdə könüllü olaraq Azərbaycanda ordu sıralarına gedən və milli ordununn tərkibində döyüşən xeyli sayda vətənpərvər qəhrəman oğullar oldu. Onlar öz qanları, öz canları ilə tarix yazdılar. Hətta deyərdim ki, 44 günlük savaşda qazandığımız qələbənin əslində bünövrəsini məhz həmin qəhrəmanlar qoymuşdular. Onların başladığı haqq savaşı 44 günlük savaşda bizim qəhrəman vətən oğulları davam etdirdi və təbii ki, biz son antiterror əməliyyatı ilə də bu qələbəmizi tam şəkildə təmin etməyi bacardıq. Bəli, ərazi bütövlüyümüzü də, suverenliyimizi də bərpa etdik.

Bu dəfə haqqında danışacağımız şəxs də öz adını Azərbaycan tarixinə, türk dünyasının tarixinə öz qanı ilə yazmış bir qəhrəmandır. Artıq Azərbaycanda deyə bilərdim ki, elə bir adam yoxdur ki, onun haqqında məlumatlı olmasın.Söhbət 21 yaşında ermənilərə qarşı sona qədər mübarizə aparan Natiq Qasımovdan gedir. Mən onu Bayraq Adam adlandırardım. Bayrağına, vətəninə olan sevgisi ilə düşmənin əlində ola-ola o, Azərbaycan bayrağını əlində, çiynində gəzdirdi. O, vətənə necə bağlı olduğunu, Azərbaycan bayrağını necə qoruduğunu bütün dünyaya nümayiş etdirdi. Həmin dövrdə Natiqi lentə alan rus və italyan jurnalistlər onun qəhrəmanlığı haqqında, onun bir insan obrazı, xarakter olaraq möhtəşəm xüsusiyyətləri haqdada öz yazılarında qeyd etdilər. Elə indi təqdim edəcəyimiz insan da qəhrəman vətən övladının, Natiq Qasımovun qardaşı Nofəl Qasımovdur.

İstərdik Natiq Qasımovun həyatı haqqında qısa bir bilgi verəsiniz və daha sonra Natiq Qasımovun keçdiyi döyüş yolu, onun Xocalıda ermənilərə qarşı göstərdiyi xüsusi şücaət və

eyni zamanda son dövrdə Natiq Qasımov adı ətrafında cərəyan edən hadisələrə diqqət yetirəcəyik.

-Mən, Qasımov Nofəl Səlim oğlu Natiq Qasımovun böyük qardaşıyam. Biz ailədə 4 uşaq olmuşuq. 4 uşaq arasında ən böyük mən olmuşam, məndən sonra iki bacım, son beşiyimiz isə Natiq olub. Natiq elə uşaqlıqdan çox qıvraq, qoçaq uşaq olub. Dəcəl olsa da, hər işinə görə hiss edirdik ki, qoçaqlıq var onda. Biz bir müddətdən sonra Mingəçevir şəhərinə köçdük, Natiq burada 4 saylı orta məktəbə getdi. 8-ci sinifdən sonra 38 saylı texniki peşə məktəbində təhsil aldı. 1989-cu ildə Natiqi hərbi xidmətə çağırdılar. Rusiya Federasiyasında Krasnoyarsk vilayətində daxili qoşunlara düşdü. Hərbi hissə komandanlığı tərəfindən bizə Natiqə görə Fəxri Fərmanlar, təşəkkür məktubları göndərilirdi.Yazılırdı ki, yaxşı atıcılıq qabiliyyətinə malikdir, nümunəvi əsgərdir.

1991-ci ildə Natiq hərbi xidmətini başa vurub vətənə gəldi. Az bir müddətdən sonra, təqribən bir neçə gündən sonra çıxıb getdi Qarabağa. Ona qədər də hər dəfə məktubunda Azərbaycanda gedən proseslər haqqında, Qarabağda gedən döyüşlər haqqında çox maraqlanırdı. 1991-ci ilin oktyabr ayında evə gəldi. Bir-iki gündən sonra müharibəyə getdi. Sonra biz maraqlanıb öyrəndik ki, Ağdam istiqamətində "Qarabağ şahinləri" batalyonunda vuruşub. O vaxt hərbi hissələrin nömrələri yox idi. Həmin dövrdə Mingəçevirin də iki batalyonu var idi,"M-1" və "M-2". Elə bir dəstə də Ağdamda "Qarabağ şahinləri" idi. Natiq də beləcə gedib bu tabora çıxmışdı. Uzun müddət döyüşdü, fevral ayının əvvələrində Natiq bir neçə günlük evə qayıtdı. Bir müddət dincəlib yenidən qayıtmalı olduğunu dedi. Həmin ərəfədə də Xocalı soyqırımı baş verdi. Xocalı soyqırımı xəbərini eşidəndən sonra Natiq

ikinci dəfə Qarabağa getdi və ondan sonra Natiqdən heç bir məlumatımız olmadı. Həmin vaxtı o evə silahlı gəlmişdi. Qarabağda döyüşənlərin hamısı onda silahla gəzirdi, çünki bu silahları təhvil verməyə yer də yox idi. Mart ayının 12-də bizə xəbər gəldi ki, Natiq döyüşlərdə itkin düşüb. Atamla mən getdim Ağdama, həmin o "Qarabağ şahinləri" taboruna, hərbi hissəyə, Natiqin taleyi haqqında onun komandirindən məlumat öyrəndik. Qatır Məmməd ləqəbli Yaqub Rzayevlə danışdıq, maraqlandıq, dedi bəli, belə bir şey olub orda, sadəcə onların sayları az olduğuna görə düşmən qüvvələri onları üstələyib.
ƏslindəXocalının Pirlər kəndində yüksəklikdəki həmin alban kilsəsində 6 yox, 8 döyüşçü olub.

Zəngilan rayonundanNatiqin döyüş yoldaşlarından biri olan Ümid müəllimlə telefon əlaqəsi saxladıq, o dedi ki, həmin ərəfədə Natiqgil kilsəni almaq üçün bir dəstə yığılıb getdilər. Yaqub Rzayevin taborunun Pirlər kəndində bir bölüyü yerləşirmiş. Həmin kilsədən həmişə bunları vururmuşlar. Hətta Ağdama atılan toplar və raketlər də həmin kilsə istiqamətindən atılırmış. Bunlar da fikirləşiblər ki, 8 nəfərlə biz gedib oranı alarıq. Həmin dəstə bir postun yanından keçəndə, Ümid müəllimin dediyinə görə, onların birini snayperlə vurublar. Snayperlə vurulan o əsgər şəhid olub. Həmin şəhidimizi orda gizlədiblər ki, gedək, qayıdanda götürərik. Həmin bu 7 nəfər həmin yüksəkliyə yuxarı qalxıblar və özləri də bilmədən böyük sayda düşmənlə qarşı-qarşıya gəliblər və uzun müddət orda döyüşlər gedib. Orda döyüşlər günlərlə davam edib. Natiqin 6 yoldaşı həmin döyüşlərdə şəhid olub.

Həmin vaxtı Natiqi silahı yerə qoymağa çalışan, onu girov götürməkistəyən düşmənlər Cəfər müəllimdən yararlanmağa çalışıblar.

Qeyd:-Cəfər müəllim deyilən şəxs Xocalı rayon sakinidir və həmin ərəfədə ermənilər tərəfindən əsir götürülmüşdü. Kilsədə günlərlə gedən döyüşlər zamanı ermənilər orada xeyli sayda azərbaycanlı döyüşçünün olduğunu düşünürmüş.Girov saxladıqları Cəfər müəllimi ora göndəriblər ki, kilsədə döyüşən azərbaycanlı döyüşçüləri silahı yerə qoymağa və təslim olmağa razı sala bilsin.

Onu da qeyd edək ki, Cəfər müəllim köçkünçülük dövründə Mingəçevirdəki avarçılıq  bazasında məskən salmışdı və əslində Natiqin həmin döyüşlərdə göstərdiyi şücaət haqqında əsas bilgilər də Cəfər müəllimin dilindən səsləndirilib. O, həmin hadisələrin canlı şahididir və həmin kilsəyə daxil olanda orada çoxlu sayda azərbaycanlı yox, gənc əsgər Natiq Qasımovu görmüşdü. 5 gün ac-susuz ermənilərə qarşı döyüşən və həmin yüksəklidəki kilsəni ermənilərə vermək istəməyən Natiq ona müraciət edən Cəfər müəllimə - Mənim komandirimin əmri var və mən onun əmrini icra etməliyəm-demişdi.

Nofəl Qasımov Cəfər müəllimin Natiq Qasımovla bağlı xatirələrini belə davam etdirir:

-Cəfər müəllim danışırdı ki, orada 23 nəfər əsirlikdə idi. Bunları Xankəndindəmilis şöbəsinin tədricxanasında saxlayırmışlar. Deyirdi, ermənilər hər gün bizlərdən birini aparırdı, işgəncələr verirdi, döyüb gətirirdilər. Bir gün də gəlib məni apardılar. Fikirləşdim ki, yəqin məni də döyüb işgəncə verəcəklər. Amma gördüm məni başqa yerə aparırlar. “BMP” deyilən  hərbi maşına mindirib dağ yamacına doğru getdik. Gördüm orda bir tikili var. Orda ermənilər mənə dedilərki, burada sizin böyük bir dəstəniz var, kilsənin içindədirlər. Neçə gündür onlar bizə müqavimət göstərir, həmin kilsəni ala

bilmirik. Sən gedib onlara deyərsən ki, təslim olsunlar. Əks təqdirdə, səni, yəni Cəfər müəllimi, bir də qalan o 22 nəfəri güllələyəcəyik.Deməli, bunu Natiqə çatdıranda o da öz aləmində belə fikirləşib ki, axı o Mincəçevirdən xocalıların qisasını almağa gəlmişdi, Natiq istəməzdi ki, bu boyda haqq-hesabdan sonra  ona görə xocalıları güllələsinlər. Natiq bildirir ki, özümə iki güllə saxlamışam, ya döyüşüb şəhid olmalıyam, ya da əsir düşməmək üçün özümü güllə ilə vurmalıyam, başqa çıxış yolum yoxdur.

Natiq orda Cəfər müəllimə bildirib ki, istəmirəm xocalılar ölsünlər, ona görə də mən kilsədən çıxıram. Avtomatındakı iki gülləni havaya buraxıb, bir qırağa tulladı.

Cəfər müəllim deyirdi ki, mən kilsəyə girəndə yerdə o qədər avtomat gilizləri var idi ki...O, gecə kilsədən çıxaraq gündüz öldürdüyü ermənilərin silahlarını götürürmüş. Hətta ermənilərdən biri filmdə etiraf edirdi ki, Natiq çox qoçaq, mərd, cəsur oğlan idi. Deyirdi, biz ona qumabara atırdıq, o isə qaytarıb həmin qumbaranı geriyə bizə tullayırdı. Biz ona kimyəvi qumbaralar, “şaşka”lar atırdıq ki, boğulub kilsədən çıxsın, sonralar baxdıq ki, o təmiz hava almaq üçün özünə yer tapıbmış, hətta Natiq kilsənin içində özünə səngər də qazıbmış.Təbii ki, səngəri orda nə ilə qazmaq olardı, orada hansı bir avadanlıq var idi ki, səngər qazılsın. Görünür, əli ilə qazıb səngəri. Son anda bayrağı götürüb, tutduğu mövqeyi tərk edib. İstəməyib ki, Xocalılar qırılsın. Ona görə də təslim olub.

P.S. Çox təsirli epizoddur. Artıq bilir ki, həyatı çox ciddi şəkildə təhlükədədir, ermənilər onu əhv edəsi deyillər, ona insani münasibət sərgiləməyəcəklər. Onun Azərbaycan bayrağını  götürüb terrorçuların düz içinə getməsi həqiqətən də böyük cəsarət tələb edirdi. Həmin gün həmin ərazidə olan

jurnalistlər - Rusiyalı Konstantin Smirnov və İtaliyalı Enriko Sarzini bu hadisəni lentə alıblar və eyni zamanda onların iştirakı ilə görüntü yaratmağa çalışıblar ki, guya ermənilər hərbi əsirlərlə normal davranırlar. Şəkillərdən göründüyü kimi bu gün Azərbaycanın axtarışa verdiyi və yaxın zamanlarda bizim müvafiq qurumlar tərəfindən həbs ediləcək o zamankı səhra komandiri Vitali Balasanyanın başçılığı ilə onlar Natiqi sorğu-sual ediblər.

Təbii ki, Natiqin üzləşdiyi bu situasiya və onun sonrakı taleyi ilə bağlı həmin jurnalistlərin mövqeyi də maraqlıdır. Bəs jurnalistlər Natiqlə bağlı nələri deyiblər?

-Deməli onları - Enriko Sarzinini və “Oqonyok” jurnalının xüsusi müxbiri Konstantin Smirnovu ermənilər dəvət ediblər Qarabağa ki, erməni qəhrəmanlarını vəsf eləsinlər. Gura onlar “torpaqlarını azad etmək” uğrunda qəhrəmancasına vuruşur, döyüşürlər.Hərçənd ki, onlar yazıblar, çəkiblər, amma bunun Natiqin qəhrəmanlığını üzə çıxarmaqda bizə çox köməyi oldu.Ən azı onun itkin düşdüyü üzə çıxdı. Konstantin Smirnovun “Oqonyok” jurnalında yazdığı məqalədə bir hissə var. Orda deyilir ki, “Natiqi öz yoldaşlarının meyitlərinin yanından apardılar. Aşağıda dağların qoynunda isə onun vətəni Azərbaycan görünürdü”.Guya ki, Natiq Qarabağda yox, Ermənistan torpağında döyüşürmüş.

Demək, bunlar ermənilərin “qəhrəmanlığını” aşkara çıxartmaq üçün Qarabağa ezam olunubmuşlar. Onlar ermənilərdən heç bir qəhrəmanlıq görmədilər, özləri də bilmədən Natiqin və onun yanında olan döyüş yoldaşlarının qəhrəmanlığını ortalığa çıxartdılar.Biz buna çox xoş olduq.

Konstantin Smirnov həmçinin deyir ki,o vaxt Vitali Balasanyan ilə birlikdə Robert Koçaryan da Natiqin dindirilməsində iştirak edib. Amma şəkillərdə o yoxdur.
Ola bilsin ki, o rəsmi şəxs olduğu üçün təbii ki, şəkillərə düşməməyə çalışıb.Guya, bu məsələni hərbçilər çözürlər, bu hərbi məsələdir. Bu baxımdan Koçaryan elə bu cür məsələləri kənardan diqtə edən, kənardan bu işlərə nəzarət edən və idarə edən birisi olub.

-Görünür ki, bu cür hadisələr onun və onun kimilərinin əli ilə idarə olunurmuş.- Nofəl Qasımov qüyd edir.-Onların hamısının əli azərbaycanlı qanına batıb. Bu gün bilirik ki, Natiqin ölümündə Vitali Balasanyanın şəxsən əli vardır, çünki, o vaxt mən Allahverdi Bağırov ilə görüşəndə o mənə bildirdi ki, mən Vitali Balasanyan ilə görüşdüm, söhbət elədim və o, Natiqin qətlə yetirilməsini bu formada nəql elədi ki, onu diri-diri yandırmışıq.

-Bu qaniçən cəlladı bütün dünya tanımalıdır. O əli minlərlə azərbaycanlının qanına batan şəxsdir.İndi bizim xüsusi xidmət orqanlarımız bu şəxslə bağlı araşdırmalarını davam etdirir, yəqin ki, yaxın vaxtlarda da bunu da Araikin və onun kimi digər cinayətkarların aqibəti gözləyəcək və o, mütləq qanun qarşısında cavab verəcəkdir. Azərbaycanda fəaliyyət göstərən əsir və itkin düşmüş şəxslərlə bağlı dövlət komissiyasının yaydığı məlumatda bildirilir ki, son araşdırmalar göstərir ki, məhz Natiq Qasımov bilavasitə Vitali Balasanyanın rəhbərliyi altında ağır işgəncələr ilə öldürülüb. Onun Əsgəran ətrafında dəfn olunduğu bildirilir. Təbii ki, bizim hərbçilərimiz, bizim müvafiq dövlət qurumlarımız həmin ərazilərdə araşdırmalar aparırlar. Yəqin ki, yenə də kütləvi məzarlıqlar ortaya çıxacaqdır. 2020-ci ildə qazandığımız zəfərdən sonrakı

dönəmdə bir çox ərazilərdə kütləvi məzarlıqlar aşkar olundu. Bunlar I Qarabağ müharibəsində həlak olan, ermənilər tərəfindən qətlə yetirilən əsgərlərimizin, hərbçlərimizin qəbirləridir. Hal-hazırda dövlət qurumları tərəfindən müəyyən tədbirlər görülür, cəsədlərdən nümunələr götürülür, labarator analizlər aparılır. O zaman itkin düşmüş insanlarla bağlı məsələlərin araşdırılması və onların şəxsiyyətinin təyin olunması üçün ciddi addımlar atılır.

Təbii ki, ermənilər Natiq kimi qəhrəmanı sağ saxlamazdı. Erməni məkrini, erməni xislətini bilən hər bir azərbaycanlı təbii ki, birinci növbədə fikirləşir ki, ermənilər belə qəhrəmanları sağ saxlamazdı, qorumazdı. Onlar bizim uşaqlarımızı, yaşlı insanlarımızı öldürüblər, o ki, qala ermənilərə qan udduran, ermənilərə qarşı kişi kimi vuruşan, cəsarət nümayiş etdirən, Azərbaycan bayrağını özündən, qanından çox sevən bir adamı diri saxlasınlar.

-Bilirsiniz, Natiqin sağ olmasına belə bir ümid yeri də vardır. Bir dəfə mən Qızıl Xaç Cəmiyyətinə müraciət etmişdim, orda Cenevrədən gəlmiş bir qadın vardı, dedi, mən inanmıram ki, onlar Natiqi qətlə yetirələr.

Mənim üçün çox maraqlı oldu. Sual verdim - niyə? Dedi- ermənilər nə qədər qəddar millətdisə, bir o qədər də hiyləgər xalqdır.Çünki, ermənilər bunun mətbuata düşməyini bilirdilər. Bilirdilər ki, nə vaxtsa Azərbaycan xalqı bunu onlardan tələb edəcək. Ona görə də inanmıram ki, ermənilər onu öldürsünlər.

Bu, Qızıl Xaç Cəmiyyətinin nümayəndəsinin mənə verdiyi cavabdır. Amma, özümüzdə elə bir ümid çırağımız var ki, nə vaxtsa onun diri olduğu xəbəri gələr. Ola bilər ki, o hələ də sağdır, başqa nə edə bilərik ki. Hətta qəbiri belə yoxdu. O vaxt Allahverdi Bağırov bildirdi ki, Vitali Balasanyanın dediyinə

görə onu diri-diri yandırıblar.Amma, “Oğul” filmində erməni əsgəri özü etiraf edir ki, ermənilər onu doğrayıblar.

Görünürki, Dövlət Komissiyasının işçiləri axtarışlar aparırlar.

-Ola bilsin ki, bu məsələ ilə bağlı hansısa məlumatlar əldə edilmişdir və zamanında ictimaiyyətə açıqlamalar veriləcəkdir.

-Bəli, məndən də DNK analizi götürürblər. İndi mən hal-hazırda öz fikirimi demək istəyirəm, onun kütləvi məzarlıqda tapılmasına inanmıram. Çünki kütləvi şəkildə qırılan insanlarımızı kütləvi məzarlıqda dəfn ediblər. Natiq 6 döyüş yoldaşı həlak olandan sonra tək əsir götürülüb. Həmin xocalıların heç biri də qətlə yetirilməyib, çünki, onların hamısı dəyişdirilib. Mart ayının 14-də həmin adamlar Qarağacı qəbiristanlığında dəyişdiriliblər. Əgər Natiqi yandırıblarsa, ya doğrayıblarsa, bunu tək ediblər.Əlbəttə ki, dövlət bu məsələ ətrafında işləyir, axtarır. Mən də istəyirəm ki, Natiq tapılsın, ən azından sağ tapılsın. Qəbiri tapılsaydı, biz də onun nəşini Şəhidlər Xiyabanında qardaşlarımızın yanında dəfn edərdik və onun qəbirini ziyarət etməyə də imkanımız olardı.

-Natiq Qasımov öz xalqına, öz millətinə, öz torpağına, öz dövlətinə, öz bayrağına o dərəcədə canı-dillə bağlı olub ki, onun haqqında bu günədək olan bütün məlumatlar bu gün də bunu təsdiq edir, bunun əyani sübutudur. İstər Cəfər müəllimin xatirələrində, istər jurnalistlərin Natiq haqqında söylədiklərində ortada olan fotolar, sənədlər, mənfur ermənilərin özlərinin etirafları Natiqin həqiqətən də çox böyük qəhrəmanlığından xəbər verir. Bəli, o 5 gün təkbaşına ermənilərə qarşı mübarizə aparan, onlarla, bəlkə də yüzlərlə erməni qətlə yetirən, Xocalıları son damla qanına kimi qoruyan bir qəhrəmandır. Onun qəhrəmanlığının, keçdiyi döyüş yolunun bizə hələ məlum olmayan tərəfləri var. Hesab edirəm ki, bu gün Natiq

Qasımovla bağlı Azərbaycan cəmiyyətində və Azərbaycan mediasında yayılan məlumatlar və bu məlumatların şaxələnməsi Natiq Qasımov haqqında başqa faktları da ortaya çıxaracaq.
İstərdim bir məqama da diqqət yetirim. Hörmətli millət vəkili Sahib Alıyev Milli Məclisdə çox gözəl bir fikir səsləndirdi:- Natiq Qasımov öz layiqli qiymətini almalıdı. Azərbaycan dövləti hər zaman öz qəhrəmanlarını qiymətləndirib və onlara layiq zirvəyə qaldırmağı bacarıbdır. Biz də burdan Natiq Qasımov haqqındakı bilgilərə, onun haqqında səsləndirilən faktlara istinad edərək, bir daha müraciət edirik - Natiq Qasımov Azərbaycanın Milli Qəhrəmanı olmalıdı.Bu, Azərbaycan cəmiyyətinin,Azərbaycan insanlarının istəklərindən biridir. Natiq Qasımova göstərdiyi misilsiz qəhrəmanlığa görə mütləq Azərbaycanın Milli Qəhrəmanı adı verilməlidir!Hesab edirik ki, bununla bağlı ortaya çıxan faktlar, təkzibedilməz və real faktlardı.Gəlin razılaşaq ki, I Qarabağ savaşı dövründə sıradan bir fəaliyyəti olan şəxslər Milli Qəhrəman adı ilə təltif olundular. Bu fikiri demək bir az çətindir, amma Surət Hüseynov kimi bir adama Milli Qəhrəman adı verilibsə...
Əsl qəhrəmanlara Milli Qəhrəman adı verilməlidir. Vətən fədailərinə, Vətən uğrunda canını, qanını əsirgəməyən insanlara Milli Qəhrəman adı verilməlidi. Və Natiq Qasımov da bu adı əməli ilə qazanan insanlardan, vətən oğullarından biridir.

-Bəs siz necə düşünürsünüz, Natiq Qasımovla bağlı həmin hadisələrin şahidi olan o jurnalistlər səsləndiridiyi fikirlərdə nə dərəcədə səmimi oldular? Aradan 30 ildən artıq xeyli bir müddət keçib, bu, bir igidin ömrüdür. Onların etirafları nə

dərəcədə səmimidir? Olabilərmi ki, onlar Natiqlə bağlı hansısa həqiqətləri də gizlətsinlər?
-Ola bilər, onlar nəyisə gizlədə bilərlər. Çünki, həmin o Enriko Sarzini və ondan qabaqlarda xaricdən gələnlərdən əvvəl Elçin Musaoğlu da bir film çəkmişdi-Natiq Qasımov-2016. O da yutubda var. Həmin filmdə Enriko Sarzinini də, Konstantin Smirnovu da danışdırıblar. Yəni Elçin müəllim onların danışığında şəxsən özü iştirak edib. Gediblər İtaliyaya, həmin adamı tapıblar. Konstantin Smirnovun o vaxt bizə verdiyi məlumata görə Enriko Sarzini Natiqin çoxlu sayda şəklini çəkibmiş. Ancaq biz uzun müddət Enriko Sarzinini tapa bilmədik. Konstantin Smirnovu tapdıq, əmim oğlu Moskvada yaşayırdı, ona zəng edib müraciət elədim. O, "Oqonyok" jurnalının redaksiyasını axtarıb tapdı. Smirnov ona bildirib ki, Sarzini çoxlu şəkillər çəkib, amma, özü ilə İtaliyaya aparıb. Elçin müəllim Natiqin bir neçə şəkillərini gətirdi və sonra o da bir film çəkdi. Amma onun filmi "Oğul" filmi kimi alınmadı. Çünki xaricilər Ermənistana da getdi, Qarabağa da gedib ətraflı bir film ortaya qoydu. Onlar üçün hər yerdə yaşıl işıq vardı. Bizimkilər isə oralara gedib ətraflı məlumat ala bilmirdilər.
Olsun ki, onlar çox şeylər bilirlər, bəlkə də bizim jurnalistlərə, yaxud xarici jurnalistlərə nə isə deyiblər, amma o haqda mənim heç bir məlumatım yoxdur. Mənə ancaq onu deyirdilər ki, belə bir oğul olub, ermənilərlə təkbaşına döyüşüb.
Sarzini ilə bir dəfə tərcüməçi vasitəsilə bir telefon danışığım olub. O deyirdi ki, mən çox müharibə bölgələrində olmuşam, çox döyüş səhnələrinin şahidi olmuşam, lakin belə bir oğul təsəvvür edə bilmirdim.5 gün ac-susuz qalıb, bu qamətlə əlində bayraq düşmən üstünə gedəsən. Deyirdi, onun üstünə hücuma keçmək istədilər, onu döymək istədilər, ona işgəncə vermək

istədilər, gördüm ki, onlar hərdən “jurnalist, jurnalist” sözü də işlədirlər, hiss elədim ki, onlar öz dilində bir-birinə “burda mətbuat işçisi var, ona toxunmaq olmaz”-deyirlər. Yəqin ki, mən orda idim deyə ona toxunmadılar. Amma, bilirdim ki, mən çıxıb gedəndən sonra aydındır ki, orda nələr baş verəcəkdi.

Amma, qəhrəman haqqında onun qəlbində allah bilir nə sirrlər var idi, demədi. Cəfər müəllim də çox şey bilirdi, gizlətdi, açmadı, demədi. Nə bilim, belə...

-Nofəl müəllim, bütün  hallarda bu gün Natiq adı, Natiq obrazı Azərbaycan gəncliyinin, Azərbaycanın formalaşmaqda olan gənc nəslinin şüurunda artıq  özünə yer tapıbdır. Bu gün Azərbaycan cəmiyyətində Natiq Qasımov qəhrəman kimi sözün əsl mənasında yüksək zirvədə dayanan vətən oğullarından biridir. Düşünürəm ki, Natiq Qasımov haqqında araşdırmaları olan həmin xarici jurnalistlərlə davamlı olaraq söhbətlər aparmaq lazımdır və biz bu günədək bizə məlum olmayan digər faktları da əldə etməliyik.

**Məzarları olmayan qəhrəmanlarımızın əziz xatirəsinə... Ruhunuz şad olsun!**




Vətən qaladır. Bu qalanı ucalıq mərtəbəsində tutan, sal qaya kimi düşmənin qarşısını kəsən oğullardır. Biri-birinə arxa-dayaq olan bu qayaların ürəkləri Vətən sevgisiylə, Vətən eşqi ilə döyünüb. Onlar Vətənimizin işıqlı sabahları, aydın səmaları üçün döyüşüb, Vətən üçün can əsirgəməyib, şəhadətləri ilə ölümü ucaldıb ölümsüzlüyə, əbədiyyətə qovuşublar.
Şərait qəhrəmanlar yaradır, qəhrəmanlar isə tarix.
Gözəl deyilib!
Mingəçevir şəhərindəki Şəhidlər Xiyabanında itkin düşənlərin rəmzi məzarlarından qəhrəmanlar şəkillərdən bizə boylanır. Hər birinin üzündə nur var.
Onlar bizə şəkillərdən çox söz deyir: - Biz sağıq! Biz qəlblərdə yaşayırıq!

## Adsız Qəhrəmanlar

Tariximizi yaradan adsız qəhrəmanlar da var. Onların ruhu qarşısında baş əyirik!

Natiq Qasımov ilə həmin alban kilsəsində müdafiə mövqeyi tutmuş 6 qəhrəmanın adı hələ də naməlum olaraq qalır. Ümid edirik ki, bir gün gələcək, bu qəhrəmanların adları da xalqımıza bəlli olacaqdır. Onda bizlər obu qəhrəmanların məzarına hər gün tər çiçəklər düzəcək, onların xatirəsini qəlbimizdə əbədi daşıyacağıq.

Bu gün şəndir xəstəxana, baxışlarda bir sevinc var,
Ağrısını unutmuşdur bir anlığa yaralılar.
Dalğalanır tarın səsi -
Qarabağın şikəstəsi.

Bizim yalçın qayalardan xəbər verir xəstələrə...
Dumanlı dağ, sulu dərə.
Axar çaylar, göy çəmənlər yada düşür yenə bir-bir,
Ağır gündə xoş xatirə insan üçün təsəllidir...

Rəqqasə də kəklik kimi süzüb gedir çəmənliyə,
Hər könüldən bir səs gəlir: “Ölməmişəm, sağam!” - deyə. –
“Gözlə məni, nişanlı qız, taleyimin hökmü budur!”
Bizim qızlar öz andını, öz eşqini gec unudur.

“Gözlə məni, zaman gələr görüşərik ilk baharda
İpək telli çiçəklərin sayrışdığı çəmənzarda.
Yenə ayaq  izlərimiz qoşa qalar, gözəl nigar!
Qoynumdakı güllü yaylıq - sən verdiyin son yadigar.

Eşqimizin uğurunda boyanmışdır öz qanıma,
Bu bir qanlı səhifədir mənim həyat dastanıma".
Bu xəyalla bir çoxunun gözlərindən ümid yağır
Çoxları da bu həsrətlə nəfəs alır ağır-ağır...
Son baharın şöləsini pəncərədən günəş yayır,
Ölən ölür, qalan qalır, saydığını zaman sayır...
Nəğmə uçur, əl çalınır, gözlər gülür səadətlə,
Həyat eşqi qayıq kimi pəncələşir fəlakətlə!

- Çalın! Çalın! Ana yurdun havasını biz uduruq,
Çəkdiyimiz ağrıları, zillətləri unuduruq...
Bir ağız da, bir nəfəs də danışdırın sarı simi,
Belə bir gün ələ düşməz, dayanmayın qonaq kimi

Çalğı çalır, sonra şair sinəsindən sözlər deyir,
Hər məclisə yaraşıqdır gözəl kəlam, gözəl şeir.
Lakin orda... bir bucaqda ayrıca bir çarpayı var,
Pərişan bir asimandır! Nə ulduzu, nə ayı var.
Orda yatan bir günəşin göz qapağı qaralmışdır,
Nə səsi var, nə səmiri, son nəfəsi daralmışdır...

Kamançanın, tarın səsi,
Ana yurdun xoş nəfəsi
Artıq ona yad kimidir! Mən duyuram bu möhnəti,
Son baharın sərt küləyi qamçılayır təbiəti.-
-Din, qardaşım, adın nədir?
Bəlkə bizə bir sözün var?
Xeyr! Gecdir bu suallar!..
0 hər şeyə biganədir.
0 duymayır, eşitməyir dostlarmın fəryadını,

Heç olmasa, şairə də söyləməyir öz adını.
Ayın, günün camalına baxmayacaq o bir daha,
Baxmayacaq gülər üzlü, ipək telli xoş sabaha.
İnsan ömrü şirin olur, o ayrıldı bu nemətdən.
0, dünyada kam almadı uğurlu bir məhəbbətdən.
Vaxtsız ölüm, vaxtsız ölüm, gedər-gəlməz bir yolun var!
Baxıb sənə lənət deyir həyat üçün yaranmışlar.
Sənin qanlı qılıncınla bu dünyadan canlar gedir.
Mən duyuram bu möhnəti, ürəyimdən qanlar gedir.
Sən ey, gözü yol üstündə boynu buruq duran pəri!
Sədəf kimi sayma, quzum, gəlib keçən bu günləri.

Boğulmasın titrək səsin,
Saçlarına dən düşməsin.
O bir daha gəlməyəcək!
O səninlə gəzib qoşa,
İndən belə dağa, daşa
Ayaq basa bilməyəcək!

Siz ey, Odlar ölkəsinin adsız ölən ərənləri!
İnsan oğlu bu aləmə göz açdığı gündən bəri
Azadlığın məşəlinə qurban olmuş pərvanə tək...
Lakin ellər baş endirir qəhrəmanlar güzarına!
Adsız ölən igidlərin o pərişan məzaına
Çiçək səpir qucaq-qucaq, gül dağıdır ətək-ətək.
Siz ey, vətən torpağının vaxtsız ölən övladları!
Ey ağ saçlı bir millətin baş şöhrəti, dünya varı!

Alqış deyir tarix sizə!

Bu şerim də yollar  açsın,
Günəş kimi şəfəq saçsın
O müqəddəs qəbrinizə!

Bu misralarda nə qədər məna, nə qədər dərin hikmət vardır. Düşünürəm ki, xalqımızın böyük, ölməz şairinin qələmə aldığı bu şeir minlərlə insanların düşüncələrinə hakim kəsilibdir. Bu misralar uzaq 1990-cı illərdən qat-qat əvvəllər yazılsa da, itkin düşmüş əsgərlərə, adsız məzarlarda uyuyan qəhrəmanlara həsr olunmuşdur.

Həmin illərdə Vətənin ağır günlərində onun çağırışına səs verən Azərbaycan oğulları işğal altında olan torpaqlarımızın müdafiəsinə qalxdılar. Onlar öz xalqına olan sədaqəti bu dəfə azğın düşmənlə qanlı mübarizədə, döyüş meydanlarındaəllərində silah sübut etdilər.

Minlərlə vətən oğlu bu müharibədən qayıtmadı. Minlərlə ailədə gözlər oğul, əmi, dayı... dalınca hələ də boylanmaqdadır. Həsrət dolu baxışlar hələ də yollardadır. İnsanlar onların bir daha geri qayıtmayacağına heç cür inanmaq istəmirlər. İnanırlar ki, bir gün gələcək, həmin oğullar üzlərində təbəssüm, gözlərində qələbədən doğan sevinc parıltısı ilə doğma evin qapısını açıb, doğmalarını bərk-bərk qucaqlayacaqdır.

Bu müharibədə neçə-neçə sevənlərin də gözü yollarda qaldı. Onlar bir vaxtlar özlərinin qisməti hesab etdikləri bu igidləri döyüşlərə yola saldılar, onların sağ-salamat evə qayıdacaqlarına böyük inamla yaşadılar. Bu inam indi də sönməyib. İnam sonda ölür. - deyirlər. Bu sözlərdə böyük məna gizlənib. Nə qədər ki, insan nəfəs alır, inam da yaşayır!

## Natiq Qasımovun sevdiyi qızın taleyi

Boğulmasın titrək səsin,
Saçlarına dən düşməsin.
O bir daha gəlməyəcək!
O səninlə gəzib qoşa,
İndən belə dağa, daşa
Ayaq basa bilməyəcək!...

Xoş, eyni zamanda ciddi xasiyyəti, ağır təbiəti, sədaqəti ilə həmişə seçilən, yüksək mental və mənəvi dəyərləri özündə daşıyan Azərbaycan xanımı!Sənin qarşında baş əyirik!

Hər bir gənc oğlan kimi Natiqin də sevdiyi, gələcək həyatını qurmaq istədiyi bir yarı olub. Natiqin yolunu illərlə gözləyən, əsl Azərbaycan qadınına layiq davranan qadının kimliyini yalnız Natiqin ailə üzvləri bilir.

-Qız istəyirdi, o qız da son vaxta kimi ailə qurmadı, onu gözlədi ki, Natiq tapılar...-Nofəl Qasımov deyir.

Əslən Tovuz rayonundan idi, sadəcə atamgilin yaşadığı binada yaşayırdı. Uşaqlıqda bir yerdə böyümüşdülər. Bir sinifdə oxumurdular, qız ondan bir neçə yaş balacaydı, ancaq bir məktəbdə oxuyurdular.

O qız son vaxtlara kimi ailə qurmadı, ərə getmədi, Natiqi gözlədi. Natiqin xatirə bulağının yanında oturacaqlar, skameykalar qoyublar, həmişə gəlib o bulağın yanında oturur, oturur, axşam da gedirdi.Yəni son vaxtlar elə görmüşdüm. O, ailə qurmadı, Natiqi gözlədi.-Qardaşı Nofəl Qasımov müsahibələrin birində bildirmişdi.

## Hələ də sağ qalıb, qalmadığı bilinməyən Natiq Qasımov

Qələbəsevincini yaşadığımız bir zamanda əsas hədəflərimizdən biri də illərlə ölüsündən-dirisindən xəbərsiz olduğumuz qəhrəmanlarımızın taleyindən xəbərdar olmaqdır. Ümid edir, inanırıq ki, ailəsi və Azərbaycan xalqı Natiq və onun kimi taleyi naməlum olan qəhrəmanların sonrakı aqibətindən xəbərdar olacaqdır.

Jurnalistin Natiq Qasımov haqqında qardaşı Nofəldən aldığı videomüsahibədə xalqımızın bütün qeyrətli insanlarını düşündürən bir məsələyə toxunulmuşdu. Bəlkə də kədər içində bu müsahibəni izləyən bütün insanlar Natiqin sağ olduğu xəbəri ilə üzləşəcəyi ümidilə bu müsahibəni izləmiş, şad xəbər alacaqları ilə qarşılaşacaqlarını düşünmüşdülər.

..Biz də istəyirik ki, Natiq ən azından sağ tapılsın. Bəlkə də allahın qisməti olar, sağ olar, hərçənd ermənilər bu vaxta kimi onu sağ buraxmazdılar.Ailə üzvlərimizin arzusu budur ki, onun nəşi tapılsın, ən azı bir yerdə şəhidlər xiyabanında onu dəfn edək və biz də digər şəhid ailələri kimi tez-tez onu ziyarət edə bilək, ona quran oxutduraq, onun məzarı üstünə gül qoyaq! - qəhrəmanın qardaşı Nofəl Qasımov onda jurnalistə bildirmişdi. Bütün müsahibələrində demək olar ki, eyni arzularını dilə gətirirdi Nofəl qardaşımız. Əgər sağ olsaydı!... Bu, həm də bütün Azərbaycan xalqının arzusu idi.

-İndi Natiqin Şəhidlər Xiyabanında şəkili var. Hələ bu 30 ildə onun üstünə bir dəfə də olsun, gül qoymamışam. Çünki, əlim gəlmir. Mən bilmirəm axı, o dünyasını dəyişib, ya yox. Sadəcə, şaiyələrdən nəsə eşidirəm. O vaxt Allahverdi Bağırov dedi ki, Mən Vitali Balasanyan ilə görüşdüm, dedi ki, biz Natiqi diri-diri yandırmışıq.

Bəli, Allahverdi Bağırov bunu şəxsən mənim özümə demişdi. Mən ondan qardaşımın tapılmasını xahiş etmişdim. O vaxt

həlak olan döyüşçülərin nəşinin alınmasında, əsirlərin dəyişdirilməsində Allahverdi Bağırovun böyük rolu olub. Onlar əlaqə saxlayırdılar Vitali Balasanyan ilə, orda ermənilər Xocalıda çoxlu adamlar qırmışdı, şəhid etmişdi, gedib onların nəşini gətirirdi, sağ olanları və yaralıları dəyişdirirdi.

Bir dəfə Allahverdi Bağırov mənə dedi ki, Xocalıda ölənlərin 40 nəfərinin nəşini gətirmişəm məscidə, gedin ora. Sənin qardaşının meyidi də orda ola bilər.Atam və Gədəbəydən gəlmiş əmim oğlu da ordaydı, insanları tanımaq olmurdu, o dərəcədə onlara vəhşiliklə işgəncələr verilmişdi.Üzlərinin dərisini soymuşdular, qulaqlarını kəsmişdilər, gözlərini çıxartmışdılar...Elə bir vəziyyətdə idilər ki, yaxınları belə onların cənazələrini tanımaqda əziyyət çəkirdilər.

Natiq əsgərlikdə sinəsinə “Ana” sözünü yazdırmışdı, fikirləşdim ki, o ana sözü ilə onu axtarıb taparam. Bir meyidə yaxınlaşıb yoxladım...Onun da gözlərini çıxartmışdılar, bədəni yanmışdı, pis gündə idi. Çox axtardım meyidlərin içində, tapa bilmədim... Əmim oğlu da gəlib baxdı, baxdı, bildik ki, o deyil. Atama heç nə demədik. Bildirdim ki, səhv saldım, baxdım. Görünür kim idisə, xocalılardan idi...Həmin o 40 nəfər meyidin içində Natiq yox idi.

Qardaşım kimi demirəm, amma o hər şeyə qiymət qoyan idi, hər şeyin yerini bilən idi. Qonşular da Natiqin itkin düşdüyünə o qədər yandılar ki...O qədər çəkilişlər aparıblar, onların heç birinin Natiq haqqında keçmiş zamanda danışmağa qamətləri çatmadı.Yəni, belə bir oğul itkin düşdü, hayıf oldu getdi.- deyə qardaşı Hofəl göz yaşlarını silir.

## Qəhrəmanlar unudulmur!




Qəhrəman Natiq Qasımov haqqında çəkilən “Oğul” sənədli filmi ölkəmizdə ən yüksək formada nümayiş etdirilməkdədir.

Oktyabrın 18-də Nizami Kino Mərkəzində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi, “LİBRAFF” Kitab Mağazalar Şəbəkəsinin və “TEAS Press” Nəşriyyat Evinin təşkilati dəstəyi ilə Böyük Britaniyanın “Broken Pot Media” şirkətinin istehsalı olan “Oğul” sənədli filminin nümayişi keçirildi.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, rəsmi şəxslər, tanınmış sənət adamları və digər qonaqlar iştirak ediblər.

Üç il ərzindəərsəyə gətirilən “Oğul” sənədli filmi Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən əsir götürülən azərbaycanlı hərbçi Natiq Qasımov haqqındadır.



***Şəkildə: Nizami Kino Mərkəzində "Oğul" filminin nümayişi təqdim olundu.***



***Şəkildə:Leyla Əliyeva Natiq Qasımovun doğmaları ilə birlikdə.***



Onu da qeyd edək ki, Mingəçevir şəhərində də bu film artıq neçə illərdir ki, rəsmi dövlət qurumlarında, idarə və təşkilatlarda,təhsil ocaqlarında nümayiş olunmaqdadır.
2022-ci ilin mart ayının 14-də Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalı olan "Oğul" sənədli filminin təqdimatı keçirilmişdir. Birinci Qarabağ Müharibəsi qəhrəmanı Natiq Səlim oğlu Qasımov haqqında çəkilmiş bu film qəhrəman ilə
qürur hissi keçirən bütün izləyiciləri kövrəltmişdi.
Həmin gün Natiq Qasımovun ailə üzvlərinin, şəhid ailələri nümayəndələrinin, birinci və ikinci Qarabağ müharibəsinin qazilərinin və veteranlarının, media təmsilçilərinin iştirak etdiyi tədbiri açan Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi təklif etdi. Şəhər rəhbəri bildirdi ki, hələ iyirminci əsrin sonlarında torpaqlarımıza olan erməni təcavüzü zamanı xalqımızın vətənpərvər övladları yurd yerlərimizi

qorumaq üçün qəhrəmanlıqla mübarizə aparıblar. Erməni vandallarının törətdikləri qətliamlara, soyqırımlara, vəhşiliklərə dözə bilməyən qəhrəmanlarımız vətən yolunda canlarından keçiblər, həlak olublar. Düşmənin işğalçılıq əməliyyatlarının qarşısını almaq məqsədi ilə Ulu Öndər Heydər Əliyevin səyi ilə atəşkəs əldə edilsə də, düşmən öz separatçılıq əməlindən qalmırdı. 2016-cı ilin aprel döyüşlərində qazanılan qələbədən sonra da düşmən hər gün sərhəd bölgələrimizi atəşə tutur, hətta mülki insanları, uşaqları belə qətlə yetirirdi. Bu təxribatlara dözə bilməyən Azərbaycan Ordusunun cəsur əsgər və zabitləri 2020-ci ilin sonlarında dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı azad edərək dünya dövlətlərinə Azərbaycanın qüdrətini, gücünü göstərdilər.

Biz bu gün bura 90-cı illərdə Xocalıda düşmənin törətdiyi qətliama dözə bilməyərək təkbaşına qəhrəmanlıq göstərən, vandalları lərzəyə salan qəhrəman Natiq Qasımov haqqında çəkilən filmin təqdimatına toplaşmışıq. Hər iki müharibədə mingəçevirli oğullar da fədakarlıqla iştirak ediblər.Şəhidlərimiz haqqında şəhərimizdə nəşr olunan kitablar sırasında 2021-ci ildə Mingəçevir şəhər İcra Hakimiyyətinin layihə rəhbərliyi və təşəbbüsü, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Mingəçevir Şöbəsinin dəstəyi, "Mingəçevir" qəzetinin əməkdaşlarının yaradıcılığı ilə"Əbədiyyətə qovuşanlar" kitabında hər iki müharibədə həlak olan şəhidlərimizin həyat hekayəsindən bəhs olunub. Qeyd edim ki, bu son deyil, qəhrəman şəhidlərimiz haqqında bundan sonra da filmlər çəkiləcək, kitablar nəşr olunacaq, şeirlər, hekayələr yazılacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Sonra şəhid ailələrini müdafiə cəmiyyətinin sədri İranə Həsənova, Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ictimai birliyinin şəhər şöbəsinin sədri Əlağa Bəndəliyev, şəhid Natiq Qasımovun qardaşı Nofəl Qasımov çıxış edərək şəhidlərimizin xatirəsinin hər zaman əziz tutulduğunu, göstərilən dövlət qayğısından danışaraq şəhidlərimizin hər birinin əbədiyaşar olduğunu bildirdilər.
Qeyd edək ki, Natiq Qasımov 1971-ci il yanvar ayının 2-də Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. Mingəçevir şəhərinə köçdükdən sonra 4 saylı orta və 39 sayı texniki-peşə məktəblərində təhsil alıb. 1989-91-ci illərdə Rusiyanın Krasnoyarsk vilayətində müddətli həqiqi hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurub doğma vətənə qayıtdıqdan sonra, 1992-ci il mart ayının 2-də könüllü olaraq Milli Ordu sıralarına qoşulan Natiq Səlim oğlu "Qarabağ Şahinləri" dəstəsinin tərkibində cəbhə bölgələrinə yollanıb. Əsgəranın, Xanabadın, Xramortun düşmən işğalından qorunması uğrunda gedən döyüşlərdə yaxından iştirak edib, şücaətlər göstərib. Erməni vandallarına qarşı mərdliklə vuruşub.5 gün ərzində təkbaşına döyüşən Natiqin sonrakı taleyi məlum deyil.
Sonra filmin təqdimatı oldu. Birinci Qarabağ müharibəsindən bəhs edən bu filimdə mingəçevirli hərbi əsir Natiq Qasımovdan bəhs edilir. Film, 1992-ci ildə Xocalıda törədilən qətliamda düşmənin əsl mahiyyətini üzə çıxardı.

Ermənilər törətdikləri hadisələrə görə üzr istəmək haqqında düşünmürlər. Biz bu faciəni bütün dünyaya çatdırmalıyıq. Filmin rejissoru və ssenari müəllifi Karan Sinq üç il ərzindəErmənistan, Azərbaycan, İtaliya, Böyük Britaniya və Rusiyada şahidlərlə söhbət edib. Natiq Qasımov erməni

zabitləri tərəfindən dindirilən zaman italyan fotoqraf Enriko Sarsini də orada olub. Filmdə fotoqrafın müsahibəsi də yer alır.

Qırx altı dəqiqəlik filmin görüntü rejissoru Simon Stanforddur.

Film həqiqətən də möhtəşəm idi, tamaşaçılar filmi izləyərkən göz yaşlarını saxlaya bilmirdilər, qəhrəmanla qürur duyur, onun acı taleyinə yanırdılar. Sonralar verdikləri müsahibələrdə filmin onların qəlbində necə incə hisslər oyatdığını dəfələrlə ifadə etmişdilər.

Qəhrəmanlar və qəhrəmanlıq mövzusu insanları həmişə düşündürən, maraq dairəsi ilə bütün insanları ağuşuna alan bir mövzudur. Nə qədər oxusaq da, nə qədər filmlərə baxsaq da onların əməlləri həmişə insanlarda unudulmaz bir duyğular yaradır.

İnsanlar qəhrəmanların taleyinə heç vaxt biganə yanaşmır, onlar gözünü yummadın soyuq səngərlərdə vətənin keşiyində duran, qəhrəmanlıq simvolu olan bu oğulları məhəbbətlə anırlar. Natiq Qasımov haqqında çəkilən bu film insanlara qəhrəmanların məhz necə olduğunu xatırlatmaqdadır.

Bu gün torpaqlarımızın azadlığı və bütövlüyü uğurunda canından keçmiş vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi, onların həyatının və keçdiyi şərəfli döyüş yolunun insanlara daha yaxından tanıdılması məqsədilə dövlət sifarişi ilə silsilə sənədli filmlərin istehsalına başlanılıb. Dövlətimizin dəstəyi ilə qəhrəmanlar haqqında filmlərin çəkilməsi sahəsində görülən müvafiq işlər təqdirə və alqışa layiq bir haldır.

Bu filmlər gələcək nəsillərin təlim-tərbiyəsində böyük rol oynayacaq, qəhrəmanları onlara yaxından tanıdacaqdır.



***Şəkildə: Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov filmin təqdimatında çıxış edərkən.***



***Şəkildə: Natiq Qasımovu kilsədən çıxmağı təklif edən Cəfər Cəfərov.***



*Şəkildə: Natiq Qasımovun anası Dursun ana.*



*Şəkildə: Filmdə döyüş səhnələri canlandırılan kadrlar.*



***Şəkildə:Filmdə döyüş səhnələri canlandırılan kadrlar.***



***Şəkildə:Natiq Qasımovun qardaşı Nofəl Qasımov filmin təqdimatı zamanı çıxış edərkən.***



2023-cü il fevralın 23-də Mingəçevir Dövlət Universitetində də Xocalı soyqırımının otuz birinci ildönümü münasibətilə “Oğul” sənədli filminə baxış keçirilib.

Böyük Britaniyanın “Broken Pot Media” şirkətinin istehsalı olan filmin nümayişində universitetin bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantları iştirak ediblər.

Nümayişdən əvvəl, MDU-nun rektoru Şahin Bayramov giriş sözü ilə çıxış edərək Qarabağ həqiqətlərinin, xalqımıza qarşı törədilən soyqırımı cinayətlərinin və mənfur düşmənlərimizin əsl simasının dünyaya çatdırılması, eləcə də vətənpərvərliyin təbliği baxımından filmin önəmini diqqətə çatdırıb. Bu istiqamətdə gənc nəslin maarifləndirilməsinin vacibliyinii vurğulayan rektor filmin ərsəyə gəlməsindəəməyi olanlara təşəkkürünü bildirib.

Sonra, film nümayiş etdirilib.

Sənədli film izləyicilər tərəfindən maraqla qarşılanıb.

# Natiq Qasımov xatirələrdə və yaddaşlarda



Bu gün qəhrəman Natiq Qasımov insanların düşüncələrində, xatirələrdə yaşayır. Onun adı xalqımızın yaddaşına əbədi həkk olunub. Bu gün o, yaxınları və doğmaları, yaşıdları, əsgər yoldaşlarının düşüncələrini oxşayır. Onunla bağlı xatirələr çoxdur. Hər birini qələmə almaq olardı. İnanıram ki, onların hər birinin özünəməxsus xatirələri, bu xatirələrdə çoxlu sayda maraqlı, yaddaqalan, ibrətamiz hekayətlər var. Yaşıdları onun çox qoçaq, doğmaları qeyrətli bir vətən oğlu, dostları və müəllimləri onun vətənpərvər bir oğul olduğunu söyləyərdilər.

Vaxt olacaq onu adını yaşatmaq üçün əsərlər yazılacaq, ona mahnılar bəstələnəcəkdir. Günümüzdə onun qəhrəmanlıq salnaməsi milli mətbuatımızın ön səhifələrindədir. Hamı onun sonrakı taleyi barədə düşünür, bu taleyin xoş sonluqla bitməsini arzulayırlar. Biz də istərdik. Amma onun itkin düşdüyü bu on illər ərzində nələrin baş verdiyini, onun başına nələrin gəldiyini düşünmək belə dəhşətlidir. Bizə yalnız ümid etmək qalır.

Şəhidlərdən söz düşəndə həmişə biz əsgərlərmizə olan inamı, güvənci xüsusilə qeyd edirik. Onlar torpaqlarımızı işğaldan azad edəcək - deyirdik. Bu gün igid əsgərlərimizin sayəsində bu yenilməz arzumuza yetişmişik. Bilirik ki, verdiyimiz şəhidlər xalqımızın ən qeyrətli oğullarıdır. Onları da məhz belə xatırlayırıq.

Natiq Qasımovu da insanlar öz yaddaşına beləcə həkk edib. Yaxınları və doğmalarıverdləri müsahibələrdə Natiqin hələ uşaq yaşlarından qoçaq olduğunu bəyan edirlər. Təvazökar, sözəbaxan idi, nümunəvi davranışları ilə diqqəti cəlb edirdi. Demək olmazdı ki, dərslərində hamıdan seçilirdi, amma, nümunəvi davranışı, əxlaqı ilə yaşıdları arasında xüsusi yer tuturdu. Müəllimləri indi də gənc Natiqi gözəl rəftarlı bir şagird kimi xatırlayırlar. Onlar gənc Natiqin yüksək keyfiyyətlərini qiymətləndirir, bir vaxtlar yetişdirdikləri bu qəhrəmana olan ümidlərin doğru olduğuna əminliklərini bildirirlər. Bir vaxtlar Natiqi və məktəb yoldaşlarını tarixi qəhrəmanlarımızın timsalında böyüdür, onları bu qəhrəmanlara oxşamağa çağırırdılar. İndi də şagirdlər məhz Natiq kimi qəhrəmanların timsalında böyüdülür. Onların təlim-tərbiyəsində bu qəhrəmanların rolu böyük və əvəzsizdir.

Natiq heç vaxt ədalətsiz iş görməzdi, həmişə dostluqda sədaqəti ilə seçilərdi. Qəhrəmanları hələ uşaqlıqdan yaşıdları arasında seçdirən keyfiyyətlərdir! Bu keyfiyyətlər Xocalının Pirlər kəndindəki həmin alban kilsəsində 7 dostu son damla qanınadək mənfur düşmənlə döyüşməyə, onları düşmən qarşısında əyilməməyə səsləyən hisslərdir!

Onların arasında qorxaq, sağ qalmağa çalışan birisi olmadı. Düşmənə nifrət, Vətənə olan məhəbbət hissi onlarda o qədər

güclü idi ki, ölümü düşmənə təslim olmaqdan üstün tutdular. Və əbədiyyata da birlikdə qovuşdular.

Onun cavanlıq şəkilinə diqqət yetiririk. Məğrur duruş, məğrur baxışlar! Bu baxışlar bir gənci öz ağuşuna alan hissləri ifadə edir. Onun da öz gənclik xəyalları, qarşısına qoyduğu məqsədlər, həyat amalı vardı. O bu məqsədləri yalnız xalqına xidmət etməkdə gördü. Nə yaşadı ki, əsəgəri xidmətini başa vurduqdan cəmi bir neçə həftə sonra vətəninin müdafiəsinə yollandı. İgid əsgər, yenilməz döyüşçü oldu. Ağır döyüşlərdə özünü cəsur bir döyüşçü kimi göstərdi. Ən məsul tapşırıqları yerinə yetirməyə onu və onun kimi cəsur döyüşçüləri göndərirdilər. Yerinə yetirilməsi çətin olan və yaxud mümkün olmayan ən çətin tapşırıqlar məhz onun kimi cəsur oğulların çiyninə düşürdü. Milli Ordu hələ tam formalaşmamışdı, hərtərəfli bacarıqlı əsgərlərə böyük ehtiyac vardı. O, Sovet Ordusunun ən çətin hərbi hissələrinin birində, Daxili Qoşunlarda xidmət etmişdi. Bu qoşun növündə xidmət etmiş birisi kimi burada xidmətin nə qədər çətin olduğunu təcrübədən bilirəm. Çox keçmədi ki, vətənimiz üçün belə bir ağır günlərdə onun əsgər təcrübəsi döyüşlərdə işə yaradı.

Mətbuata verilən müsahibələrin birində onun cəsur və qorxmaz əsgər olduğu döyüş yoldaşlarının birinin dilindən səsləndirilib. Onda fikirləşdim, bu cəsur oğlan döyüş yoldaşlarının yaddaşında belə qalıbsa, o, onların bilmədiyi digər daha çox qəhrəmanlığı da göstərib. Nə qədər kəşviyyata gedib, nə qədər məxfi tapşırıqlar yerinə yetirib, düşmənə nə qədər dağ çəkib, onlara nə qədər itki verib. Hərçənd, erməni döyüşçüsü adlı məxluğa insan deməyə dilimiz gəlmir, amma, Natiqin elə bir döyüşdə ermənilərə verdiyi itki onlarla əsgər olub.



***Şəkildə:Natiq Qasımovun əsgəri xidmətdə olduğu zaman lentə alınan foto.***



***Şəkildə:Natiq Qasımov (sağdan birinci) dostları ilə bir yerdə.***

# Natiq Qasımovun təhsil aldığı doğma məktəbdə vətənpərvərlik tərbiyəsi



Müəllim-şagird münasibətlərinin mərkəzində müəllim dayanır. Xalq özünün ən qiymətli, ən əziz sərvətini - övlad-larını müəllimə etibar edir. Təcrübə göstərir ki, müəllim şəxsiyyətinin şagirdə təsirini heç nə iləəvəz etmək mümkün deyil.

Müəllim öz şagirdlərini sevməlidir.Bu sevgionların arasında qarşılıqlı dostluq və hörmət münasibətlərinin formalaşmasına şərait yaradır. Şəxsiyyətinə hörmət edilən şagird öz ləyaqətini dərk edir, özünün cəmiyyətə, xalqına layiq bir vətəndaş olacağına, həyatda layiqli yer tutacağına inanır. Müəllim şagirdin şəxsiyyətinə hörmət etməklə onun qəlbinə, mənəviyyatına bir sakitlik bəxş edir. Müəllim şagirddə dosta, xalqa, vətənə məhəbbətlə yanaşı, düşmənə nifrət oyatmalıdır. Düşmənə nifrət oyatmaq, vətəninə məhəbbət hissini formalaşdırmaq vətənpərvərlik tərbiyəsinin mühüm tərkib hissəsidir. Natiq Qasımov kimi igidlər də məhz bu məhəbbət ruhunda tərbiyə olunmuşdular. Bu hisslərə istinad etməklə

şagirdləri vətənin müdafiəsinə hər an hazır olmağa hazırlamaq günün tələbidir.

Orta təhsil ocaqlarında hərbi-vətənpərvərlik tərbiyəsi geniş planda başa düşülən və sistemli şəkildə həyata keçirilən məqsədlərdir. Bu məqsədlər gənclərdə yüksək vətənpərvərlik şüurunun, öz Vətəninə səmimi qəlbdən sədaqət hisslərinin, vətəni və dövlətinin müdafiəsi üzrə vətəndaş borcunun yerinə yetirilməsinə hazırlıq işində müəyyən keyfiyyətlərin formalaşdırılmasına xidmət edir.

Bütün bunlar Respublikamızda fəaliyyət göstərən orta təhsil ocaqları qarşısında bir çox təxirəsalınmaz vəzifələr qoyur. Şagirdlərin vətəndaş və vətənpərvər tərbiyəsi ümumtəhsil ocaqlarında aparılan təlim-tərbiyə prosesinin əsas tərkib hissələrindən biri sayılır. Təhsil ocaqları öz gündəlik həyatında şagirdlərdəən vacib əxlaqi-mənəvi keyfiyyətlərin, yüksək məsuliyyət və intizamlılıq vərdişlərinin yaradılması və formalaşdırılması yolunda əzmkarlıqla çalışırlar. Bu istiqamətdə məktəblərdə fəaliyyət göstərən pedaqoji kollekivlərin üzərinə böyük bir yük düşür.

Nəzərdə tutulan məqsədlərə çatmaq üçün orta məktəblər gənc və yeniyetmələrə öz vətənini sevmək, vətəninə və dövlətinə sədaqətlə qulluq etmək və s. kimi əsas hisslərin formalaşdırılmasında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə xüsusi fikir verirlər. Bu yolda müəllim və pedaqoqlar elmi əsaslara söykənən idarəetmə və təşkilatçılıq fəaliyyətinə diqqəti ayırmaqla, hərbi-vətənpərvərlik tərbiyəsinin daha effektli aparılması üçün zəmin yaradırlar. Bu, orta təhsil ocaqlarında bir növ təhsil, təlim-tərbiyə mexanizmidir.
Təlim-tərbiyədə sınaqdan keçmiş, özünü doğrutmuş metod və üsullara söykənən hərbi-vətənpərvərlik tərbiyəsi müasir

cəmiyyətimizdə böyüyən gənc nəslin formalaşdırılması yolunda atılan ən mütərəqqi addımlardan biridir. Çünki bu tərbiyə şagirdlərdə vətənə layiqli xidmət, qanunlara hörmət, məsuliyyət və s. kimi vacib əxlaqi-mənəvi, siyasi, sosial dünyagörüşün formalaşdırılmasında əsas elementlərəəsaslanır.

Müasir şəraitdə dövlətimiz gənclərin bu sahədə layiqli tərbiyəsi naminə nəhəng miqyaslı işlər görür. Atılan bu addımlar müasir şəraitlə uzlaşır və günün əsas tələblərindən biri olaraq qalır.

Mingəçevir şəhər 4 nömrəli tam orta məktəbdə gənclərin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinə böyük diqqət ayrılır. İl ərzində görülən işlərin, təşkil olunan tədbirlərin qayəsi şagirdlərin vətənimizə layiq vətəndaşların yetişdirilməsinə həsr olunur. Məktəbin pedaqoji heyəti bu işlərin görülməsində böyük enerji və zəhmət həsr edir. Bu tədbirlərdə şagirdlər humanizm vəəxlaqilik, çətinlikləri dəf etmək, məsuliyyətli olmaq, kollektivin ümumi işi naminəəzmkarlıq göstərmək, etik qaydalara riayət etmək, qanunlara hörmətlə yanaşmaq kimi keyfiyyətlərə yiyələnir, öz vətənini, xalqını, dövlətini dərindən sevməyi öyrənir, üzərinə düşən vəzifələri layiqincə və vaxtında yerinə yetirmək kimi vərdişlərə yiyələnirlər.

Gənclərin çağırışaqədərki hərbi hazırlığı dərslərində, hərbi-idman və turizm oyunlarının keçirilməsində şagirdlərin əxz etdikləri bilik, vərdiş və bacarıqlar da bu təlim-tərbiyənin effektivliyinin artırılmasına xidmət edir və bu tərbiyəni tamamlayır. Bu, təlim-tərbiyənin digər növləri ilə qırılmaz və sıx əlaqə daşıyır. Hərbi hazırlıq dərsləri şagirdlərə hərbi borc hisslərinin dərindən başa düşülməsinə kömək edir, Azərbaycan Silahlı Qüvvələrinin həyatda rolu və yeri, onun quruluşu, hərbi

and, hərbi nizamnamə və s. barədə onlarda böyük təsəvvür yaradır. Bu dərslər şagirdləri gələcəkdə Milli Ordu sıralarında fəaliyyət zamanı əskəri borcunu layiqincə yerinə yetirməyə hazırlayır, orduda müəyyən olunmuş qayda və normalara düzgün riayət etmək kimi ilkin dünyagörüşü formalaşdır. Bütün bu biliklər bir-biri iləəlaqədədir.

Hərbi-vətənpərvərlik tərbiyəsinin aparılması prosesində bir çox forma və metodlar bu tərbiyənin düzgün aparılmasına istiqamətlənib. Təcrübədə gənclərin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi bütün mərhələlərdə bir sistem şəklində qurulub. Bu tərbiyə Azərbaycan dövlətinin gənc və yeniyetmələrləbağlı yürütdüyü siyasətin əsas isti-qamətlərindən biridir. Bu, Mingəçevir şəhər 4 nömrəli tam orta məktəbin gündəlik pedaqoji həyatında da öz əksini tapmışdır.

Məktəblilərin vətəndaş, vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi mövzusu müasir pedaqoqikada ən aktual mövzulardan biridir. Bu iş orta təhsil ocaqlarında şagirdlərin təlim-tərbiyəsi ilə bağlı işlərdə pedaqoq və müəllimlərin qarşısında böyük vəzifələr qoyur. Aşağı siniflərdən başlayaraq, doğma ölkə və doğma diyar barədəəldə olunan biliklər şagirdin məktəbə qədəm basdığı ilk günlərdən öz ölkəsinin həqiqi vətəndaşı olacaq yüksək əxlaqlı insanların yetişdirilməsinə xidmət etməlidir.

Uşaqlar məktəbə müxtəlif səviyyəli hazırlıq, bilik və bacarıq səviyyəsi ilə qədəm qoyur. Bir qrup uşaqların öz ölkəsi, onun dövləti, gerbi və himni və s. haqda aydın təsəvvürləri ola bilər. Onların bəziləri isə, əksinə, Azərbaycanın dövlət simvolları ilə sinif otağında tanış olur, lazımlı məlumatlara yiyələnirlər. Alınan biliklər sonralar dərslərdə genişləndirilir və onların vətənpərvərlik hissləri günü-gündən möhkəmləndirilir.

Vətənpərvərlik tərbiyəsi aşağı siniflərdən başlayaraq paralel surətdəvə bir çox istiqamətlərdə aparılır. Aparılan məqsədyönlü vətənpərvərlik tərbiyəsi vətənə olan təbii bağlılıq hissləri yaradır. Onun əsasında isə inam vəəqidə yaranır və vətəni qorumağa hər an hazır olan vətənpərvərlər yetişir.

Vətənpərvərlik adı altında hər zaman və hər yerdə vətənə olan sevgi başa düşülür. Bu sevgi doğulduğu və boya-başa çatdığı öz evinə, doğmalarına, yaşadığı şəhərə, kəndə, ölkəyə olan məhəbbətdən başlayır. Əgər uşaqlarda sadalanan bunlar haqda dolğun məlumat yoxdursa, onlarda xalqına, dövlətinə hörmət və fəxarət hissləri yaratmaq mümkün deyildir.

Müəllimlər şagirdlərə bu hissləri aşılayarkən bir nümunə obyekti kimi hansı keyfiyyətlərə malik olmalıdırlar?

Ayındır ki, bu hissləri şagirdlərdə aşılamağa çalışan müəllimlər də bu keyfiyyətlərin daşıyıcıları olmalıdırlar. Vətənpərvərlik hisslərinin aşılanması müəllimin təlim-tərbiyə fəaliyyətinin əsasında durmalı, bu proses uzunmüddətli, məqsədyönlü xarakter daşımalıdır. Müəllim əməyi böyük faktordur. İlk dəfə məktəb partası arxasnda oturmuş uşağın gələcəyin layiqli vətəndaşına çevrilməsi məhz onların tərbiyəçi və müəllim əməyi sayəsində həyata keçirilir. Kiçik yaşlışagirdlər vətənimizin təbiəti, tarixi, mədəniyyəti haqda dolğun məlumatı məhz onlar vasitəsilə alırlar. Vətəndaş-vətənpərvər şüurunun, əxlaqi-mənəvi mövqeyin əsası onlarda məhz müəllimlər tərəfindən formalaşdırılır. İstənilən təhsil ocaqlarında bu tərbiyənin mexanizmi mövcuddur və təlim-tərbiyənin səviyyəsi də bu mexanizmin hansı səviyyədə həyata keçirilməsi ilə ölçülür. Əgər kiçik yaşlı məktəblilərdən tutmuş sonuncu sinif şagirdlərinədək vətənpərvərlik tərbiyəsi bütövlükdə zəif təşkil olunmuşsa, onda bu tərbiyənin effektivliyini təmin etmək çətin

olardı. Yuxarı siniflərdə aparılan hərbi-vətənpərvərlik tərbiyəsi də öz başlanğıcını aşağı siniflərdən götürür və bu iş yuxarı siniflərdə tamamlanmış olur. Deməк, şagirdlərdə vətəndaş mövqeyi aşağı siniflərdə tərbiyə olunur, onlarda vətəndaş-vətənpərvər şüuru formalaşdırılır, vətənin taleyinə biganə olmamaq kimi hisslər inkişaf etdirilir, mentalitetə, milli adət-ənənələrə hörmət hissləri aşılanır. Məqsəd-layiqli vətəndaş yetişdirmək, vətənpərvərlik hisslərinin gücləndirilməsidir.

Vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi sinifdaxili və məktəbdaxili tərbiyəvi işlərlə paralel olaraq aparılır. İlboyu təşkil olunan tədbirlər məzmun və formaca müxtəlif olsa da, eyni məqsədlərə xidmət edir.

Təlim-tərbiyə prosesi bütövlükdə məktəb və ailənin iştirakı ilə birlikdə, sıx və qarşılıqlı əlaqə şəklində həyata keçirilən bir prosesdir. Böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində ailə özünəməxsus və böyük rola malikdir. Və bu tərbiyənin effektivliyi ailənin, uşağın, yeniyetmə və gəncin təlim-tərbiyəsində onun təhsil aldığı məktəblə hansı səviyyədə qarşılıqlı əməkdaşlıq etməsindən çox asılıdır. Ailə öz uşağının təlim-tərbiyəsindəəsas rol oynayan bir faktordur. Çünki, aşağı siniflərdə təhsil alan məktəblilərdə bu hisslərin formalaşması üçün bu, ən əlverişli dövrdür, həmçinin uşaqların bu yaş dövrü əxlaqi normaların mənimsənilməsi üçün də vacib dövr sayılır. Onlarda bu yaşlarda dəyərlərə olan elementar meyl və maraq oyanır, təlim-tərbiyə prosesi isə bunu düzgün səmtə yönəldir, istiqamətləndirir və bu da vətənpərvərlik tərbiyəsinin uğurla aparılmasına şərait yaradır.

Müasir məktəblərdə vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinin daha da təkmilləşdirilməsi üçün çox vacib addımlar atılır. Bu tərbiyənin həyata keçirilməsində boşluqlar

mövcud deyil. Bəzi çətinliklər mövcud olsa da, bunun ümumilikdə bütöv bir sistem şəklini almış ümumi təlim-tərbiyə prosesinə heç bir təsiri olmur. Bu sahədə ölkəmizdə vahid təlim-tərbiyə siyasəti və dövlət strategiyası mövcuddur, bu tərbiyənin nəticələrinin effektivliyinə təsir edəcək elmi-pedaqoji əsaslar işlənilib hazırlanmışdır. Mədəni-tarixi, mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsinin digər komponentləri də bu tərbiyənin tərkib hissələridir.

Müharibə şəraitində yaşayan xalqımız üçün bu tərbiyə öz aktuallığını qoruyub saxlamış və heç vaxt da öz məna və aktuallığını itirməyəcəkdir.

Vətənpərvərlik tərbiyəsi hərbi-vətənpərvərlik tərbiyəsinin əsasını təşkil edir. Bu tərbiyənin qarşısında duran məqsəd və vəzifələr vardır və son nəticəyə orta təhsil ocaqlarında bütöv tərbiyə sisteminin həyata keçirilməsi yolu ilə çatmaq mümkündür. Bu yolla, vətənpərvərlik hissləri dövlətçilik ideologiyası ilə üst-üstə düşdüyü vaxt ən yüksək zirvəyə çatır. Vətənpərvərlik və hərbi-vətənpərvərliktərbiyəsinin səviyyəsi də öz dövlətini var gücü ilə sevmək və onun müdafiəsinə qalxmağa hər an hazır olmaqla ölçülür.

Orta təhsil ocaqlarında təhsil alan şagirdlərdə sosial əhəmiyyətli dəyərlərin, vətənpərvərlik hisslərinin formalaşdırılması, çətin və ekstremal şəraitdə məktəblilərdə düzgün hərəkət etmə, onların gələcəkdə Milli Ordu sıralarında layiqincə xidmət etmək üçün hazırlanması bu təlim-tərbiyə sisteminin tərkib hissələri sayılır. Bu vəzifələrin tədris prosesində uğurla icrası şagirdlərin çağırışaqədərki hazırlığı rəhbərlərinin də birbaşa başlıca vəzifələrindən biridir və bu vəzifələr indiki zamanda bir sıra dövlət orqanlarının, təşkilatların, idarələrin yaxın köməkliyi və dəstəyi ilə daha effektli

şəkildə həyata keçirilir. Bu effektlik qarşıya qoyulan məqsəd və məramların daha düzgün və dəqiqliklə, nizamlı şəkildə həyata keçirilməsinə və demək, şagirdlərdə bir çox müsbət cəhət, vərdiş və bacarıqların formalaşdırılmasına da şərait yaradır. Bu, hərbi hazırlıq müəllimlərinin bu sahədə apardığı işlərə bütövlükdə təsir edir və onun gələcək nəticələrini şərtləndirir. Bu yolla orta məktəblərdə hərbi-vətənpərvərlik işinin effektivliyi, nəinki göstərilən dəstəyin ayrı-ayrı epizodlarından, həmçinin bu prosesə verilən ümumi qiymətdən də asılı olur. Demək, təlim-tərbiyə işinin aparılması və idarə edilməsində yüksək göstəricilərin əldə edilməsi üçün təhsil ocaqları da hər cür şəraitə və bu tərbiyənin lazım qaydada aparılması üçün bütün tələb olunan vasitələrə malik olmalıdır.

Mingəçevir şəhər 4 nömrəli tam orta məktəbdə bu istiqamətdəəsas vəzifələrin icrasına həsr olunan zəhmət və enerji şagirdlərin hərtərəfli, geniş dünyagörüşə malik vətəndaş kimi formalaşdırılmasında böyük rol oynamışdır. Müasir gənclərin düzgün təlim-tərbiyəsi gələcəkdə cəmiyyətimizin bütövlükdə həyatında öz əksini tapacaqdır. Düzgün təlim-tərbiyə almış şagirdlər öz yüksək əxlaqi-mənəvi keyfiyyətləri, fəal vətəndaş mövqeyi, vətənpərvərlik şüuru ilə indi də cəmiyyətimizdə seçilir. Bu keyfiyyətlər Mingəçevir şəhər 4 nömrəli tam orta məktəbin hazırladığı tədbirlərdə şagirdlərin fəallığı, təhsildəəldə etdikləri uğurları ilə daha tez nəzərə çarpır. Bütün bunların böyük tərbiyəvi əhəmiyyəti vardır, onlar gələcəkdə ölkəmizin müdafiə hazırlığının və təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak edəcəklər, vətəninə və dövlətinə sədaqətli vətəndaş olacaqlar, şəxsi həyatda vəcəmiyyətin inkişafında böyük uğurlara imza atacaqlar.

Gənclərdə belə müsbət keyfiyyətlərin aşılanması hansısa dərəcədə vətənimizin gələcək inkişafında öz müsbət sözünü deyəcəkdir. Bu, həm də ona görəəhəmiyyətlidir ki, yüksək vətənpərvərlik hissinə malik gənclərimizin simasında vətənimiz öz inkişaf perspektivlərini uğurla həyata keçirə biləcək vətəndaşlara sahib olacaq, Silahlı Qüvvələrimiz Milli Ordumuzu sevən, onun qaşıya qoyduğu tapşırıqları canla-başla, sözsüz yerinə yetirən, hərbi anda sadiq əsgərlərə malik olacaqdır.

## Vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi görkəmli pedaqoqların dili ilə

Təhsil ocaqlarında şagirdlərin mənəvi-əxlaqi, vətəndaş və vətənpərvər tərbiyəsinin məqsədi onların hərtərəfli şəxsiyyət kimi formalaşması və inkişafını təmin edən müxtəlif formalı, məzmunca eyni istəklərə xidmət edən təlim-tərbiyə işidir.Əgər bu göstəricilər varsa, demək təhsil ocaqlarında ideya-tərbiyəvi iş düzgün qurulmuş, çəkilən zəhmət hədər getməmişdir.

"Qəhrəmanlar necə yetişir" sualına cavab verərkən ilk öncə onların hansı şəraitdə böyüdüyü, təlim-tərbiyə aldığı, formalaşdığı mühiti xəyalən nəzərdən keçirmək lazımdır. Natiq Qasımov kimi qəhrəmanları yetişdirən mühit bizim hamımızın tərbiyə aldığımız, gənc kimi formalaşdığımız, təhsil aldığımız müqəddəs məkan - məktəbdir. Biz həyatda qazandığımız hər şeyəgörə həmdə doğma məktəbimizə, sevimli müəllimlərimizə borcluyuq!

Milli təhsilimizin qarşıya qoyduğu vəzifələr bir çox vacib məsələlərin hərtərəfli həllinin yüksək səviyyədə həyata keçirilməsini nəzərdə tutur. Hər bir Azərbaycan vətəndaşının vətənpərvər vətəndaş kimi böyüməsi naminə mövcud imkanlardan istifadə edilməli və bu yolda hər bir pedaqoq öz işini vicdanla yerinə yetirməlidir.

Bu tərbiyənin effektli həlli,yetişən gənc nəsildə vətəndaş - vətənpərvər baxışlarının formalaşdırılması üçün bütöv bir təhsil sistemi mövcuddur.

Respublikamızın hörmətli və tanınmış pedaqoqları ilə söhbətlərdə qəhrəmanlıq və onları yetişdirən mühit haqqında maraqlı fikirlər vardır.Bu fikirlər həyatımıza mayak kimi işıq saçır.

**Vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi ölkəmiz üçün həmişə aktual məsələ olaraq qalacaqdır.**



Pərvin Kərimzadə, GDU-nun Elm və innovasiyalar üzrə prorektoru, tarix elmləri namizədi, dosent, Millət vəkili:- Vətənpərvərlik ictimai hissdir, vətəninə bağlılıq, ona sədaqət, onun uğrunda hər an özünü qurban verməyə hazır olmaq, xalqına, onun adət-ənənələrinə şüurlu məhəbbətdir. Vətənpərvərlik öz vətəninin nailiyyətləri və mədəniyyəti ilə fəxr etməkdir. Vətənpərvər insan vətənin və öz xalqının mənafeyini daim qorumaq arzusu ilə yaşayır.

Vətənpərvərliyin tarixi mənbəyi əsrlər, minilliklər boyu qurulmuş və doğma torpağa, dilə, adət-ənənələrə bağlılığı formalaşdıran yenilməz hissdir. Bu səbəbdən vətənpərvərlik haqqında ideyalar əsrlər boyu yalnız vətənə məhəbbətlə bağlı olmuşdur.

Vətənpərvər davranış xalqın ümumi mənafeyinə vicdanla, şüurlu şəkildə xidmət etməyi, doğma xalqla ruhən bir olmağı, milli mənafeləri ön plana çıxarmağı və şəxsi mənafeyini bir-birinə zidd qoymadan onlarla birlikdə həll etməyi nəzərdətutur. Vətənpərvərlik insanların şəxsi mənafeyindən daha əhəmiyyətli bir hal olmaqla ümumi mənafeyə xidmət etməkdir.

Vətənpərvərlik həm də kritik vəziyyətlərdə vətənin qorunması naminə cəmiyyəti birliyə çağıran bir hissdir. Məhz bu cür vətənpərvərlik cəmiyyətin və dövlətin vəhdət şəklində maraqlarının ifadəçisi rolunda çıxış edir. Biz buna 44 günlük Vətən müharibəsi dövründə şahid olduq. Vətənimizə və dövlətimizə məhəbbət və sədaqət, vətənpərvərliyin ən yüksək formasıdır!

Şübhəsiz ki, vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi ölkəmiz üçün həmişə aktual məsələ olaraq qalacaqdır. Bu, xalqı və hər bir insanı ölkənin həyatına cavabdeh edən hissdir. Vətənpərvərlik olmasa belə bir məsuliyyət yoxdur. Əgər kimsə öz xalqını düşünmürsə, deməli, onun evi, kökü yoxdur. Və belə bir insan evsiz insanla eynidir. Bu mənada vətənpərvərlik bəşəri hisslərlə uzlaşır.

Hesab edirəm ki, bu gün vətənpərvərlərin əsas vəzifəsi ölkəmizi qorumaq, onu çiçəkləndirmək, onu xoşbəxt gələcəyə aparmaqdır.

Respublikamızda vətənpərvərlik və hərbi - vətənpərvərlik tərbiyəsi sistemi dövlət xarakteri daşıyan bir işdir. Bu tərbiyə təhsilin bütün sahələrində həyata keçirilir. Təhsil sistemimiz vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması yolunda aparıcı qüvvədir və bu işə bütün var gücünü həsr edir. Məktəblilərdə vətənpərvərlik hissinin formalaşdırılması vətənpərvərlik tərbiyəsi üzrə sistem halını almış təlim - tərbiyə prosesi, ictimai-siyasi işlər, milli-mənəvi ruhu özündə daşıyan dövlət bayramları, uşaqların hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşmasında böyük rol oynayan ictimai təşkilatların işi və s. vasitəsilə həyata keçirilir. Bu iş ali təhsil ocaqlarında da davam etdirilərək, özünün pik həddinə çatır. Bu hisslər gənclərimizin damarlarına hopdurulur, onlar vətənimizin

layiqli övladları kimi yetişdirilir. Bu gün Azərbaycanda vətənpərvərlik anlayışı fəal şəkildə populyarlıq qazanmışdır. Əlbəttə ki, bu işdə biz təhsil işçilərin əməyi böyükdür.

Vətənpərvərlik tərbiyəsi dövlət və təhsil siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Bunu son illərdə qəbul edilmiş qanunlar sübut edir.Təhsil sistemində vətənpərvərlik hisslərinin qorunub saxlanılmasını təmin etmək üçün çoxlu sayda proqramlar və digər sənədlər nəzərdə tutulmuşdur. Bu sənəd və proqramlar həm də milli mədəniyyətimizin inkişafı, ölkənin tarixi-mədəni irsinə qayğıkeş münasibətin tərbiyəsi, fərdi hüquq və azadlıqlara hörmət və s. özündə ehtiva edir. Çünki vətənpərvərlik tərbiyəsi həm də dəyərlərə məhəbbət, dövlətimizə, vətənimizin gələcəyinə inam yaratmaq deməkdir. Günümüzdə vətənpərvərlik tərbiyəsi mənəvi vəəxlaqi dəyərlərin əsasının qorunması və inkişafına xidmət etməkdədir.

Bu işdə qəhrəmanlarımız, şəhid və qazilərimiz haqqında yazılan kitablar vəədəbiyyat nümunələri, filmlər də çox böyük rol oynamaqdadır. Onlar xalqımızın qəhrəman oğul və qızlarının həyatı və döyüş yolunu dolğunluğu ilə gənc nəslə çatdıran ən gözəl tərbiyəvi vasitələrdən biri, milli təhsilimizdə mənəvi, idrak və sosial yönümlü yüksək motivasiyalı fəaliyyətin həyata keçirilməsində faydalı üsullardandır. Bu kitablar dövlət maraqlarını və oxucuların mənəvi ehtiyaclarını nəzərə almaqla yazılmalı və geniş oxucu kütləsinə təqdim olunmalıdır. Bu kitablar vətənpərvərlik tərbiyəsinin əsas istiqamətlərini özündə daşıyır və gənc nəslin təlim-tərbiyəsində böyük rol oynamaqdadır.

**Cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidi**r.



Ramil Qasımov, Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Paraolimpiya çempionu, Şöhrət ordenli:- Bütün xalqlarda vətənpərvərlik hər bir insanda olmalı bir hiss kimi başa düşülür və qəbul edilir. Azərbaycan xalqı da öz vətənpərvərliyi ilə seçilir. Biz vətənpərvər kimi böyümüşük, gənclərimizi də əsl vətənpərvər vətəndaş kimi tərbiyə edirik. Bu, biz pedaqoqların tək vəzifə borcu deyildir, həmçinin vətəndaşlıq borcumuzdur. Həm pedaqoq, həm də vətəndaş kimi səmimi qəlbdən gördüyümüz işlərin mükafatı uşaq qəlblərində oyanan vətənpərvərlik hissləridir. Milli dəyərlərin təbliği də bu hisslərin tərbiyə olunmasında əsas rola malikdir və bu dəyərlərin qorunması elə vətənin keşiyində layiqincə durmaq kimi şərəfli bir iş sayılır.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi həmçinin, ümumtəhsil müəssisələrinin ən vacib təlim-tərbiyə proseslərindən biri sayılır. Müasir məktəblər təhsil alanların vətəndaş-vətənpərvər tərbiyəsinin qarşıya qoyduğu həyati vacibli məsələlərin həlli üçün bütün addımları atır. Bu tərbiyə istər tədrisdə, istərsə də, sinifdənxaric və məktəbdənkənar işlər zamanı yüksək çoşğunluqla həyata keçirilir.

Vətənpərvər vətəndaş tərbiyəsi bütün xalqlarda və cəmiyyətlərdəən çox diqqət çəkən bir prosesdir. Bu gün təmsil

etdiyimiz cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidir. Bu, günümüzün əsas tələblərindən biridir.

Yeniyetmə və gənclərin vətənpərvər vətəndaş tərbiyəsi həmişə orta məktəblər qarşısında duran ən vacib işlərdən sayılmışdır. Məktəb aşağı siniflərdən başlayaraq şagirdlərdə bu hissləri formalaşdırır, onlar tədricən öz vətənlərini sevməyi, onun keçmişi və bu günü ilə fəxr etməyi, xalqına hörmət və məhəbbət hissləri bəsləməyi öyrənir, onlarda fəal vətəndaş mövqeyi formalaşdırılır. Bütün bu hisslər şagirdlərə dərslərdə, dərsdənkənar işlərdə və ictimai işlərdə fəaliyyət zamanı aşılanır.

Bu sahə ilə bağlı fəaliyyət bütöv bir sistem şəklindəhəyata keçirilməkdədir.Təhsil ocaqlarında ekskursiyalar, olimpiadalar, ekoloji fəaliyyət, dərnəklər, iməcliklər kimi təlim-tərbiyə formaları, məktəbdəki muzeylər, tematik stendlər, şagird kollektivlərinin təşkili və onlara rəhbəlik, toplantılar, yığıncaqlar, görüşlər, fərdi iş formaları kimi məsləhətləşmə, söhbətlər, tapşırıq və göstərişlərin yerinə yetirilməsi və s. bu sistemin tərkib hissələridir.

Vətənpərvər vətəndaş şüurunun formalaşdırılmasında bir çox müvafiq fəaliyyət formalarının təşkilinə də yer verilir. Bütün bunlar sözsüz ki, bu tərbiyənin səviyyəsinin artırılmasına öz töfhəsini verir.

Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsində idmanın da rolu böyükdür. Hər şeydən əvvəl, idman komandaları tərbiyə sisteminin qarşıya qoyduğu, demək olar ki, bütün vəzifə və tapşırıqları kompleks şəkildə yerinə yetirir. Bu oyunlar öz tərbiyəvi əhəmiyyəti ilə digər tərbiyəvi vasitələr arasında seçilir.

İdmanşagirdlər arasında ən sevimli məşğuliyyət formasıdır. Təcrübədə şagirdlərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsindəşagirdlərin idmana olan həvəsinin, idmanla məşğul olmanınəhəmiyyəti və şagirdlər arasnda populyarlığını hamı bilir.

İdman şagirdlərdə vətənin müdafiəçisi olacaq gələcək əsgərlər üçün lazım olan bir çox keyfiyyətləri formalaşdırır. Bütün bunlara əsaslanaraq deyə bilərik ki, hərbi-vətənpərvərlik tərbiyəsində idman da vacib rol oynamaqdadır. Hərbi-vətənpərvərlik tərbiyəsi vətənpərvərlik tərbiyəsi ilə sıx bağlı olduğundan cəmiyyətimiz bu gün yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsində bu sahədə biz pedaqoqlar qarşısında ciddi vəzifələr qoyur. Bu vəzifələr gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin əhəmiyyətini daha da artırır. Axı Vətənimizin güclü və bacarıqlı müdafiəçilərinin hazırlanması işinə bir çox hallarda həlledici töfhəni məhz bu vəzifələrin düzgün icrası verəcəkdir.

Şagidlər idman dərslərində,idman məktəblərində keçirilən məşqlərdə, eyni zamanda idman oyunlarındaiştirakı ilə hələ Milli Orduya çağırılmazdan əvvəl Vətənin müdafiəçilərinə lazım olan keyfiyyətlərə yiyələnir, dözümlülük, iradə, əzm, qətiyyət, qələbə çalmaq əzmi və s. kimi bir sıra lazımi məlumatları təcrübədə qazanmış olurlar. Bununla birlikdə, hərbi-vətənpərvərlik tərbiyəsi gənclərimizi vacib mənəvi-psixoloji keyfiyyətlərlə silahlandırır. Bu keyfiyyətlər vətənin gələcək müdafiəçiləri kimi, dinc dövrün insanlarına da lazımdır.

Göründüyü kimi, vətənin gələcək müdafiəçilərinin hazırlığı işi biz pedaqoqların qarşısında duran məsuliyyətli və ciddi vəzifələrdəndir. Hər bir müəllim öz sahəsində müasir şagirdlərə

bütün mövcud metod və vasitələrlə vətənpərvərlik hisslərini aşılamalı, onları Azərbaycanın ərazi bütövlüyünü gələcəkdə layiqincə qorumağa, doğma Vətəninə, Dövlətinə, Milli Orduya məhəbbət ruhunda yaşayıb yaratmağa çağırmalıdır.

Biz pedaqoqlar məktəblilərlə hərbi-vətənpərvərlik işini bu istiqamətdə qurur, gənc nəslə təcrübədən keçmiş üsullarla dövlətimizin əbədiliyini və gücünü təlqin edirik. Məktəblərimizdə vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi işi tədris ili boyunca lazımı səviyyədə aparılır və öz müsbət nəticələrini verir. Görülən bütün işlər son nəticələrə - öz vətəninin vətənpərvərləri olacaqyeniyetmə və gənclərin vətəndaş tərbiyəsinə istiqamətlənib.

**Vətəni sevmək - onunla bağlı yaxşı və ali nə varsa, bütün varlığı ilə sevmək deməkdir.**



Asif Həsənov, Gəncə şəhər 2 nömrəli Uşaq - Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Əməkdar Məşqçi, Fəxri Bədən Tərbiyəsi və İdman işçisi, Şahmat üzrə Beynəlxalq Usta, Əməkdar bədən tərbiyəsi və idman xadimi: - Hər bir insan bir ömür yaşayır. Ancaq insanların qəlbində daim yaşamaq hər kəsə qismət olmur. Yaxşı əməlləri ilə seçilən vətən oğulları qəlbimizdə həmişə yer tutub. Şəhid qardaşlarımız, Vətən müharibəsinin qəhrəmanları olan qazilərimiz daim qəlbimizdə

yaşayacaqdır. Natiq Qasımov haqqında mətbuat səhifələrində çox yazılara rast gəlirik. Onun qəhrəmanlığı bütün xalqımızda qürur hissi oyadır. Onun timsalında xalqımız öz igid oğlunu, yenilməz qəhrəmanını sevir.

Öz vətənini sevmək - onunla bağlı yaxşı və ali nə varsa, onu bütün varlığı ilə sevmək deməkdir. Onun mədəniyyətini, şərəfli keçmişini və bu gününü sevmək gəncləri vətənin gələcəyi naminə yaxşı işlər görməyə ruhlandırır. Natiq Qasımov kimi qəhrəmanlarımızın igidliyi və mərdliyi isə gənc nəsli vətənin gələcəkdə layiqli müdafiəçiləri və təmsilçiləri olmağa səsləyir. Bu səbəbdən uşaqlara hələ məktəb yaşlarından qəhrəmanlara və qəhrəmanlığa maraq və onlara məhəbbət hissləri aşılamaq çox vacibdir. Ədəbiyyat nümunələrində də onlar qorxmaz, igid, cəsarətli, iradəli müsbət obrazlardır. Qəhrəmanlıq eyni zamanda uşaqlara təvazökarlığı və zəhmətsevərliyi təşviq edir.

Qəhrəmanlar öz əməllərində vətənə məhəbbət və sevgi ruhunu daşıyır. Ədalət hissi, vətən, torpaq məhəbbəti, onun uğrunda mübarizə aparmaq-bütün bunlar uşaqları xəyalən qəhrəmanlığa səsləyir. Biz böyüklərin borcu isə uşaqlarımızı qəhrəmanların timsalında, onlara layiqli insanlar kimi böyütməkdir.

Təhsil ocaqlarında təlim-tərbiyə prosesi onları bütövlükdə hərtərəfli bilikli bə bacarıqlı vətənpərvər şəxsiyyət kimi formalaşdırılmasını nəzərdə tutur.Bu işlər şagird dünyagörüşünün daha da artırılmasına, onlarda vətənə gələcəkdə layiqli müdafiəçilər olmaq üçün bir çox lazımi vərdişlərin yaradılmasına və s. yönəlib. Tədricən və planlı şəkildə görülən bu işlər uşaqlarda vətənpərvərliyin ilk təməlini yaradır. Axı uşaqlar bizim vətənimizin gələcəyidir. Vətənimizi, onun ən qiymətli sərvəti olan xalqımızı məhz onlar qoruyacaq və müdafiə edəcəklər. Hələlik isə təhsil ocaqları öz təlimverici,

tərbiyəedici funksiyasını yerinə yetirməklə böyüməkdə olan bu gənc nəslin təlim-tərbiyəsinə var gücünü həsr edir.

Vətənpərvərlik tərbiyəsi ayrı-ayrı sahələr üzrə aparılsa da, hər biri özünəməxsus funksiya daşıyır. Bu işin bir neçə fəaliyyət istiqaməti mövcuddur. İstiqamət eynidir-vətənə layiqli oğul və qızlar yetişdirmək. Bu, bizim yetirmələrimiz olan gənclərin mənəvi aləminin daha da zənginləşdirilməsinə xidmət edir. Bu, bizim işimizin əsas qayəsi, məqsədi sayılır. İdman məktəbləri də uşaqlarda mənəvi təlabatın yaradılması üçün müasir təhsilin verdiyi bütün üstünlüklərdən faydalanır, təlim - tərbiyə işini düzgün qururlar.

Azərbaycan özünün müasir təhsil sistemi ilə fəxr edir. Təhsilimiz müəllim və pedaqoqlar üçün geniş imkanlar açmışdır. Eyni zamanda bu, təhsil ocaqlarında vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə qurulması üçün bir zəmin və stimuldur. Bu işdə idman məktəbləri də istisna deyildir və bu sahədə pedaqoji kollektivimizin gördüyü əməli işlər öz yaddaqalan xüsusiyyətləri ilə seçilir. Biz öz işimizi gələcəyin layiqli vətəndaşlarını yetişdirmək üzərində qurur, üzərimizə düşən vəzifə və öhdəlikləri layiqincə yerinə yetirməyə çalışırıq. Şagirdlərin idman həyatında, onların mənəvi aləminin zənginləşdirilməsində,onlarda milli şüurun formalaşdırılmasında idmanın yeri və rolu əvəzedilməzdir. Gündəlik işimizdə, istər məşqçi-müəllimlər ilə söhbətlərdə, istərsə də valideynlərlə söhbətlərdə uşaqlarda idmana maraq və diqqətin artırılmasını həmişə ön plana çəkirik, idmanın qəhrəmanların, böyük şəxsiyyətlərin xarakterinin formalaşmasında və mənəvi həyatında əvəzsiz rolunu diqqətə çatdırırıq.Təlim-tərbiyədə bütün mütərəqqi üsullar vacibdir.

İnsanda bir çox müsbət keyfiyyətlər məhz idmanla müntəzəm şəkildə məşğul olunan illərdə yaranır. İdman insanın harmonik şəkildə inkişafını, mənəvi zənginliyi və ictimai məsuliyyət şüurunu təmin edir. İdman ideya, etik və estetik zənginlik mənbəyi, qəhrəmanlıq xarakterinin tərbiyəedici mənbəyidir. İdman estetik zövqün, insan üçün bir çox müsbət keyfiyyətlərin,həmçinin vətənpərvərlik və hərbi-vətənpərvərlik ideyalarının daşıyıcısıdır.

**Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından tanıdılmalıdır.**



Təvəkgül Hüseynli, Gəncə şəhər Uşaq İncəsənət Məktəbinin direktoru:-Xalqımızın igid, qəhrəman oğlu Natiq Qasımov xalqını ürəkdən sevən bir igid olub. Onun qəhrəmanlığı gələcək nəsillər üçün də bir örnək yeri olacaqdır. Tarixə düşən qəhrəmandır. O, göstərdiyi qəhrəmanlıq ilə oğullarımızın vətənə olan sonsuz sevgisini, düşmənə olan hədsiz nifrətini sübut etmiş oldu. Düşmənlər hələ o illərdə bizim qəhrəman

oğullarımızın yenilməzliyini gördülər. Qarabağ torpağında çaldığımız tarixi qələbə bir daha buna sübut oldu.
Qəhrəmanlar haqqında olan yazılı ədəbiyyat nümunələri insanların qəlbində böyük hisslərin, yenilməz ruhun meydan tapmasında böyük bir təsirli vasitədir. O, xalqımızın övladlarını insanlıq naminə böyük işlər görməyə səsləyir. Vətənpərvərlik ruhunu özündə daşıyan ədəbiyyat nümunələri isə bu gün öz böyük tərbiyəedici funksiyası ilə daha da diqqət çəkir, onlar bu günün vacib informasiyalarını özündə daşımaqla, gələcək nəsillərin təlim-tərbiyəsi üçün böyük önəm daşıyır.

Əsrimiz texnologiya və informasiya əsridir. Bu, qəhrəmanlarımız haqqında da geniş məlumatlar almağa şərait yaradır. Məhz informasiya vasitələrinin verdiyi imkanlar vasitəsilə biz yenilməz qəhrəmanımız Natiq Qasımov haqqında məlumatlara sahib ola bildik. İnsanlar indi bu qəhrəmanın şəninə şeirlər qoşur, mahnılar bəstələyir, ona filmlər həsr olunur. Bu əlbəttə ki, qürurverici bir haldır. Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından tanıdılmalıdır.

İnsanlar üçün qəhrəmanlıq mövzusu həmişə maraqlı bir mövzu olaraq qalacaqdır. Bu, qəhrəmanlığa olan məhəbbətin bir cür təzahürüdür. Onları xatırlamaqla, insanlar onların ruhunu da yaşatmalı olurlar. Qəhrəmanlığı tərənnüm edən mahnılar, rəvayət və hekayətlər, kitablar və filmlər də bu səbəbdən yaranır. Qəhrəmanlar bu yolla yaşadılır, unudulmur. Bunu ailədə də təbliğ etmək, uşaqlarda qəhrəmanlığı özündə daşıyan şifahi və yazılı ədəbiyyata məhəbbət oyatmaq gərəkdir.Bu sahədə təhsil ocaqlarında böyük işlər aparılır, onlarda ədəbiyyata, şeirə, musiqiyə böyük məhəbbət aşılanır. Bununla belə uşaqlarda qəhrəmanlığı tərənnüm edən bütün

vasitələrə olan məhəbbətin ilkin təməli də ailədə qoyulmalıdır. Uşaqlarda kitablara məhəbbətin aşılanması onların təlim-tərbiyəsində önəmli xarakter daşıyır. Bu işdə valideynlərin də üzərinə böyük yük düşür. Onlar uşaqların yaş dövrünə uyğun kitablar seçmək və bunu məqsədyönlü şəkildə etmək, hələ uşaq yaşlarından onların şüurunda gözəlliyin, qəhrəmanlığın, vətənə məhəbbət və vətənpərvərliyin daşıyıcıları olan kitabların toxumunu səpmək lazımdır.Əgər bu tərbiyə aşılansa,onda uşaqlarda yaxşı oxumaq,əlaçı olmaq, məktəbin fəal və qoçaq şagirdi olmaq üçün onlarda daxili yanğı yaranacaqdır. Məktəb biliklərin əsasını qoyur, bu biliklərin təkmilləşdirilməsi isə insanda bütün ömrü boyu davam edir.

Şagirdlərin vətənpərvər vətəndaş kimi formalaşmasında, bu ruhda tərbiyə olunmasında vətənpərvərlik və hərbi-vətənpərvərlik mövzusunda yazılmış, yaxşı düşünülmüş, zəngin və estetik cəhətdən uşaq və gənc ürəkləri zənginləşdirən kitablar öz sözünü deyir.

Uşaqlar tərəfindən sevilən və çox oxunan bədii ədəbiyyat nümunələri çoxdur. Onların uşaqların tərbiyəsində oynadığı rol əvəzsizdir. Uşaqların ədəbiyyata olan maraqlarını istiqamətləndirərkən, onlara doğma vətənimizin gözəlliyini, müqəddəs saydığımız hər şeyi dərindən başa düşməyə kömək edirik. Bu yolla onlara həm də vətənimizi, onun keşiyində duran, onu qoruyan qəhrəmanlığımızı sevdiririk. Bu, onlara doğma xalqımıza məhəbbəti və sözün gözəlliyi hissini aşılayır.

Kitablar insan daxilində insan tərbiyə edir, bu günkü nəsillərin gələcəkdə vətənimizin layiqli oğul və qızları, vətənpərvərləri kimi yetişməsində böyük rol oynayır.Bunu eynilə incəsənət aləminə də aid etmək olar. Uşaqlar tək ədəbiyyat nümunələri üzrərində tərbiyə olunmurlar. İdman, musiqi, incəsənət...

uşaqlarımızın daxili aləmini gözəlləşdirir, bu yolla onlar xoşbəxtlik və gözəllik dünyasına daxil olurlar.Estetik tərbiyə də təlim - tərbiyədə önəmli yer tutur. Estetik tərbiyə həmişə var. Bu tərbiyə hər gün nəzərə çarpmadan həyatımıza daxil olur.Ona görə də gənc və yeniyetmələrə bu tərbiyəni aşılayarkən onları düzgün, faydalı yola istiqamətləndirmək lazımdır.Uşaqları, gənc və yeniyetmələri düzgün tərbiyə etmək - onları ölkəmizdə baş verən bütün yenilikləri, yüksəlişi səmimi qəlblə sevməyi, yaşadığı bu torpağın yetişdirdiyi qəhrəmanlarını, musiqisini, mədəniyyətini, bu gününü, xoşbəxt gələcəyini sevməyi öyrətmək deməkdir.

Ölkəmiz müstəqillik qazandığı dövrdən üzü bəri vətənpərvərlik hissləri xalqımızın şüurunda özünə yer almış, bu, xalqımıza və dövlətimizə yenilməz məhəbbət formasında özünü daim biruzə vermişdir. Bu hisslər dövlətimiz və xalqımızla bağlı bütün işlərdə kütləvi şüurda son dərəcə geniş əks-səda tapmışdır.Vətənə məhəbbət, milli iftixar, öz xalqının bu gününə, keçmişinəhörmət Azərbaycan xalqına xas olan xüsusiyyətlərdir. Bu hisslər hələ uşaq yaşlarından formalaşır və tədricən onun ağıl və düşüncəsinə hopur. Natiq Qasımov kimi qəhrəmanlarımıza olan məhəbbət hissləri də bu xüsusiyyətlər arasında ən ülvi hisslərdir.

## Tarixi qələbə. Gözün aydın olsun, Azərbaycan!



Azərbaycanın antiterror əməliyyatının mahiyyətini anlamaq üçün 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra baş verən hadisələri və münaqişə tərəfləri arasında qarşılıqlı əlaqələri tədqiq etmək son dərəcə vacibdir. "Vətən müharibəsi" kimi tanınan İkinci Qarabağ müharibəsi 1990-cı illərin əvvəllərindən Ermənistanın işğal etdiyi ərazilərdə Azərbaycan tərəfindən nəzarətin bərpa edilməsi ilə nəticələnmişdir.

Müharibə regional güc dinamikasında əhəmiyyətli dəyişikliklərə səbəb olsa da, bu, sülhə doğru uzun və çətin bir prosesin yalnız başlanğıcı idi. Beləliklə, region İkinci Qarabağ müharibəsindən sonra uzunmüddətli sülhə aparan yolun tapılması kimi mürəkkəb bir vəzifə ilə üz-üzə qalmışdı.

Həmçinin bu, erməni separatizminin, erməni faşizminin cənnət Qarabağımızda sonu idi. 30 ildən çox bir zamanda Qarabağ uğrunda verdiyimiz şəhidlərin qanı son damlasına kimi alındı. Artqı Qarabağ torpağı tam azaddır! Ermənistan Azərbaycanın bu region üzərində suverenliyini tanıdığı üçün Qarabağ məsələsi artıq beynəlxalq gündəmin parçası deyil.

Azərbaycan Qarabağda antiterror əməliyyatına başlaması zəruri idi. Biz sülh üçün çox çalışdıq. Tarixən Azərbaycan xalqına özünün düşməni kimi baxan, xalqımıza qənim kəsilən mənfur ermənilər bizim sülhsevərliyimizə daim xəyanət və qəddarlıqla cavab vermişlər. Həmin gün onların bu niyyətinə son qoyuldu.
24 saatlıq lokal xarakterli antiterror əməliyyatı Azərbaycan tarixinə qızıl həriflərlə yazıldı. Təəssüf ki, şəhidlərimiz və yaralılarımız var. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə isə şəfa diləyirəm. Ordumuzun Qarabağdakı separatçı rejimə və oradakı qeyri-qanuni erməni silahlı qüvvələrə qarşı apardığı 24 saatlıq lokal xarakterli anti-terror əməliyyatı növbəti dəfə Azərbaycan dövlətinin möhtəşəm zəfəri ilə nəticələndi. 1 günlük lokal xarakterli antiterror əməliyyatı Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrin təslim olmasına kifayət etdi. Sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Razılığa əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyub, döyüş mövqelərindən və hərbi postlardan çıxır, tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir və qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Hazırda Prezidentinin Administrasiyasının təklifi ilə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə Yevlaxda görüş keçirilir. Ermənilər Azərbaycanın şərtləri ilə razılaşmağa məcburdur".- həmin o tarixi günlərdə oxuduğumuz xəbərlərdən nə qədər

sevincduyduğumuzu təsəvvür etmək belə çətindir. Həmin günlər Azərbaycan xalqının ən xoşbəxt günlərindən biri kimi tarixə düşdü.
Azərbaycanın Müzəffər Ordusunun 1 günlük lokal xarakterli anti-terror əməliyyatı separatçıları ağ bayraq qaldırmağa vadar etdi. 44 günlük Vətən müharibəsidə olduğu kimi 24 saatlıq anti-terror əməliyyatı da ermənilərin biabırçı məğlubiyyəti ilə nəticələndi. Növbəti dəfə qazandığımız bu möhtəşəm zəfər xalqımızın Ali Baş Komandan İlham Əliyevə və ordumuza olan inamını ikiqat artırdı.

Rəsmi Bakı sentyabrın 20-də, 24 saat sonra "antiterror əməliyyatının" dayandırıldığını bəyan etdi. Qarabağdakı tanınmayan hakimiyyət silahı yerə qoyaraq təslim olmağa və Azərbaycanın şərtləri altında Yevlax şəhərində görüşməyə hazır olduğunu bildirdi. İllərlə Azərbaycan xalqına zülm edən, oğul və qızlarını işgəncələr verərək, öldürən, “Bakıya kimi gəlib alacağıq” deyə sərsəm fikirlər yürüdən bu faşist rejimi Azərbaycan əsgərinin qarşısında bir gün belə dayana bilmədi. Azərbaycan Yevlax şəhərində görüşü bir neçə aydır ki, təklif etsə də, Qarabağ erməniləri belə bir görüşün üçüncü ölkə ərazisində keçirilməsini tələb edirdilər. Azərbaycan prezidenti İlham Əliyev xalqa müraciətində separatçıların Bakının şərtlərini qəbul etməyə məcbur vəziyyətə gəldiyini vurğuladı. İndi onlar vaxtilə qəsb etmək istədikləri Yevlaxa tam təslim olmaq şərtlərini qəbul etmək üçün gəlirdilər. Nəticədə Xankəndi də daxil olmaqla bütün Qarabağ əraziləri erməni adlı murdar məxluqlardan təmizləndi. Könüllü olaraq köçürük-deyə Qarabağı tərk edən ermənilər bir daha burada yaşaya bilməyəcəklərini anlayıbmış kimi yiyəsi olmadıqları torpaqlardan “könüllü köç” adı ilə bu müqəddəs torpaqları tərk

etdilər. Onlar həmin anda nə fikirləşirdilər, gözləri önünə nələri gətirirdilər, düşünmək çətin deyil. Qarabağ ermənilərinin illərlə zülm etdikləri azərbaycanlılar, vəhşicəsinə qətlə yetirdikləri qocalar, uşaqlar, qocalar, qadınlar... Onlarla ərənləri diri-diri yandıran, doğrayan, süngüyə keçirtdən, əsirləri min bir işgəncəyə məruz qoyan insanları...Daha nələr, daha nələr...

Onların ayaq basdığı bütün Qarabağ zonası vəhşicəsinə talanmış, şəhər və qəsəbələr, gül-çiçəkli kəndlər viran qoyulmuşdu. Ali Baş Komandan İlham Əliyev demişkən, “Sanki bu yerlərdən barbar tayfaları keçib”...

Azərbaycan Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən Xankəndiyə Laçın və Ağdam yolları ilə dərman, ərzaq və digər malların çatdırılması üçün bütün lazımi şəraiti yaratdı.

Humanizm bizim xalqın qanındadır. Düşmənimizə belə münasibət uzun əsrlik mərdlik, kişilik, insanlıq qanunlarımızdan gəlir. Biz erməni deyilik. Onlar kimi qəddar, insanlığa düşmən deyilik. Biz, sivil insanlarıq və dövlətimiz də bu sivil, insani qanunlar üzərində qurulan bir dövlətdir. Rəsmi Bakı sentyabrın 22-də, Qarabağ ermənilərinin təmsilçiləri ilə görüşdən bir gün sonra Azərbaycan hökumətinin Qarabağa ərzaq və zəruri gigiyenik vasitələr, o cümlədən çörək dolu yardım göndərdi. Bax, budur humanizm!Budur insaniyyət!

Azərbaycan Müdafiə Nazirliyi Qarabağdakı erməni döyüşçülərin könüllü şəkildə döyüş mövqelərini tərk etməsi üçün də şərait yaradıldığını, onlara bu halda heç bir zərbə endirilmədiyini bəyan etdi.

Azərbaycan tərəfinin atdığı bütün humanist addımlara baxmayaraq, əvəzində Ermənistan Xarici İşlər Nazirliyi Azərbaycanın bu hərəkətini Dağlıq Qarabağa qarşı təcavüz kimi pisləyib, bu əməliyyatı "kütləvi cinayət" adlandırıb və

Azərbaycanı "etnik təmizləmə" aparmaqda ittiham edib. Budur erməni faşizminin iç üzü! Həyasızlıq, qeyri-insani davranışlar, heç bir insani qanunlara məhəl qoymayan erməni riyakarlığı!
Antiterror əməliyyatı zamanı Azərbaycanın haqlı işinə dəstək verən və öz suveren hüquqlarını qoruyan dövlətimizə qarşı anti-Azərbaycan mövqeyi tutan dövlətlər də vardı. Qarabağda "antiterror əməliyyatı" başlayandan sonra Fransa BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırmışdı.
Fransa Xarici İşlər Nazirliyinin yaydığı məlumatda “Dağlıq Qarabağın mülki əhalisinin taleyinə görə məsuliyyət tamamilə Azərbaycanın üzərinə düşür"- deyə bildirilirdi.
Rəsmi Bakı Fransanın bu bəyanatını pisləyərək suveren ərazisində qeyri-qanuni "hərbi mövcudluq regional sülh və təhlükəsizliyə ciddi təhdiddir"və “əməliyyat qanusuz qüvvələrin sıradan çıxarılmasına və marionet rejimin dağıdılmasına yönəlib”- deyə bildirdi.
Qarabağda "antiterror əməliyyatı" gedən zaman ABŞ-ın Dövlət katibi Antony Blinken Azərbaycan Prezidenti İlham Əliyevə və Ermənistanın Baş naziri Nikol Paşinyana zəng edərək tərəfləri dialoqa dəvət etdi.O, İlham Əliyevi hərbi əməliyyatları dərhal dayandırmağa çağırdı.

Azərbaycan Prezidenti ABŞ Dövlət katibinə “Silahın yerə qoyulduğu və tərksilah olunduğu halda, antiterror tədbirlərinin dayandırılacağını”deyib.
Tarixi qələbə qazanıldı. Erməni faşizmi diz çökdürüldü. Antiterror əməliyyatının hərbi, həmçinin siyasi məqsədi tam həyata keçirildi. Bu tədbirdə separatçı rejimin rəhbərliyi təslim oldu, bu, separatçıların hərbi qanadının təslim olmaları ilə sonlandı. Bunlar hər iki sahədə baş verdi.Azərbaycan tərəfi qarşı tərəfin təslimçilik təklifini qəbul etdi.Azərbaycan

ermənilərin bütün sahələrdə siyasi və hərbi planlarını pozdu və qalib gəldi. Separatçılar təslim oldu, BMT-də isə Azərbaycana qarşı heç bir addım atılmadı.Əldə etdiyimiz qələbələrdə Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevə, onun sadiq əsgər və zabitlərinə, bu yolda şirin canından keçmiş bütün şəhidlərimizə minnətdarıq. Onların qarşısında baş əyirik! Onlardan bizə çoxlu xatirələr qalıb. Onlar şəhid oldular ki, biz yaşayaq! Bütün şəhidlərimizin ruhu şad olsun! Natiq Qasımov kimi minlərlə igid oğullarımız vətənpərvərlik nümunəsini göstərib, gənc nəslin cəsarətlə addımlamasına, Vətənin keşiyində mətin duracaqları üçün zəmin yaratdılar. Natiq Qasımov kimi minlərlə mərd, cəsarətli, vətənsevər oğullar bizə bu sevincli günü görmək üçün şəhid oldular.Bu gün biz itirdiyimiz bütün şəhidlərimizin ruhu qarşısında baş əyir, Ruhunuz şadolsun ! - deyirik.

Qarabağda qazanılmış möhtəşəm qələbə bizim milli qürur və iftixar mənbəyimiz, qəhrəmanlıq və məğrurluq rəmzi, xalqımızın həmrəylik nümunəsidir. Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərinin xüsusi məharəti, böyük şücaəti və nümunəvi rəşadəti, Prezident İlham Əliyevin qətiyyəti sayəsində Qarabağımız 30 ildən çox hərbi-siyasi əsarətdən xilas edildi.

Gözün aydın olsun, Azərbaycan!

Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etməklə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Son 200 illik tariximizdə bənzəri olmayan böyük Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin deyil, eyni zamanda milli qürurun bərpasının təzahürüdür. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi: "Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və

zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu".

Antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi. Bu barədə Prezident İlham Əliyev xalqa müraciətində bildirib. Antiterror tədbirləri nəticəsində hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edən dövlət başçısı deyib: -"Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrəəhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun

böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır”.Sonda Əliyev bildirib ki, heç kim Azərbaycan xalqı ilə diktat və ultimatum dili ilə danışa bilməz: "Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyi güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər bizdən əl çəksinlər. Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir, Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcəyinə, sülh müqaviləsi imzalayacağına və Cənubi Qafqaz ölkələrinin üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqları günün uzaqda olmadığına ümidvaram. Onu da bildirməliyəm, bizə xor baxanlar, torpağımıza göz tikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, “dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”, - deyə İlham Əliyev müraciətində vurğulayıb. Respublika tariximizəən möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Prezident İlham Əliyev Azərbaycanı sürətlə inkişaf etdirərək, onu bölgənin lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevirdi.

21-ci əsrdəərazi bütövlüyünü bərpa etmiş yeganə dövlət olan Azərbaycan yalnız öz gücünə, xüsusən də Prezident İlham Əliyevin əsəri olan güclü milli iqtisadiyyata söykənərəkregionumuza sülh, əmin-amanlıq və inkişaf üçün yeni imkanlar gətirib.

# Natiq Qasımovun adı mütləq əbədiləşdiriləcəkdir



Natiq Qasımov hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında I Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyatdadır.

Dövlət Komissiyası I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, həmçinin Natiq Qasımovun axtarışlarını davam etdirir. Təəssüf ki, Natiq Qasımovun dəfn yeri barədə Dövlət Komissiyasında məlumat yoxdur. Ancaq, ehtimal etmək olar ki, onun meyidi Xocalı rayonu ərazisində dəfn edilmişdir. Dövlət Komissiyası işğaldan azad edilmiş bütün ərazilərimizdə, həmçinin Xocalı rayonu ərazisində I Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid ehtimal edilən məzar yerlərində qazıntı və ekshumasiya işlərini aparacaqdır.

Xalq vətən, torpaq uğrunda canından keçən öz qəhrəman övladlarını unutmur, qəlbində onlara əbədi heykəl ucaldacaqdır. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olan oğul və qızlarımızın adını

əbədiləşdirmək, xatirəsini əziz tutmaq üçün ölkəmizin bütün bölgələrində abidələr qoyulur, bulaqlar tikilir, parklar salınır. Natiq Qasımov kimi insanların adının əbədiləşdirilməsi üçün hər bir Azərbaycan vətəndaşı öz üzərinə düşəni etməyə çalışır.Natiq Qasımov haqqında tanınmış qələm adamları müxtəlif şeirlər, məqalələr yazıblar, onun haqqında artıq sənədli filmlər çəkilib.Birinci Qarabağ müharibəsinin iştirakçısı Natiq Qasımovun anası oğluna ad verilməsini, xatirəsinin əbədiləşdirilməsini istəyib. Bundan başqa bir çox hərbçilər, keçmiş döyüşçülər və ictimaiyyət nümayəndələrindən də belə təkliflər irəli sürülür, ona Milli Qəhrəman adının verilməsi haqda fikirlər səsləndirilir. Ümid edirik ki, dövlətimiz bu qorxmaz Azərbaycan əsgərinin qəhrəmanlığı və şücaətini lazımınca qiymətləndirəcək və onun adının əbədiləşdirilməsi üçün müvafiq addımlar atacaqdır.

Natiq Qasımov haqq etdiyinə mütləq layiq görüləcəkdir. Mətbuat nümayəndələri öz yazılarında bunu həmişə qeyd etməkdədir.

“6 il əvvəl Natiq Qasımovun ailəsi və Xocalıdan onunla birgə olan şəxslə görüşdüm. Bu haqda yutubda var”.- Bu fikirləri deputat Sahib Alıyev Milli Məclisin plenar iclasında bildirib.

-“Düşünürəm ki, Müzəffər Ali Baş Komandana Natiq Qasımov barəsində dolğun məlumat verilsə, o, haqq etdiyinə layiq görüləcək. Və bundan sonra Xocalıda küçələrdən birinə onun adı veriləcək”, - deyə deputat vurğulayıb.

Millət vəkillərinin Natiq Qasımovun igidliyinə verdiyi bu dəyər insanlarda qürur hissi oyadır. Çox keçməz onların igid qəhrəmanımızın adının əbədiləşdirilməsi haqqında olan bu fikirləri həyata vəsiqə alar.

Bəs sevimli qəhrəmana hansı halda Milli Qəhrəman adı verilə bilər?

Mövzu ilə bağlı mətbuat işçilərinə danışan hərbi ekspertlər fəxri adların və təltiflərin verilməsinin Azərbaycanın mövcud qanunvericiliyinin tələblərinəəsasən həyata keçirildiyini deyirlər. “Bu prosesdə ilk növbədə müraciət Natiq Qasımovun valideyni və ya yaxınları tərəfindən deyil, məhz şəhidin komandirləri tərəfindən irəli sürülməli idi. Bu isə zamanında baş verməyib. Yəni onun komandirləri heç bir müraciətlə Azərbaycan Müdafiə Nazirliyi qarşısında Natiqin təltif olunması barədə vəsatət qaldırmayıblar.

Lakin Müdafiə Nazirliyi bu məsələni öz səlahiyyətləri çərçivəsində həll edə bilər:

-Bunun üçün Müdafiə Nazirliyi araşdırmalar apardıqdan sonra Azərbaycan Respublikası Prezidenti qarşısında vəsatət qaldıra bilər. Lakin heç bir halda bu, valideyn və ya şəhidin yaxınları tərəfindən verilən təkliflər əsasında həyata keçirilmir. Prosedur qaydalarına görə, hərbi hissə yuxarı komandanlıq, yuxarı komandanlıq Müdafiə Nazirliyi, Müdafiə Nazirliyi isə ölkə rəhbərliyi qarşısında vəsatət qaldırmalıdır. Bu halda Natiq Qasımovun fəxri adla təltif edilə bilər”. - ekspertlər bildirirlər.

Düşünürük ki, zamanında bu məsələ də öz həllini tapacaq, Natiq Qasımova Milli Qəhrəman adı veriləcəkdir.

# Vətən sevgimizin bizə verdiyi yenilməz gücə inanırıq




1980-ci illərin sonundan başlayaraq ermənilər xalqımıza qarşı soyqırım və etnik təmizləmə aktlarını həyata keçirməyə başladılar. Bu qanlı əməllər qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə həyata keçirilirdi. Qarabağda ermənilər tərəfindən törədilən o dəhşətli cinayət əməllərinin məqsədi doğma torpağının müdafiəsinə qalxmış dinc əhalini qorxudub onun mübarizə əzmini qırmaq, eyni zamanda, ölkədə siyasi vəziyyəti qarışdıraraq, Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaqidi.Erməni şovinistlərinin bu faciələri törətməkdə məqsədi xalqımızı qorxutmaq, vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq, işğal faktı ilə barışmasına nail olmaq idi.

1992-ci ildə ermənilərin xalqımıza qarşı törətdiyi Xocalı soyqırımı da bəşəriyyətə qarşı yönəlmiş qanlı cinayət idi. Xocalı faciəsi iki yüz ilə yaxın müddətdə erməni şovinist

millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı idi.

Erməni faşistlərinin Azərbaycan torpağına gətirdiyi qətliamlar, vandallıq, soyqırım aktları igid oğullarımızı silaha sarılaraq, vətənin müdafiəsinə qalxmağa məcbur etdi. Ermənilərin vətənimizlə bağlı çirkin niyyətləri xalqımızın Natiq Qasımov kimi igid oğullarının timsalında puça endirildi. Minlərlə şəhid verildi, amma, xalqımızın qələbə əzmini qıra, bizi əsarət altına ala bilmədilər.

Artıq Azərbaycan tarixi qələbəni qazanıb. Natiq Qasımov kimi bütün qəhrəmanlarımızın, xalqımızın, şəhidlərimizin qisası birə-beş alınıb. Bundan sonra bir də Azərbaycanın başı üstünü qara buludlar almasın! Xoşbəxtlik bizə yar olsun! Bizə qismət olan bu xoşbəxtliyimiz - müstəqilliyimiz əbədi olsun!

Əminik ki, Azərbaycan Silahlı Qüvvələrinin vətəninə sadiq əsgər və zabitləri öz vəzifələrini bundan sonra da peşəkarcasına və cəsarətlə yerinə yetirəcəkdir. Hökumətimizin bundan sonra da bütün səviyyələrdə ardıcıl və səmərəli fəaliyyət göstərəcəyinəinamımız yenilməzdir.

Biz bütün ictimai qüvvələrin vahid, vətənpərvər mövqeyinə ümid edir, dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşəcəyinə inanırıq.

Nəhayət, tarixdə həmişə olduğu kimi, bu gün də Azərbaycanımızın taleyi çoxmillətli xalqımızın etibarlı əlindədir. Bu, o deməkdir ki, qarşıya qoyulan məqsədlərə nail olunacaq, Vətənimizin təhlükəsizliyi etibarlı şəkildə təmin olunacaqdır.

Biz vətən sevgimizin bizə verdiyi yenilməz gücə inanırıq!

Düşmən unutmasın ki, dəmir yumruq yerindədir!

# Mündəricat

Müəllifdən..........................................................................3
Yenilməz qələbə əzmi və tarixi qələbə....................................6
Erməni faşizmi və onun mahiyyəti........................................15
Əbədiyyətə gedən yol...........................................................21
Şəkillərin dili olsaydı, nələr deyərdi?!....................................30
Aramızda Natiq Qasımov adlı bir igid vardı!..........................33
Qəhrəmanın axtarışı.............................................................35
O, Xocalıları xilas etmək üçün təslim oldu..............................38
Taleyinə yazılmış son döyüş..................................................40
Müqəddəs Azərbaycan bayrağı..............................................48
Natiq Qasımov barədə araşdırmalar filmdə.............................50
Vitali Balasanyan şəkildə özünü niyə danırdı?........................59
Bayraq adam-Qəhrəmanlığın Natiq Qasımov zirvəsi..............68
Məzarları belə olmayan qəhrəmanlarımızın əziz xatirəsinə...Ruhunuz şad olsun!.............................................82
Adsız Qəhrəmanlar...............................................................83
Natiq Qasımovun sevdiyi qızın taleyi....................................87
Hələ də sağ qalıb qalmadığı bilinməyən Natiq Qasımov.........88
Qəhrəmanlar unudulmur!........................................................90
Natiq Qasımov xatirələrdə və yaddaşlarda...........................100
Natiq Qasımovun təhsil aldığı məktəbdə vətənpərvərlik tərbiyəsi...........................................................................104
Vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi görkəmli pedaqoqların dili ilə...........................................................113
Tarixi qələbə. Gözün aydın olsun Azərbaycan!.....................127
Natiq Qasımovun adı mütləq əbədiləşdiriləcəkdir.................135
Vətən sevgimizin bizə verdiyi yenilməz gücə inanırıq..........138

**Direktor**
Elnarə Məmmədova

**Ruhulla Əsgər oğlu Zahidov,**
“*Aramızda bir igid vardı*”

Çapa imzalanmışdır 20.10.2023
Nəşrin formatı 60x90 1/16
Şərti çap vərəqi 8,68
Sifariş 112  Tiraj 300

EKA DİZAYN
ÇAP XİDMƏTLƏRİ

Gəncə. H.Əliyev pr. 147A
Mob.:+994 55 760 77 75
İnst.:eka.dizayn
E-mail:eka_dizayn@mail.ru